# 20 Yanvar Ümumxalq Hüzn Günüdür


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 12 (30706) 19 yanvar 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**Azərbaycanın ən uca məşəli**

Səhifə ⇨ 5



# 20 Yanvardan müstəqil dövlətə

**1990-cı ilin 20 Yanvar hadisəsi hələ uzun müddət araşdırılacaqdır. Çünki hansı istiqamətdən baxsan, o hadisələr xalqın taleyinə uzun müddətə təsir edən prosesdir. Həmin gün Azərbaycanda tarixlə müasirlik, ənənə ilə yenilik qarşı-qarşıya gəlmişdi. “Dialoq” alınmadı, toqquşma baş verdi. Azərbaycan tarixinin çətin imtahanlarından birini də uğurla verdi...və yaddaşında “bir yarpaq” da yer aldı.**




O günlərin şahidləri və araşdırmaçılar yaxşı bilirlər ki, real olaraq nə qədər ziddiyyətli məqamlar vardı. Ölkə demək olar ki, “özünə sığmırdı” – düşdüyü vəziyyətdən çıxmaq üçün öz mənəvi, tarixi, mədəni və əxlaqi “sərhədlərini belə aşmağa” can atırdı. Bunun təməlində xalqın iradəsi, tarixi düşüncəsi, özünüdərketmə anlamı və tarixi seçimi dayanırdı. Azərbaycan xalqı keçmiş SSRİ-yə daxil olan ən cəsarətli, azadlıqsevər, mədəniyyətinə, dininə sadiq və mübariz qövm olduğunu həmin faciəvi, acılı günlərdə bütün dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı öz faciəsində yanaraq, öz külündən özünü yenidən yaratmağın nümunəsini göstərdi! Bu, böyük və tarixi qəhrəmanlıq nümunəsidir! Eyni zamanda, bir neçə əsrdə dəfələrlə təkrarlanan günahsız insanları itirmək mərhələsidir! Fəlakətlə ümid üzbəüz dayanmışdı!

20 Yanvar yaddaşlarda daha geniş anlamda yer tutmaqdadır. İnsanlar gözləmirdilər ki, “öz” sovet ordusu onlarla amansızcasına və qəvi düşmən kimi davransın. Azərbaycanlılar haradasa ümid edirdilər ki, Moskva ədaləti təmin edəcək. Ancaq reallıqda tamamilə başqa mənzərə yarandı. “Öz sovet əsgərləri” hətta kənarda dayanan, heç bir hərəkət etməyən Azərbaycan insanlarını qətlə yetirdi. Sumqayıt istiqamətində yol kənarında dayanmış minik avtomobilini sovet tankı “sadəcə əzərək” keçdi. Həlak olanlar isə üç dəyərli alim idi!

Küçələrdən öz işi üçün keçən gənclər, qadınlar, yaşlılar, uşaqlar sadəcə azərbaycanlı olduqlarına görə məhv edildilər. Lənkəranda gənclərin boğazları ilə ayaqlarını kürək tərəfdən tikanlı məftillə “birləşdirmişdilər”!

Azərbaycan anaları qan ağlayırdılar. Bunlar unudulmaz, yaddaşın bir yerində əbədi qalar! Eyni zamanda, bizi baş verənləri təkrar-təkrar ağlın süzgəcindən keçirməyə səslər. Emosional tərəfi bir yana qoyub, məntiqlə yanaşsaq, 20 Yanvarın bizim üçün mənası nələrdən ibarətdir?

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan və Gürcüstan – Cənubi Qafqazın inkişaf sütunları

## *Ölkələrimizin vahid mövqedən çıxış etmələri region üçün böyük təminatdır*

**Gürcüstan Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri, eləcə də Prezident İlham Əliyevlə təkbətək görüş sonrası hər iki tərəfin mətbuata birgə bəyanatlarında səsləndirdikləri fikirlər bir çox mətləblərdən xəbər verir. Yazımız bu barədə olacaq. Əlbəttə, bir sıra əlaqəli məqamların üzərində də dayanacağıq.**



**İlk növbədə,** onu bildirək ki, Gürcüstan hökumət rəhbərinin ölkəsində gərgin keçən parlament seçkilərindən sonra ilk səfərini Azərbaycana reallaşdırması adi məsələ sayıla bilməz. Deməli, ciddi neytrallıq xətti tutan Gürcüstan region amilinə üstünlük verir. Bu, ölkənin müstəqil siyasət xəttinin dönməzliyini nümayiş etdirən mühüm məqamdır.

Azərbaycan da vahid Qafqaz evi ideyasına sadiqdir və rəsmi Tbilisinin eyni mövqeni bölüşməsi bu ideya üçün möhkəm təminatdır. Bu təminat, eyni zamanda, regionu kənar qüvvələrin müdaxiləsindən sığortalayır.

*(ardı 3-cü səhifədə)*

# Qanla qazanılmış milli azadlıq




Səhifə ⇨ 12

# İrəvan NATO təlimindən niyə kənarda qaldı?

**Qonşu Gürcüstan Respublikası aprelin 28-dən mayın 8-dək “Gürcüstan–NATO 2025” komanda-qərargah təlimlərinə evsahibliyi edəcək. Təlimlər Tbilisi yaxınlığındakı Krtsanisidəki hərbi bazada, birgə təlim və qiymətləndirmə mərkəzində keçiriləcək. Bu barədə İtaliyanın Gürcüstandakı səfirliyi məlumat yayıb.**

Məqsəd NATO–Gürcüstan Birgə təlim və qiymətləndirmə Mərkəzinin imkanlarını nümayiş etdirmək, əsasən Gürcüstan və qismən beynəlxalq hərbi personaldan ibarət briqadaları sınaqdan keçirməkdir. İlk dəfə 2016-cı ildə təşkil edilən və indi dördüncü dəfə keçirilən manevrlərə İtaliya Ordusunun Florensiyada yerləşən “Vittorio veneto” diviziya komandanlığı rəhbərlik edəcək. Məlumatda qeyd edilib ki, Azərbaycan, Türkiyə, Albaniya, Bolqarıstan, Macarıstan, Almaniya, Yunanıstan, Polşa, Slovakiya, ABŞ və Fransa artıq təlimlərdə iştirakını təsdiqləyib. Ermənistan isə müşahidəçi qismində iştirak edəcək.



*(ardı 4-cü səhifədə)*

# Rusiya və İran da strateji tərəfdaş oldular



Səhifə ⇨ 15

# “Üzrü qəbahətindən betər”dir

Səhifə ⇨ 4

# Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Türkiyə Respublikasının Xarici İşlər naziri Hakan Fidanı qəbul edib.**

Hakan Fidan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Azərbaycan –Türkiyə: İkitərəfli və çoxtərəfli gündəlik

**Yanvarın 18-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Türkiyə Respublikasının Xarici İşlər naziri Hakan Fidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniştərkibli formatda davam edib, Azərbaycan və Türkiyə ikitərəfli və çoxtərəfli gündəliyində duran aktual məsələlər, son regional inkişaflar fonunda fürsətlər və çağırışlar müzakirə olunub.

Görüşlər zamanı Azərbaycan və Türkiyə prezidentlərinin liderliyi və gələcəyə baxışı sayəsində Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəlmiş Azərbaycan–Türkiyə münasibətlərinin geniş əhatə dairəsi, çoxvektorlu xarakteri və zəngin məzmunundan məmnunluq ifadə olunub.

Siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat-kommunikasiya, təhlükəsizlik, hərbi-müdafiə, humanitar və digər istiqamətlər üzrə dövlət və hökumət qurumlarımız arasında əməkdaşlığın müsbət dinamikası qeyd olunub.

İkitərəfli müttəfiqliyimiz fonunda ölkələrimizin Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan–Türkiyə–Özbəkistan kimi üçtərəfli, Azərbaycan–Türkiyə–Gürcüstan-Qazaxıstan dördtərəfli əməkdaşlıq formatları çərçivəsində uğurla əməkdaşlıq etdiyi bildirilib.

BMT, ATƏT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və D-8 kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycan–Türkiyə tərəfdaşlığının həqiqi müttəfiqlik nümunəsi olduğu vurğulanıb.

Türk Dövlətləri Təşkilatında müxtəlif sahələr üzrə birgə təşəbbüslərin irəli sürülməsi, ali və yüksək səviyyədə toplantıların keçirilməsi, əhəmiyyətli qərarların qəbulu xüsusunda Azərbaycan və Türkiyənin bu təşkilata verdiyi əhəmiyyət və bu məqsədlə həyata keçirdiyi əməkdaşlıqdan danışılıb.

Azərbaycanın tamhüquqlu üzv kimi inkişaf etməkdə olan ölkələrin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) qoşulması prosesində Türkiyənin Azərbaycana göstərdiyi dəstək yüksək qiymətləndirilib. Eyni zamanda, 2024-cü ilin noyabr ayında Bakıda keçirilmiş COP29 beynəlxalq iqlim konfransında qardaş Türkiyənin dövlət başçısı səviyyəsində geniştərkibli və fəal iştirakı minnətdarlıqla xatırlanıb.

İqtisadiyyat, ticarət və investisiya ölçüləri üzrə Azərbaycan və Türkiyənin əlaqələrinin böyük məsafə qət etdiyi və nümunəvi xarakter daşıdığı ifadə olunub.

Ölkələrimiz arasında humanitar, o cümlədən, turizm, səhiyyə, təhsil, elm, mədəniyyət sahələrində təmaslar, mübadilələr və işbirliyinə toxunularaq, eyni millətə, eyni dilə və eyni dinə bağlı olan xalqlarımız arasındakı körpülərin dövlətlərarası münasibətlərimizi sarsılmaz və əbədi etdiyi vurğulanıb.

Nazir Ceyhun Bayramov həmkarına Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzərində aparılan danışıqların hazırkı mərhələsi barədə məlumat verib. Suriyada baş verən son inkişaflar fonunda qardaş Türkiyənin müsbət rolundan bəhs olunub, Suriyadakı yenidənqurma fəaliyyətlərində ölkələrimizin müştərək iştirak imkanları nəzərdən keçirilib.

Daha sonra nazirlər görüşün nəticələri ilə bağlı mətbuat konfransında bəyanatlarla çıxış ediblər, media nümayəndələrinin suallarını cavablandırıblar.

*XQ*

# Tariximizin qəhrəmanlıq səhifəsi – 20 Yanvar





## AMEA

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin növbəti iclasında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar faciə qurbanlarının əziz xatirəsi yad edilib.

Akademiyanın prezidenti İsa Həbibbəyli 20 Yanvar faciəsinin müasir Azərbaycan Respublikasını müstəqilliyə aparan yolunda dönüş nöqtələrindən biri olduğunu, xalqımızın qəhrəmanlığı və Ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində SSRİ rəhbərliyinin öz məkrli məqsədlərinə nail ola bilmədiklərini söyləyib. Akademik 20 Yanvar hadisələri zamanı xalqımızın qəhrəman oğul və qızlarının ağır silahlanmış sovet ordusuna qarşı əliyalın mübarizə apararaq azadlıq və dövlət müstəqilliyimiz uğrunda canlarından keçmiş, müqəddəs şəhidlik zirvəsinə ucaldıqlarını qeyd edib.

Akademiyanın prezidenti 1994-cü ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən xüsusi qərarın qəbul edilməsilə xalqımızın məruz qaldığı dəhşətli faciəyə rəsmi olaraq siyasi-hüquqi qiymətin verildiyini vurğulayıb.

Daha sonra AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən akademik Gövhər Baxşəliyeva 20 Yanvar faciəsinə aparan yol, xalqımızın qəhrəman oğul və qızlarının şücaəti, Ulu öndər Heydər Əliyevin hadisəyə verdiyi hüquqi-siyasi qiymət, Prezident İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya həsr olunmuş geniş məruzə ilə çıxış edib.

## FHN

Fövqəladə Hallar Nazirliyinin (FHN) strukturlarında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar anım mərasimləri keçirilib. Mərasimlərdə əvvəlcə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər 1990-cı ilin 20 Yanvar hadisəsini Azərbaycan xalqının böyük faciəsi adlandırmaqla yanaşı, tariximizin qəhrəmanlıq səhifəsi olduğunu da diqqətə çatdırıblar.

Bildirilib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin göstərişi ilə sovet ordusunun və xüsusi təyinatlı birləşmələrinin, habelə daxili qoşunların kontingentinin Bakı şəhəri və respublikanın digər şəhər və rayonlarına yeridilməsi nəticəsində dinc əhaliyə, o cümlədən uşaqlara, qadınlara və qocalara qarşı amansız qırğınlar törədilib.

Qeyd olunub ki, xalqımızın o ağır günlərində faciədən dərhal sonra – yanvarın 21-də həyatını təhlükə qarşısında



qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ulu öndər Heydər Əliyev burada beynəlxalq media nümayəndələri üçün mətbuat konfransı keçirərək dünya ictimaiyyətini baş vermiş bəşəri cinayət barədə məlumatlandırıb, törədilmiş amansız qırğını kəskin şəkildə pisləyərək, faciəyə siyasi-hüquqi qiymət verilməsini tələb edib. Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilib.

## Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi

Qanlı 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi, general-mayor İlqar Abbasov və agentliyin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edərək şəhidlərin məzarları üzərinə gül dəstələri qoyub, ölkənin azadlığı uğrunda həlak olanların xatirəsini hörmət və ehtiramla yad ediblər.

Daha sonra agentliyin inzibati binasında davam edən anım tədbirində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbirin sonunda sənədli film nümayiş etdirilib.

## "AzerGold" QSC

"AzerGold"da müstəqil Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biri olan 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasimdə adıçəkilən QSC və onun törəmə cəmiyyəti "Daşkəsən Dəmir Filiz" MMC-nin rəhbərliyi və kollektivi, həmçinin 20 Yanvar şəhidlərinin və əlillərinin Vətən müharibəsində iştirak etmiş övladları iştirak ediblər.

Qeyd edilib ki, Prezident İlham Əliyevin liderliyi ilə 44 günlük Vətən müharibəsi zamanı düşmən üzərində parlaq Zəfərin əldə edilməsində Silahlı Qüvvələrimizin sıralarında döyüşən qanlı Yanvar faciəsinin qurbanlarının övladlarının da payı var. Bildirilib ki, onların talelərinə ataları kimi düşmənlə mübarizədə qəhrəmanlıq göstərmək, öz atalarının qisasını torpaqlarımıza göz dikənlərdən almaq yazılıb.

Daha sonra çıxış edən 20 Yanvar şəhidlərinin Vətən müharibəsində iştirak etmiş övladları qanlı faciə barədə təəssüratlarını və Vətən müharibəsində keçdikləri döyüş yolu haqqında xatirələrini bölüşüblər.

## Veteranlar Təşkilatı

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar olaraq Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının üzvləri



Şəhidlər xiyabanını ziyarət edib, şəhid məzarları üzərinə gül dəstələri düzüblər.

Veteranlar və məktəblilər qarşısında çıxış edən təşkilat sədri polkovnik Cəlil Xəlilov 20 Yanvar hadisələrindən bəhs edib, xalqımızın çətin zamanda sərgilədiyi qəhrəmanlıqlardan danışıb. O, daha sonra bildirib ki, həmin gün azadlığı və müstəqilliyi naminə ölümə meydan oxuyan Azərbaycan xalqı məhz öz cəsarəti sayəsində yeni bir dönəmin başlanğıcını qoyub.

Mərasimdə çıxış edən digər veteranlar da xalqımızın 20 Yanvar faciəsi zamanı nümayiş etdirdiyi qəhrəmanlıqlardan bəhs edib.

## Milli Azərbaycan Tarixi Muzeyi

Muzeydə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş mərasimdə əvvəlcə Dövlət Himni səsləndirilib, ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər 20 Yanvarın tariximizə təkcə faciə kimi yox, həm də mübarizlik, qəhrəmanlıq günü kimi daxil olduğunu vurğulayıblar, bu hadisələr zamanı xalqımızın başına gətirilən müsibətlərdən və xalqın azadlıq mübarizəsindən danışıblar.

Sonra Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə edilmiş Azərbaycan Rəssamlar İttifaqının üzvü Esmeralda İslamova – Tağızadənin 20 Yanvar faciəsini əks etdirən rəsm əsəri triptixinin təqdimatı keçirilib.

Mərasimdə "Esmeralda" uşaq və yeniyetmə yaradıcılıq studiyasının üzvlərinin rəsm əsərləri də sərgilənib.

## Bakı Kitab Mərkəzi

Mərkəzdə 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş "20 Yanvar – Azadlığın Zirvə Günü" adlı mərasim keçirilib. Mərasimin əvvəlində ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının və Aktau şəhərinin yaxınlığında təyyarə qəzasında həyatını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bildirilib ki, 20 Yanvar faciəsi xalqımızın yaddaşında qürur və qəhrəmanlıq səhifəsi kimi qalıb. Azadlığımıza, müstəqilliyimizə gedən yol məhz bu gündən başlayır. İndi fəxrlə deyə bilərik ki, 20 Yanvar şəhidlərinin qanı yerdə qalmadı. Ümummilli lider Heydər Əliyev öz uzaqgörən siyasəti ilə Azərbaycanı alınmaz qala kimi bütün yad təcavüzlərdən qorudu.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi və rəşadətli Ordumuzun şücaəti nəticəsində ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan xalqı düşmən üzərində tarixi Zəfər çaldı. Bu Zəfər sevincinə görə Vətən uğrunda canlarından keçən şəhidlərin ruhu qarşısında baş əyirik!

Sonra Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Teatr sənəti", "Milli rəqs", "Vokal" dərnəklərinin və "Çiçəyim" uşaq teatrının üzvləri mövzuya aid səhnəciklər, rəqslər nümayiş etdirib, şeirlər və mahnılar ifa ediblər.

## İqtisadi mərkəz

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş mərasim keçirilib.

Mərkəzin icraçı direktoru Vüsal Qasımlı tarixi hadisələrə nəzər salaraq xalqın qəhrəman övladlarının apardığı azadlıq mübarizəsini, müstəqillik salnaməsini bir daha xatırladıb. O bildirib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 20 Yanvar hadisələrinə hüquqi və siyasi qiymət verilib. Bununla da tariximizə milli iradənin simvolu kimi daxil olan 20 Yanvar hər il dövlət səviyyəsində anılır, gənc nəslə ötürülərək əbədiləşdirilir.

*V.BİNYATOĞLU*
*XQ*

# Azərbaycan və Gürcüstan – Cənubi Qafqazın inkişaf sütunları

*(əvvəli 1-ci səhifədə)*

**İkincisi,** Prezident İlham Əliyev mətbuata birgə bəyanatında İ.Kobaxidzeyə xitabən bildirdi ki, "Parlament seçkilərindən sonra ilk səfərinizi Azərbaycana həyata keçirməyiniz, təbii ki, Gürcüstan–Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir". Həqiqətən, Azərbaycan–Gürcüstan münasibətləri xüsusi xarakter, dərin mahiyyət və məzmun daşıyır. Müstəqillik illərində həmişə belə olub. Ulu öndər Heydər Əliyev və Gürcüstanın o zamankı Prezidenti Eduard Şevarnadze tərəfindən əsası qoyulmuş əlaqələrimiz qarşılıqlı inama, mehriban qonşuluğa əsaslanıb və bu xüsusiyyət nəinki işbirliyinin möhkəmlik fazasını və etibarlılığını yaradıb, eyni zamanda, regional təhlükəsizliyin və inkişafın müstəsna seqmenti qismində çıxış edib. İ.Kobaxidzenin səfəri bu xəttin dönməzliyinin növbəti təsdiqidir. Ən əsası isə gürcü hökumət rəhbərinin parlament seçkilərindən sonra ilk səfərini ölkəmizə reallaşdırması ənənələrdən xəbər verir. Prezident İlham Əliyevin bildirdiyi kimi: "Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan–Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər".

**Üçüncüsü,** bilavasitə dövlətimizin başçısının nümunəvi saydığı qonşuluq üzərində dayanmaq istərdik. Cənab Kobaxidzenin ölkəsindəki taleyüklü prosesdən sonra Azərbaycana səfər reallaşdırması həm də qonşuluğun davamlılıq xarakteridir. Bir anlıq düşünək: Müsəlman Azərbaycanı və xristian Gürcüstan. Onu da düşünək ki, tarixin heç bir dövründə Azərbaycan və gürcü xalqlarının bir-birinə yanaşmalarında din amili ön planda olmayıb. Məişət, ənənə yaxınlığı konsepti əsas götürülüb. Halbuki, müstəqillik dövründə bir sıra beynəlxalq dairələr müsəlman Azərbaycanı bölgüsünü aparıblar. Bu xətt xristian dövləti kimi Ermənistanı ön plana çıxarmaq niyyəti güdüb. Azərbaycan–Gürcüstan qonşuluğunun nümunəvi xarakteri isə ölkəmizə yönəlik bütün mənfi stereotipləri alt-üst edib və etməkdədir. Nəticə etibarilə Ermənistan, belə demək mümkünsə, oyundankənar durumdadır. Dünya birliyi, xüsusən İrəvanın havadarları mövcud məqamı ciddi şəkildə düşünsünlər. Yaxşı olar ki, təkcə düşünməsinlər, eyni zamanda, özlərinin xristian təəssübkeşliyi notlarında düzəlişlər aparsınlar. Çünki kənardan çox gülünc görünürlər.

**Dördüncüsü,** Azərbaycan və Gürcüstan qonşuluğu beynəlxalq aləmə də nümunədir. Bu qonşuluğun vahid Qafqaz evi ideyasını xatırladıq. Nəzərə alaq ki, ev də dövlət kimi güclü müdafiə qabiliyyətinə malik olmalıdır. Əgər SSRİ-nin süqutunadək Azərbaycan və gürcü xalqları müştərək saydıqları məkanı tarixi yaxınlıq ənənələri ilə qoruyublarsa, müstəqillik illərində müdafiənin xarakteri dəyişib.

Bu gün Bakı və Tbilisi mövcudluqlarının dünyaya faydalılıq parametrini müəyyənləşdiriblər. Mövcud trayektoriyada ənənələr birləşdirici, əlaqələr və işbirliyi möhkəmləndirici mahiyyət daşımaqdadır. Möhkəmlənən isə dövlətlərimizdir. Hesab edirik ki, baş nazir İ.Kobaxidzenin Azərbaycana səfərinə və səfər çərçivəsində səslənmiş fikirlərə məhz bu kontekstdən də yanaşmaq lazımdır.

**Beşincisi,** Prezident İlham Əliyev mətbuata bəyanatında Azərbaycan–Gürcüstan əməkdaşlığının müxtəlif sahələri üzərində dayandı. Əvvəldə bu əməkdaşlığın regional təhlükəsizlik və beynəlxalq aləm üçün faydalılıq amillərinə nəzər yetirdik. Təməsal edirik ki, hər iki seqmentin dərinləşməsinə və dolğunlaşmasına ehtiyac var. Çünki dünya dəyişir və inkişaf edir. Obrazlı desək, geridə qalmış atların güllələndiyi bir dövrdə yaşayırıq. Məsələyə mövcud prizmadan yanaşsaq, hər iki ölkənin bir-biri üçün də cəlbedicilik fazasının gücləndirilməsinə ehtiyac duyulmaqdadır. Ona görə də Prezident İlham Əliyev Azərbaycanın Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyduğunu xatırladıb və əlavə edib: "Əlbəttə, bu, onu göstərir ki, hökumətinizin (rəsmi Tbilisinin – red.) uğurlu iqtisadi siyasəti, sərmayələrin cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini qoyurlar".

**Altıncısı,** bilavasitə haqqında söz açdığımız regiondan kənara, beynəlxalq aləmə faydalılıq amili üzərində dayanaq və Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərə diqqət yetirək. Dövlətimizin başçısı energetika sahəsində Azərbaycan və Gürcüstan arasındakı əməkdaşlığın daha böyük, geniş coğrafiya üçün əhəmiyyətini vurğulayıb. Nəzərə alaq ki, Prezident Əliyev Qərb qonşumuzla birgə həyata keçirdiyimiz neft-qaz layihələrinin hazırda bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil etdiyini elə-belədən diqqətə çatdırmır. Bu, xaricə mesajdır. Mesajda Gürcüstanın da dünya üçün önəmi vurğulanır. "Təkcə onu demək kifayətdir ki, Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir və ixracın həcmi ildən-ilə artır. Keçən il, bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi – ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Mənə verilən məlumata görə, Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni, bu, doğrudan da, çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək. Bizim yeni qaz yataqlarımız bu il işə düşəcək. Gələn il, ondan sonrakı illər üçün də yeni kəşf edilmiş yataqlar mövcuddur. Ona görə getdikcə təbii qazın ixracı artmalıdır və artacaqdır", – deyən ölkəmizin lideri paralel olaraq, müştərək yaşıl enerji layihələrinin də reallaşdırıldığından söz açıb. Bu isə həssas sahənin əhəmiyyətinin ciddi şəkildə vurğulanmasıdır.

***

Ayrıca onu da bildirək ki, Prezident İlham Əliyev Baş nazir İrakli Kobaxidzenin təkbətək görüşündə müzakirə edilən ən başlıca məsələlərdən biri də Orta Dəhliz layihəsi olub. Görünən budur ki, sözügedən dəhliz bağlantılarımızın mühüm aspektini müəyyən edəcək. Dövlətimizin başçısı "Bizim müvafiq qurumlarımızın koordinasiya şəklindəki fəaliyyəti"nin bu layihəni də uğurla başa çatdırmaq üçün əminlik yaratdığını dilə gətirib. "Burada, əlbəttə ki, biz bir çox qonşularla təmasda olmalıyıq və bu təmaslar var. Bu da böyük coğrafiyanı əhatə edən layihədir və yenə də Gürcüstanla Azərbaycan burada Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayırlar" – deyən Prezident İlham Əliyev hər iki ölkədə nəqliyyat infrastrukturunun genişləndirilməsinin, həmçinin infrastrukturun rəqəmsallaşdırılmasının həm xalqlarımız, həm də qonşularımız üçün çox əvəzolunmaz xidmət mahiyyətini qabardıb. Bu yerdə yalnız bir faktı vurğulayaq: Azərbaycanın Zəngəzur dəhlizi ideyası böyük Orta Dəhliz ideyasının mühüm tərkib hissəsi sayılır. Ermənistan Zəngəzur dəhlizinin reallaşmasına qarşı çıxır. Elə isə Baş nazir İrakli Kobaxidzenin Bakıda nələri bildirdiklərini yada salaq: "Cənab Prezident, Siz bağlantı layihələrini qeyd etdiniz. Bu, mühüm bir sahədir və bizim ikitərəfli əlaqələrimizin inkişafı baxımından da bu mövzu vacib əhəmiyyət kəsb edir. Bu coğrafi genişlənmədə ölkələrimiz əhəmiyyətli rol oynaya bilər. Biz Asiyanı Avropa ilə birləşdiririk və bu potensialdan maksimal dərəcədə istifadə etməliyik. Odur ki, bu layihələr bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olmuşdur. Hazırda üzərində işlədiyimiz növbəti layihələr var ki, onlar da bizim ölkələrin mənafeyi naminə bu potensialı genişləndirəcək. Bu tərəfdaşlığımızın irəliləməsi üçün əlavə səylər göstərməyə hazırıq".

Bəli, Azərbaycan və Gürcüstan Cənubi Qafqazı dünyaya tam fərqli tərzdə təqdim etməkdə israrlıdırlar. Belə bir təqdimat regionun beynəlxalq aləm üçün vaciblik parametrini müəyyənləşdirir, hər iki dövlətin müstəqil siyasət amplitudasını eyni hədəflərə kökləyir. Strateji tərəfdaşlığı doğuran də məhz budur. Strateji tərəfdaşlığın təməlində isə dostluğa və qardaşlığa əsaslanmış tarixi ənənələr dayanır ki, Gürcüstanın baş naziri İ.Kobaxidzenin mətbuata bəyanatında məhz mövcud məqama önəm verməsi rəsmi Tbilisi ilə Bakının münasibətlərinin etibarlılığı baxımından tamamlayıcı faktordur: "Mən əminəm ki, bu tərəfdaşlıq gələcəkdə də eyni ruhda inkişaf edəcəkdir. Vacib məqam odur ki, biz hər birimizin strateji və milli maraqlarına hörmətlə yanaşırıq. Biz ölkələrimizin ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəkləyirik. Cənab Prezident, bu dəstəyə görə şəxsən Sizə və Azərbaycana təşəkkür edirəm".

Sonda bir daha Baş nazir İrakli Kobaxidzenin ölkəsindəki parlament seçkilərindən sonra ilk səfərini Azərbaycana reallaşdırması üzərində dayanaq. Məsələ burasındadır ki, Gürcüstan seçkilərdə gərgin mübarizə şəraitində öz gələcəyini, milli dəyərlərini, tarixi irsini, təhlükəsizliyini və inkişafını qorudu. Ayrıca onu da bildirək ki, Azərbaycan və Gürcüstan liderlərinin və xalqlarının müdrikliyi ümumən regionumuzun yad dəyərlərdən, qeyri-ənənəvi meyillərdən müdafiəsində başlıca halqanı təşkil etməkdədir. Nəticədə hazırda hər iki ölkə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, çiçəklənmənin və inkişafın sütunlarıdır. Əminik ki, bundan sonra da belə olacaq.



*Əvəz CAHANGİROĞLU*
*XQ*

**Azərbaycanın davamlı iqtisadi inkişafı, yerləşdiyi əlverişli coğrafi mövqeyindən səmərəli faydalanması, beynəlxalq aləmə sürətlə inteqrasiyası ölkəmizin xarici əlaqələrinə də müsbət təsir göstərir. Respublikamızın qonşu dövlətlərlə bağlı siyasətində Gürcüstanla münasibətlər xüsusi önəm kəsb edir. Azərbaycanın zəngin enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstanın mühüm tranzit rol oynaması da bunun bariz ifadəsidir.**

# Regional əməkdaşlıq örnəyi

Azərbaycan ilə Gürcüstan arasında iqtisadi sahədə münasibətlər hazırda yüksək səviyyədədir. İqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya 2004-cü ildən etibarən fəaliyyət göstərir. Komissiyanın mütəmadi olaraq iclasları keçirilir və son (10-cu) iclası yanvarın 17-də Bakıda oldu.

İki qonşu və dost dövlətin tarixi İpək Yolu üzərində yerləşməsi və ölkələrimiz tərəfindən birgə irimiqyaslı enerji və nəqliyyat layihələrinin icra edilməsi regionumuzdan keçən yük axınının həcminin getdikcə artmasını şərtləndirir. Ölkələrimiz arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivəsində irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin (Bakı –Tbilisi – Ceyhan neft boru kəməri, Bakı –Tbilisi – Ərzurum qaz boru kəməri, Bakı –Tbilisi – Qars dəmir yolu və s.) reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edir.

Ölkələr arasında regionlararası əməkdaşlıq da yüksələn xətlə davam edir. Belə ki, iki ölkənin bir sıra şəhərləri arasında birbaşa əməkdaşlıq əlaqələri qurulub. Azərbaycan ilə Gürcüstanın bir sıra şəhərləri – Gəncə–Kutaisi (1995-ci il), Sumqayıt–Rustavi (2007-ci il), Naxçıvan–Batumi (2012-ci il), Şəki–Telavi (2012-ci il), Bakı-Tbilisi (2021-ci il), Şəmkir–Marneuli (2022-ci il), Ağstafa-Qardabani (2022-ci il), Göygöl–Bolnisi (2022-ci il), Daşkəsən–Dmanisi (2022-ci il) arasında "qardaşlaşma" əlaqələrinə dair müvafiq memorandumlar imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin yanvarın 17-də mətbuata bəyanatlarında da iki ölkə arasında yüksək səviyyədə olan iqtisadi əməkdaşlığın, eləcə də bu çərçivədə uğurlu regional münasibətlərin getdikcə möhkəmlənməsi öz ifadəsini tapıb. Dövlətimizin başçısı İlham Əliyev çıxışında deyib: "İqtisadi sahədə yaxşı nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub. Əlbəttə, bu, onu göstərir ki, hökumətinizin uğurlu iqtisadi siyasəti, sərmayələrin cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini qoyurlar".

Azərbaycan lideri bəyanatında iki dövlət arasında energetika sahəsində əməkdaşlığın həm ölkələrimiz, həm də daha böyük, geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıdığını, birgə gerçəkləşdirilən neft-qaz layihələrinin Avropanın enerji təhlükəsizliyinin əsasını təşkil etdiyini, Gürcüstan tranziti vasitəsilə Azərbaycanın hazırda 11 ölkəyə təbii qaz ixracını həyata keçirdiyini, ixrac həcminin ildən-ilə genişləndiyini bildirib. Prezident İlham Əliyev çıxışında iki ölkə arasında birgə "yaşıl" enerji və nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılması layihələrinin uğurla həyata keçirildiyini, infrastrukturun daim diqqətdə saxlanıldığı Orta Dəhliz layihəsinin böyük coğrafiyanı əhatə edən əhəmiyyətli təşəbbüs olduğunu və Gürcüstanla Azərbaycanın bu məsələdə də Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynadıqlarını vurğulayıb.

Orta Dəhliz layihəsinin inkişafı və perspektivinin müzakirəsi hazırda xüsusi diqqət mərkəzindədir. Ona görə də hər iki ölkə dəmir yolu xəttinin genişləndirilməsi, magistral yolların beynəlxalq səviyyədə qurulması və dəniz limanlarının gücünün artırılmasına mühüm önəm verir.

Azərbaycan və Gürcüstan Orta Dəhliz, Cənub–Qərb və digər beynəlxalq tranzit marşrutlarının inkişafında fəal əməkdaşlıq edir. Səmərəli əlaqələr nəticəsində hər iki ölkənin ərazisindən keçən tranzit yükdaşımaların həcmi də artır. Yeri gəlmişkən, Bakı–Tbilisi–Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılmasının nəzərdə tutulması Orta Dəhlizin daha da gücləndirilməsi məqsədi daşıyır.

Bu gün iki dost ölkə dəmir yolu xətlərinin müasirləşdirilməsini diqqət mərkəzində saxlayır. Bununla da yüklərin həcminin iki dəfə artacağı gözlənilir. Bundan savayı, tezliklə Gürcüstan tərəfindən Anakliya dəniz limanının inşasına başlanılacağı və infrastrukturun yükaşırma qabiliyyətinin 100 milyon tona çatdırılacağı da bildirilir. Eyni zamanda, Şərq–Qərb avtomagistralının inşasının da yaxın vaxtlarda yekunlaşdırılacağı gözlənilir.

Şimal–Qərb qonşumuzla əlaqələr özünü iqtisadi sahədə daha çox büruzə verir. İlk olaraq iki ölkəni bir-birinə Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bundan başqa, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər qurumlar çərçivəsində əlaqələr də mühüm əhəmiyyət kəsb edir.

SOCAR Energy Georgia MMC Gürcüstanın qazla təmin edilməsində mühüm rol oynayır. 2006-cı ildə qurulan bu şirkət yalnız Gürcüstan ərazisində fəaliyyət göstərir. MMC-nin əsas fəaliyyət sahəsi Gürcüstanda neftin topdan və pərakəndə satışı, neft və neft məhsullarının, həmçinin mayeləşdirilmiş qazın ölkəyə idxalı, neft terminalı və anbarlarının tikintisidir. Şirkət Gürcüstandakı neft satışının 72 faizinə, dizel satışının isə 61 faizinə nəzarət edir, bundan başqa, Kulevi neft terminalı da şirkətin ixtiyarındadır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Gürcüstana hər ay 20 min ton neft məhsulu, həmçinin 15 min ton benzin ixdal edir.

Azərbaycan – Gürcüstan əməkdaşlığında energetikanın ənənəvi sahələri ilə yanaşı, "Yaşıl enerji dəhlizi" layihəsi də xsusi yer tutur. Bu məsələdə də hər iki ölkə Avropa dövlətləri ilə sıx əməkdaşlıq edir və yaxın aylarda bu təşəbbüsün texniki-iqtisadi əsaslandırılması hazırlanaraq konkret işlərə start veriləcək. Bu istiqamətə böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm Azərbaycan–Gürcüstanın, həm də tərəfdaş ölkələrin enerji təhlükəsizliyi gücləncək.

Bu məqamda yeni bir inkişaf mərhələsi kimi, 2022-ci il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" xüsusi qeyd edilməlidir. Bu sənəd yeni dünya düzəninin formalaşdığı bir mərhələdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinin təmin olunması prosesi ilə bağlı zəncirin ən vacib həlqələrindən biridir. Mühüm əhəmiyyətə malik həmin saziş hər iki ölkənin yalnız regionda deyil, həmçinin Avropa ölkələri ilə münasibətlərində etibarlı tərəfdaş olmasının daha bir sübutudur.

Əlbəttə, iki qardaş dövlət, eləcə də digər qonşu ölkələr tərəfindən birgə reallaşdırılan layihələr nəticəsində əldə edilən iqtisadi uğurlar Prezident İlham Əliyevin vurğuladığı kimi, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün mühüm məna daşıyır, tərəflər arasında dostluq və strateji tərəfdaşlığı gücləndirir.

İstər Azərbaycanda, istərsə də Gürcüstanda diqqətçəkən inamlı inkişaf bu dövlətlərin ictimai-siyasi sabitliyinin, hər iki ölkə vətəndaşlarının hökumətə olan dəstəyinin məntiqi nəticəsidir. Çünki sabitlik və hökumətin aydın gələcəyə yönələn baxışları zəruri layihələrin icra edilməsinə imkan verir, eyni zamanda, iqtisadiyyatın davamlı inkişafını, infrastruktur layihələrinin uğurla icrasını və əhalinin rifahının getdikcə yaxşılaşmasını şərtləndirir.

*V.BAYRAMOV*
*XQ*

# Azərbaycan diplomatları Ruandada

**Xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının hökumət missiyası Ruanda da səfərdə olub.**

Səfər zamanı nümayəndə heyətinin Ruandanın maliyyə və iqtisadi planlaşdırma üzrə dövlət naziri xanım Mutesi Rusagara, kənd təsərrüfatı və heyvan resursları naziri Mark Cyubahiro Bagabe, informasiya texnologiyaları və innovasiyalar naziri xanım Paula İngabire ilə, eləcə də Ruanda İnkişaf Şurasının və Mədən, Neft və Qaz Şurasının rəhbərləri ilə görüşləri keçirilib.

Ruanda Prezidenti Paul Kagamenin Bakıda keçirilmiş COP29-un Liderlər Sammitində Prezident İlham Əliyev tərəfindən qəbulu zamanı aparılmış müzakirələrin iki ölkə arasında əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığı, Heydər Əliyev Fondunun dəstəyi ilə burada həyata keçirilən təhsil və mədəniyyət sahəsindəki layihələrə görə təşəkkür edilib.

Müzakirələr zamanı ticarət, sərmayə, mədəniçilik, neft-qaz, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd olunub.

Səfər çərçivəsində, həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ruanda Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında nazir müavinləri səviyyəsində siyasi məsləhətləşmələrin ilk iclası təşkil olunub.

*XQ*

# İrəvan NATO təlimindən niyə kənarda qaldı?

*(əvvəli 1-ci səhifədə)*

Qeyd edək ki, Ermənistanın son vaxtlar Qərb ölkələri ilə əlaqələri inkişaf etdirdiyi göz önündədir. Buna paralel



olaraq rəsmi İrəvan Rusiyadan uzaqlaşır. Nikol Paşinyan hökuməti Rusiyadan nə qədər uzaqlaşırsa, Qərbə də bir o qədər yaxınlaşır. Ümumiyyətlə, Ermənistan hakimiyyəti uzun müddət idi ki, ölkənin Avropa İttifaqı ilə yaxınlaşması barədə danışırdı. Lakin 2025-ci il yanvarın 9-da hökumət hüquqi baxımdan mühüm addım ataraq, Aİ-yə üzvlük prosesinin başlandığını elan edən qanun layihəsini dəstəkləyib. Nəticədə Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxarılması məsələsini Rusiyada qaldırmağa başlayıblar. Bununla bağlı ilk olaraq Rusiya baş nazirinin müavini Aleksey Overçuk açıqlama verib. O, bugünlərdə yenə ötən həftə Moskvanın İrəvanın Aİ-yə üzvlük prosesinə başlamaq qərarını Avrasiya İqtisadi İttifaqından (AİI) çıxmasının başlanğıcı kimi qiymətləndirdiyi barədə bəyanatını təkrarlayıb. Rusiya baş nazirinin müavini deyib ki, növbəti addımlar Ermənistan hökumətinin üzərinə düşür və biz vəziyyətin necə inkişaf edəcəyini görəcəyik: "Qanun layihəsinin təşəbbüskarları yaxşı başa düşürlər ki, Aİ-yə qoşulmaq çox hipotetik bir şeydir və təbii ki, onlar AİI üzvü kimi əldə etdikləri iqtisadi fayda və üstünlükləri itirmək istəmirlər. Təəssüf ki, artıq keçən il biz Aİ-yə üzvlüklə bağlı müzakirələrin təsiri altında Rusiya biznesinin Ermənistanla iqtisadi əlaqələrin inkişafına daha ehtiyatlı yanaşdığını müşahidə etməyə başladıq. Biz gördük ki, bir sıra sahələrdə işgüzar fəallıq azalmağa başlayıb".

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə bildirmişdi ki, Ermənistanda Vaşinqton və İrəvan arasında keçirilən "Qartal tərəfdaşlığı" hərbi təlimləri bu ölkənin gələcəyi ilə bağlı narahatlıq yaradır. Onun sözlərinə görə, bu təlimlər nəinki təəssüf, həm də Ermənistanın gələcəyi üçün narahatlıq doğurur: "Çünki ABŞ və Avropa İttifaqı dəfələrlə belə maxinasiyalar həyata keçiriblər. Yaxşı bilirsiniz ki, "Qartal tərəfdaşlığı" adlanan bu işin sonu necədir. İstifadə edildikdən sonra lazımsız əşya kimi kənara atılır".

Buna baxmayaraq, yanvarın 14-də Ermənistan və ABŞ arasında strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. İmzalanmadan əvvəl çıxış edən ABŞ Dövlət katibi Antoni Blinken bildirib ki, Vaşinqton Ermənistanla təhlükəsizlik və müdafiə sahəsində, xüsusən də onun ərazisinin müstəqilliyini və suverenliyini bərqərar etmək səylərini dəstəkləmək üzərində işləyir. O qeyd etmişdi ki, yaxın həftələrdə ABŞ gömrük və sərhəd mühafizəsi komandanlığının nümayəndələri Ermənistana səfər edəcəklər. Məqsəd sərhəd təhlükəsizliyi imkanlarını gücləndirmək, təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirmək və "Qartal tərəfdaşlığı" kimi təlimlər vasitəsilə Ermənistanın sülhməramlı imkanlarını təkmilləşdirmək üçün erməni tərəfdaşlarla işləməkdir.

Onu da bildirək ki, Ermənistanın müdafiə naziri Suren Papikyan ötən ilin dekabrında ABŞ-yə səfər etmişdi. ABŞ Müdafiə naziri Lloyd Ostin erməni həmkarının səfərini "tarixi" adlandırmışdı. Birləşmiş Ştatların Müdafiə Nazirliyinin bəyanatında deyilirdi ki, Pentaqonun rəhbəri səfərin məqsədinin ABŞ və Ermənistan arasında strateji münasibətləri müzakirə etmək olduğunu bildimişdi. "Sizin səfəriniz tarixi əhəmiyyətə malikdir. Ermənistan ABŞ-yə əl uzadıb və mən bu gün sizi burada qəbul etməkdən qürur duyuram. ABŞ suveren, müstəqil və çiçəklənən Ermənistanı, Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasını dəstəkləyir. Biz əlaqələri möhkəm təməl üzərində qururuq. Bizim qoşunlarımız Əfqanıstanda çiyin-çiyinə xidmət edirdi və biz Kosovodakı NATO qüvvələrinin tərkibində birgə fəaliyyətimizi davam etdiririk. Bu, bizim ilk görüşümüzdür və gündəmimiz doludur. Mən sizin Ermənistan silahlı qüvvələrinin gələcəyi və Cənubi Qafqazda sülhün bərqərar olması perspektivləri ilə bağlı fikirlərinizi eşitməyi səbirsizliklə gözləyirəm" – deyə Pentaqon rəhbəri Papikyanın ünvanına xoş sözlər demişdi.

Bundan əlavə bəllidir ki, Ermənistan hökuməti Rusiyanın hakim mövqeyə malik olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında iştirakını minumuma endirib. Onun maliyyələşməsində iştirak etmir. Bununla bağlı N.Paşinyan bir müddət öncə bildirmişdi ki, Ermənistan–KTMT münasibətləri artıq geridönməz mərhələyə qədəm qoyub. Bu mənada hazırda NATO təlimində Ermənistanın sadəcə, müşahidəçi kimi iştirakı sual doğurur.

Bu istiqamətdə XQ-nin suallarını cavablandıran **"World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** bildirdi ki, biz bundan öncəki NATO təlimlərində də Ermənistanın əksər hallarda müşahidəçi qismində iştirak etdiyini görürük. Bəzi hallarda isə ümumiyyətlə, iştirak etmirdi: "Ermənistan ordusunun nümayəndələri hər zaman Kollektiv Təhlükəsizlik Müqaviləsi



Təşkilatının Rusiyada, Belarusda, Qazaxıstan, Qırğızıstan və Tacikistanda keçirilən təlimlərində iştiraka üstünlük verib. İndi isə KTMT-nin keçirdiyi təlimlərə də qatılmır. Son vaxtlar biz Ermənistanın Rusiyadan uzaqlaşması prosesinin getdiyini görürük. Ötən ilin yayında Rusiya sərhəd qoşunlarının hərbçiləri İrəvandakı "Zvartnots" hava limanından çıxarıldılar. Ermənistan hökumətinin Rusiya ilə münasibətlərdə məsafə saxlamağa çalışdığı da göz önündədir. Yanvarın 14-də Ermənistanla ABŞ arasında imzalanmış saziş isə Rusiyanı narazı salıb. Amma buna baxmayaraq, Rusiya Ermənistana ciddi reaksiya vermir. Zənnimcə, bunun əsas səbəbi Qərbin sanksiya siyasəti nəticəsində Rusiyaya ixracına qadağa qoyduğu malların Ermənistan vasitəsilə şimal qonşumuza daşınmasıdır".

Politoloq qeyd etdi ki, Ermənistan–ABŞ sazişinə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun reaksiyası daha sərt olub. Onun sözlərinə görə, Rusiya xarici siyasət idarəsinin başçısı Ermənistanın qurumdan çıxarılması məsələsini gündəmə gətirib. Bildirdi ki, Avropa İttifaqına daxil olmaq istəyi ilə Avrasiya İqtisadi İttifaqında qalmaq məsələsi birbiri ilə ziddiyyət təşkil edən məsələlərdir. Bundan sonra isə rəsmi İrəvan amerikalı hərbçilərin Ermənistanda varlığına, necə deyərlər, yaşıl işıq yandırdı: "Ermənistan hökuməti sözçüsünün açıqladığı məlumatda bildirildi ki, amerikalı hərbçilər Hayastana gələcəklər və sərhədlərin qorunması məsələsində erməni hərbçilərinə texniki kömək göstərəcəklər. Bu baxımdan düşünürəm ki, amerikalı hərbçilərin Ermənistana gələrək ölkə daxilində erməni həmkarlarına təlimlər keçmələri nəzərdə tutulub. Bu baxımdan Ermənistan Gürcüstanda keçiriləcək təlimlərdə iştirak etməməyi özü üçün problemə çevirmir. Sadəcə, hərbi təlimlərdə müşahidəçi qismində iştirak edərək gələcək perspektivdə ABŞ-nin Ermənistana isti münasibəti çərçivəsində göndərəcəyi hərbçilərin təlimlərinə daha çox bel bağlayır".

R.Məmmədovanın sözlərinə görə, açıqlanan məlumatda təlimlərdə Azərbaycanla yanaşı, bizim yaxın müttəfiqlərimiz olan Türkiyə və Macarıstanın da iştirakı qeyd edilib. Müsahibimiz hesab edir ki, İrəvanın iştirakçı deyil, müşahidəçi qismində iştirakı bu səbəbdən ola bilər. Onun sözlərinə görə, İrəvanın Bakı ilə sülh müqaviləsi bağlamadan, Türkiyə ilə diplomatik əlaqələr qurmadan Azərbaycan və Türkiyə ilə birgə təlimlərdə iştirak etməsi doğru olmazdı: "Güman etmək olar ki, Ermənistan hökuməti hərbçilərini pis vəziyyətə salmamaq üçün onları Gürcüstana göndərmir. Bu məqam da Ermənistan hərbçilərinin təlimlərdə iştirakını əngəlləyən amil ola bilər".

***Səxavət HƏMİD***
***XQ***

**Replika**

# "Üzrü qəbahətindən betər"dir

*Sən demə, təyyarənin gövdəsindəki dəlikləri quşlar dimdiyi ilə "açıbmış"*

**Sərnişin təyyarəmizi vuran da özləridir, faktı danan, məsuliyyətdən yayınmağa çalışan da. Bəlkə Azərbaycan bu dəhşətli faciəyə susmalı, baiskarların cəzalandırılmasını tələb etməməli idi? Yəni, "olan oldu, ötüb keçdi" deməliydik? Bəlkə Qroznıda təyyarəmizə tuşlanan raketin dəyərini də biz ödəməliydik?**



Qəzaya uğradılan təyyarənin "qara qutu"ları Braziliyadan Astanaya gətirilib. Maraqlıdır ki, Rusiya mediası təyyarənin deşifrə edilmiş "qara qutu"ları ilə bağlı rəsmi məlumata, yekun rəyə əsaslanmayan müəmmalı versiyalar tirajlayır. Deyəsən, onlar buna vərdiş ediblər. Ortada ənənə var axı: Rusiya imperiyası çoxəsrlik mövcudluğu müddətində aşkar haqsız olduğu vəziyyətlərdə belə özünü həmişə haqlı saymış, etiraz səsini ucaldanların üstünə yerimişdir.

Yanvar 16-da Rusiya mətbuatı məlum təyyarə qəzası ilə bağlı elementar məntiqdən uzaq, cəfəng ehtimallar yayıb. Guya, təyyarəmiz göydə quş dəstəsinə çırpılıb. Yəni, demək istəyirlər ki, həmin quşlar dimdikləri ilə təyyarəni dəlik-deşik ediblər. Bu sərsəm versiyanı irəli sürənlər məgər təyyarənin içində həm ekipaj üzvünün, həm də sərnişinin qəlpə yarasından qan axmasının videosunu görməyiblər? Təyyarəmizin yerdən raketlə vurulduğunu bilmək üçün heç "qara qutu"nun açılmasına ehtiyac qalmırdı. Hər şey göz qabağındadır.

Heyrət doğuran nüans bilirsiniz nədir? Az qala, dünyada təklənərək küncə sıxılan, Ukraynaya qarşı "xüsusi hərbi əməliyyatlar" fonunda qüdrətli dövlətlərlə qarşı-qarşıya gələn, sanksiya sarsıntılarına məruz qalan bir dövlət onun yanında dayanan, yeri gələndə kömək əlini uzadan azsaylı ölkələrdən biri ilə yersiz və lüzumsuz intriqaya girir. Bəs, iki qonşu və strateji müttəfiq dövlət arasında diplomatik qalmaqalın yaranmasında kimlər maraqlıdır? Kreml isteblişmentinin bundan hansısa dividend gözlədiyi ağlabatan görünmür. Deməli, Azərbaycan və Rusiya arasında əlaqələrin yüksək səviyyədə inkişaf etməsindən kimlərsə narahatdır. ABŞ və Qərbi kənara qoysaq, Rusiyanın daxilindəki ermənipərəst qüvvələrin (onların sayı kifayət qədərdir – red.) bunda maraqlı olduğu, var gücləri ilə bu münasibətləri



korlamağa çalışdığı versiyasını nəzərdən keçirməyə dəyər. İki dəfə Azərbaycan liderinə zəng edib qəza ilə bağlı üzrxahlığını bildirən Rusiya rəhbərinin ətrafındakı hansı qüvvələr və nə məqsədlə ikitərəfli münasibətlərə xələl gətirəcək feyk-məlumatları medianın gündəminə gətirirlər? Bunlar ciddi suallardır. Belə çıxır ki, rəsmi Moskvanın üzrxahlığını qəbahətindən daha betər hala salmağa çalışanlar Kremlə "ayı xidməti" göstərirlər.

Azərbaycan Prezidenti İlham Əliyev hava limanındakı müsahibəsində dedi ki, təyyarə Rusiya tərəfindən vurulub. Amma onu da nəzərə çatdırdı ki, biz demirik ki, bu, qəsdən edilib. Dövlət başçımızın bu fikrini kontekstdən çıxarıb rus mediasında manipulyasiya edənlərin hərəkəti, yumşaq desək, yaramazlıqdır. Bəli, təyyarənin qəsdən və ya ehtiyatsızlıqdan kimlər tərəfindən vurulmasını istintaq müəyyənləşdirəcək. Azərbaycan rəhbərinin bu işdə məsuliyyəti olanların cəzalandırılmasını, zərərçəkənlərə təzminat ödənməsini və bütün prosesin beynəlxalq qayda və normalara uyğun şəkildə aparılmasını tələb etməsi kimlərinsə xoşuna gəlməyə bilər. Amma əlahəzrət faktı heç kəs dana bilməz.

Rusiyada hərdən anti-Azərbaycan təmayüllü çıxış və bəyanatları eşitmişik. Yəni, orada hələ də kimlərsə həzm edə bilmirlər ki, on beş respublikanın adına "qırmızı imperiya" deyilən, əslində, rus bayrağı altına birləşdirildiyi dövr çoxdan tarixin arxivinə gömülüb. İndi keçmiş müttəfiq respublikalar müstəqil dövlətlərdir. Onların arasında Moskva ilə bərabərhüquqlu tərəfdaş kimi loyal münasibətləri qoruyub saxlayan üç respublika qalıbsa, onun biri Azərbaycandır. Əgər iqtisadi cəhətdən Rusiyadan tam asılı vəziyyətdə olan Ermənistan kimi bir ölkə ondan tamamilə üz döndərmək yolunu tutubsa, Kreml buna adekvat hərəkət etməlidir. Konkret bu olayla bağlı isə Bakıya qarşı yersiz təkəbbür və ambisiyalarından əl çəkməyi bacarmalıdır. Ən azı, dönüb geriyə, keçdiyi yola baxmalıdır. O zaman özünü bu cür aparan dövlətlərin son aqibətinin necə olduğuna dair xeyli nümunələrlə rastlaşacaq...

***İ.HƏSƏNQALA***
***XQ***

# Fövqəladə hallar naziri Xızı şəhərində vətəndaşları qəbul edib

**Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dünən Xızı şəhərində, Xızı rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Xızı və Siyəzən rayonları sakinlərinin qəbulunu keçirib. Bununla bağlı FHN məlumat yayıb.**



Əvvəlcə, nazir K.Heydərov ümummilli lideri Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Xızı və Siyəzən rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

***XQ***

# Cəbrayıla daha 42 ailə qayıtdı

**Bu gün növbəti köç karvanı ilə Cəbrayıl şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**



Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskunlaşıblar. Köçürülən ailələrin, Cəbrayıl şəhərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

***XQ***

# Azərbaycanın ən uca məşəli



**Rafael HÜSEYNOV,**
**Milli Məclisin sədr müavini, akademik**

**Yıxılabilməz, çökdürülməz hesab edilən Sovet İttifaqının beli o gecə sındı. Əslində SSRİ-nin dağılması da o gündən başlandı, bizim və 70 il sovet pəncəsində yaşamağa məhkum qalmış digər respublikaların müstəqilliyinin səhəri də o gecədən açıldı. İstiqlal salnamələri heç vaxt yalnız mürəkkəblə, qələmlə, ya indinin digər çevik rəqəmsal sözqeydəalma vasitələriylə yazılmaz. Millətlərin yaddaşına və ürəyinə həkk olunan istiqlal tarixçələrinin hansını açsan, orada şəhid qanlarından, qəhrəman ruhlardan nişanə taparsan.**

Hər gecə müstəqil Azərbaycanda, rahat evinizdə, hətta lap narahat bir komada, amma sahibinin özünüz olduğunuz müstəqil bir yurdun içərisində yuxuya dalmazdan öncə canını bu istiqlal naminə qurban verərək əbədi uyquya dalmış tanıdığınız və tanımadığınız bütün Vətən övladlarını sayğıyla xatırlayın. O gecəki yuxunuz və bütöv həyatınız halalınız olsun deyə, onları anmağı unutmayın.

Müdam yad edilməlilərin şərəfli qatarında 1990-cı il 20 Yanvar gecəsi qurbanlarının da əziz surətləri var.

Hər millətin var olduğu müddətcə çata biləcəyi ən ali səadət, qazana biləcəyi ən əziz nemət onun istiqlalı, dövlət müstəqilliyidir. Bir çiçək boy atsın, bir ağac dikəlsin deyə ona su gərəkdir. Bu, təbiətin qanunudur. Ancaq insanlıq tarixində başqa bir yazılmamış kədərli qanunauyğunluq da var: azadlıq ağacları, istiqlal çiçəkləri qanla sulanmadan nə bəhrə verər, nə ucalar. Tarixi vərəq-vərəq çevirdikcə çeşidli dövrlərdə və ən müxtəlif xalqlarda istiqlala gedən yolun həmişə enişli-yoxuşlu olduğuna şahid kəsiləcəksiniz. Bu yol heç vaxt qurbansız olmayıb. Böyük istiqlalı öz qələbəsi hesab edənlər, onu öz adına yazmaq istəyənlər həmişə tapılıb. Ancaq bu da tarixin isbat etdiyi başqa həqiqətdir ki, istiqlalın əsl müəllifi həmişə xalq olur. Çünki onun yolunda qanı tökülən də, onun uğrunda qurban gedən də həmişə xalqdır. Azərbaycan nə xoşbəxtdir ki, dünyanın və öz tarixinin ən təlatümlü, ən hadisələrlə dolu parçasını – XX yüzili suveren dövlət kimi başa vurdu və XXI əsrin ilk onillərini müstəqillik içərisində, istiqlal qoynunda yaşamaqda davam edir.

Ancaq millət təqviminin müstəqillik, istiqlal tarixçələrini izlədikcə onu da görürük ki, bu yol pozulmaz, itibgetməz qan ləkələri ilə doludur.

70 il həsrətdən sonra Azərbaycan yenə müstəqilliyinə çatdısa, yenə istiqlalına qovuşdusa, heç kəs deməsin ki, elə bu, tarixin gedişi ilə öz-özünə baş verdi. İstiqlalımız yenidən qayıtdısa, müstəqilliyimizə təzədən qovuşduqsa, bunun əsas səbəbi Sovetin qılıncının başımız üstündə asılı qaldığı 70 il boyunca bir an belə sönmədən ürəklərdə şölələnməkdə davam edən azadlıq ocağı idi.

1980-ci illərin sonlarında Bakıda Azadlıq meydanı adı almış məkanda insan dənizi çağlayırdı, millət yenə istiqlal diləyirdi, xalq müstəqillik arzusuyla ayağa qalxmışdı. "Azadlıq!", "Müstəqillik!" çağırışlarının zirvəsi 1989-cu ilin 31 dekabrında gəlib çatdı. Həmin gün Araz çayının tikanlı məftillərlə çəpərlənmiş o tayında və bu tayında qardaşlar üz-üzə dayanmışdılar. Həmin gün qəlbi azadlıq eşqi ilə çırpınan otaylı və butaylı azərbaycanlıların ayrılıq rəmzinə çevrilmiş Araz çayı üzərindəki zəfər anı idi. Yalın əllərlə tikanlı məftilləri qırdılar, sərhəd dirəklərini aşırdılar. Ürəklərdəki od elə güclü, həsrət səbirsizliyi elə həddə idi ki, qışın qış günündə Araz çayına atıldılar, burdan o taya, o taydan bu üzə üzməyə başladılar. O gün Sovet dövlətinin nəzərincə ən toxunulmaz olanın – Şura hökumətinin iradəsinin rəmzi sayılan sərhədin mənəm-mənəmliklə dağıdılan, Azərbaycan insanının imperiyaya meydan oxuyan günü idi. Bütün bunları gendən çox diqqətlə izləyən Kreml yaxşı dərk edirdi ki, bu addımdan müstəqilliyə doğru məsafə həddən artıq qısadır. Ona görə də bunu heç vəchlə cəzasız qoya bilməzdi. 1989-cu ilin son gecəsinin əks-sədası 1990-cı ilin 19 yanvarından 20-nə keçən gecə idi. O şənbə gecəsində Bakıda sovet ordusunun törətdikləri müstəqilliyə, artıq nəfəsi lap yaxından duyulan istiqlala verilən cəza idi. Sovet silahlı qüvvələri Bakıya ona görə yeridilmişdi ki, insanların gözünün odunu alsınlar, iradəsini sındırsınlar, onların içərisindəki müstəqillik, istiqlal atəşini birdəfəlik söndürsünlər. Mərkəz Bakıya yeritdiyi və dəhşət yaratmaq əmri verdiyi qoşununun törətdikləri ilə, zirehli maşınların, tankların qorxunc gurultusu, selləmə yağış kimi açılan atəşlərin vahiməli vıyıltısı ilə azərbaycanlılara bu dərsi vermək istəyirdi ki, hamınızı ucdantutma beləcə "uf" demədən qıra bilərik. Ancaq vulkan kimi kükrəyən bir xalqı atəşlərlə susdurmaqmı olardı?! Əslində həmin gün Azərbaycanın mütləq gələcək və qayıdışsız olacaq istiqlalının müqəddiməsi, Azərbaycanın müstəqilliyə qovuşmasının həlledici təkan anı idi. Həmin gün şər imperiyasının – Sovetlər İttifaqının tar-mar olmasının, onun təməl kərpiclərinin yerindən qoparıldığı gün idi. Millətimizin əleyhinə bu fitnəni təşkil edən, Azərbaycanı öz qanına boyamağa qalxan, millətin müstəqillik ehtirasını biryolluq susdurmaq istəyən Kreml – artıq dişləri laxlayan imperiya, əlbəttə ki, öz nöqteyi-nəzərindən düz hesablamışdı ki, artıq bu xalqın qarşısını sadəcə sözlə, təbliğatla, hədə ilə almaq mümkün deyil, bu millət müstəqilliyin lap ərəfəsindədir, onu yolundan döndərməyin tək çarəsi qırıb-çatmaqdır.

Lakin bu xalqı yaxşı tanımırlarmış. Zənn etdiklərinin tam əksi oldu. Azərbaycan xalqı susmaq, sınmaq, qorxmaq, kirimək əvəzinə daha hiddətlə baş qaldırdı və lap azacıq sonra – 1991-ci ilin oktyabrında Azərbaycan artıq müstəqilliyini yenidən bərpa etmişdi.

Qurbanlar verdi, acılar yaşadı, azadlıq ağacını növbəti dəfə qanı ilə suvardı, ancaq millət ali məqsədinə çatdı.

Fəqət imperiya çökmüşdüsə də, hələ canı tamam çıxmamışdı. İmperiyaçı qüvvələrin başında hələ köhnə havalar qalmaqdaydı. 1992-ci ilin 26 fevralında Xocalıda törədilənlər də artıq 4 ay öncə elan edilmiş müstəqilliyə, təzədən qayıtmış istiqlala verilən növbəti cəza idi.

1918-ci ilin martında bolşevizm, 1990-cı ilin yanvarında və 1992-ci ilin fevralında neobolşevizm Azərbaycana qarşı qəsdləri yerinə yetirəndə erməniləri qabağa buraxmışdı. Hətta 1990-cı ilin yanvarında Bakıya hücum çəkəndə zahirən hər şeyi edən sovet ordusu idisə də, SSRİ-nin müxtəlif yerlərindən ehtiyatda olan erməni hərbçilərini əməliyyata cəlb etmişdilər, KQB xətti ilə məqsədli olaraq bu soraqları da yaymışdılar ki, qırğını icra edən silahlıların əksəri mənşəcə erməni olan əsgər və zabitlərdir.

Lakin gerçəkləri qondarma millətçi pərdəçəkmələrlə ört-basdır etmək mümkünsüzdür. İstiqlal çarpışmalarımıza qarşı şimal ayısının amansız qalxışlarının hamısında erməniçilik sadəcə vasitələrdən biri olub.

Azərbaycan təqvimində yanvarın 20-si Ümummilli Hüzn Günüdür. Kədərli olmağa, qüssəyə qapılmağa əsasımız da var. Çünki o günün əzabları millətin bağrının başında həmişə qövr edəcək, daim ürək göynədəcək. Qurbanlarımızı, yaralarımızı əsla unutmayaq. Kədərə də dalaq, kövrələk də, qəhərlənək də, itkilərimizi hər zaman can yanğısıyla anaq da.

Lakin bizim təqvimimizdə Zəfər günü var! Qalib xalqa, yüksələn, ucalan millətin təqviminə matəm, yas günü yaraşmır. Əslində mahiyyəti ilə o tarix – 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə hünər, yenilməzlik, milli müqavimət günü, millət iradəsinin təntənəsi günüdür. Yanvarın 20-si yalnız millətimizin əllərdə qırmızı qərənfillərlə küçələrə çıxaraq şəhid məzarlarına doğru yönəldiyi qəm günü kimi qala bilməz! Bu gün millət qətiyyətinin tüğyanı, ümumxalq şərəf günüdür. Bu gün başımız üzərində üçrəngli bayrağımızın daha vüqarla dalğalanmalı olduğu gündür.

1990-cı ilin başlanğıcından bu günə qədər Bakıda, Azərbaycanın paytaxtında və yurdun dörd bucağında bu günü qeyd edirik. Gələcəklər boyu da həmişə bu günü əziz, uca tutaq, ancaq hüzn günündən daha əvvəl və daha artıq MİLLİ TƏPƏR günü kimi əziz tutub ağırlayaq!

Millət tarixində həmişəlik qalacaq o faciənin ən dəqiq qiymətini vermək səlahiyyəti ən adil münsifin – Tarixin ixtiyarındadır. Amma başverənləri isti-isti ən doğru dəyərləndirən, etiraz səsini ilkin qaldıranlar da gərək həmişə ehtiramla anıla. Çünki o qiymətvermə faciənin törədilməsinin ertəsi günü, hələ yaraların açıq olduğu elə anlarda baş verirdi ki, o vaxt hər belə cızığındançıxma gözlərini qan örtmüş şər imperiyasının həmin şəxsi aradan götürməsi ilə nəticələnə bilərdi.

1990-cı ilin yanvarında unudulmaz Heydər Əliyev ailə üzvləri ilə bərabər Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gəldi. Özünün, oğlu İlham Əliyevin həyatını ən labüd təhlükə qarşısında qoyaraq gəldi. Artıq əlləri onsuz da qana bulaşmış rejim elə həmin gün onlara gözünü qırpmadan qəsd təşkil edə bilərdi. Heydər Əliyev də bu dövlətin hər üzünə və cikinə-bikinə bələd, zəngin təcrübəli insan kimi bu həqiqətdən yaxşı agah idi. Ancaq can hayına qalmaq məqamı deyildi. Xalqın müqəddəratı hədəfdə idi, susmaqmı olardı?!

Azərbaycanın dünyaya çıxa biləcək səsinin hər tərəfdən qapadıldığı o məşum tarix parçasında Heydər Əliyevin məğrur səsi imperiyanın mərkəzindən ucaldı və dərhal bütün dünyaya çatdı. Heydər Əliyev o sınaqlı günlərdə xalqın kürəyinə, ən etibarlı dayağına, ən məhrəm təsəlli ünvanına çevrildi.

Sovet İttifaqı rəhbərinin birbaşa əmri ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ Müdafiə Nazirliyi, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi və SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissələrinin Bakıda, Azərbaycanın bir neçə rayonunda törətdikləri bu mənhus dövlətin bütün tarixindəki ən qaniçən əməliyyatlardan oldu. Azərbaycan insanının istiqlal eşqini və müstəqillik canatmalarını ürəyində və düşüncəsindəcə məhv etməkçün Bakıda kütləvi qətllər törədən Sovet ordu hissələri müstəqillik niyyətlərini belə amansızlıqla məhv etməyə cəhdin məşqlərini hələ 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada keçmişdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, onun ardınca yaşanan həyəcan dolu günlər yalnız o hadisələrin şahidlərinin ömrünün anları deyil ki! O günlər lap çoxdan bütöv millət tarxinin ibrətli səhifələrinə çevrilib. Dönə-dönə qayıdılmalı, dərslər alınmalı, hər anı müdam anılmalı, qətiyyən unudulmamalı məhzun və məğrur tarix səhifələrinə!

Sovet dövründə "ölkəm" deyəndə SSRİ, "vətənim" söyləyəndə Sovet İttifaqı nəzərdə tutulurdu. 15 respublikada hər kəsə uşaq bağçasından, ilk məktəb dərsliklərindən başlayaraq bu düşüncə aşılanırdı. Çoxdan gorbagor olsa da, soveti həmişə məzardan çıxararaq ittiham və ifşa edəcək bir dəlil də bu olacaq ki, yaxşı, insanlara bu imperiyanı "vətən" deyə təlqin edir, onların hamısını bərabərhüquqlu vətəndaş sayırdınsa, bəs onun üstündən tankla keçmək qədər cəlladdanbetər xislət nə idi?! Sovet ordusunun Bakıda yağdırdığı güllələr də adi güllə deyildi, öldürücülüyü mütləq olan, bədənə girəndən sonra da fırlanaraq bütün vücudu dağıdan iblisanə güllələrdi. Azərbaycan paytaxtında və bölgələrdə Moskvadan dövlət başçısı tərəfindən sanksiyalaşdırılmış qətllər gedişində 131-imiz öldürüldü, 744-ümüz yaralandı, təcavüz əsnasında 841-imiz həbs edildi, bunlardan 112-si SSRİ-nin ayrı-ayrı şəhərlərindəki həbsxanalara göndərildi.

1990-cı ilin 20 noyabrında artıq Vətəndə – Naxçıvanda olan Heydər Əliyev Ali Məclisin kürsüsündən dünyaya car çəkirdi: "Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində – heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da sovet ordusu edib. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ-nin müdafiə naziri, SSRİ daxili işlər naziri hadisələrdən qabaq gəlib. Burada oturublar, bu əməliyyatlara rəhbərlik ediblər. 1941–45-ci illərdə – müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi. Ancaq görün Bakıdakı hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir".

O gecə həmişə bizimlə qalacaq, o gecə daim millətin həm dərin ələm, həm də böyük əməl gecəsi kimi anılacaq. Biz bugünümüzə o gecədən keçib gəldik. Müstəqillik səhərinin yolu o gecədən açıldı.

...Bəzən insan bir sərvətin əsl dəyərini yalnız onu itirəndən sonra dərk edir. 1990-cı ilin 20 Yanvar faciəsinin bir ibrəti də ondan ibarət oldu ki, Azərbaycan insanı Milli radionun, Milli televiziyanın onun üçün nə qədər böyük nemət olduğunu çılpaqlığı ilə anladı. Azərbaycan efirinin əsl doğum günü 1919-cu ilin noyabrından – Əlimərdan bəy Topçubaşının ovaxtlar Avropa radiostansiyasının yerləşdiyi Eyfel qülləsindən Gəncə radiostansiyasına göndərdiyi teleqramdan başlanır. Lakin 1926-cı il noyabrın 6-da Azərbaycan Radiosunun daimi yayımları başlandı, 1956-cı ildə isə Azərbaycan Televiziyası ilk dəfə ekranlarını insanlarımızın üzünə açdı.

Və radio da, televiziya da tədricən bu millət üçün ən möhtəşəm universitetə çevrildi. Nəsil-nəsil insanların zövqlü yetişməsində, ruhən zənginləşməsində, biliklərinin artmasında radio da, televiziya da müstəsna rol oynadı. İnsanlarımız bu danılmaz həqiqəti bütövlüyü ilə 1990-cı ilin yanvar günlərində bütün əyaniliyi ilə dərk etdilər. Azərbaycan insanının müstəqillik çırpıntılarını qəlbindəcə çürütməyi qəsd edən imperiya başqa məkrli tədbir də tökmüşdü: Azərbaycanın ağzını bağlamaq, onun dünyaya çatan səsini kəsmək. 1990-cı il yanvar ayının 19-da saat 19:26 dəqiqədə Azərbaycan Radio-Televiziyasının enerji bloku partladıldı. Bu, həmin şənbə günü – yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan insanına açılan atəşlərin elə başlanğıcı demək idi.

Həmin dəqiqədən Azərbaycan radiosu da susdu. Azərbaycan televiziyasının ekranlarının da işığı itdi. Düz yanvar ayının 28-cən Azərbaycan insanı radio-televiziyasız qaldı. Arada qondarma bir kanal düzəltmişdilər – faktik olaraq idarəçiliyi ələ almış və azərbaycanlılara etibar etməyən hərbçilərin nümayəndəsi kələ-kötür Azərbaycan dilində kobud ləhcəylə ara-sıra komendantlığın mətnlərini oxuyurdu.

Şər imperiyası, Azərbaycan insanının müdhiş istibdada və haqsızlığa qarşı nifrətinin, respublikaya silahlı təcavüz əleyhinə etirazlarının dünyaya çıxa biləcək dalğasının qarşısını almaqda israrlı idi. O günlərdə həyatlarını təhlükə altında qoyaraq yanvar qırğınının görüntülərini lentə alan fotoçularımızın hər biri əsl qəhrəman idi. 1919-cu ildə Paris Konfransına yola düşən Əlimərdan bəy Topçubaşı və onun başçılıq etdiyi nümayəndə heyəti özü ilə 1918-ci ilin martında Bakı qırğınları əsnasında çəkilmiş yüzdən artıq fotoşəkli götürmüşdü. O aşkar sübutları aparmışdılar ki, azərbaycanlılara qarşı hansı müsibətlər törədildiyini dünyaya nümayiş etdirsinlər. Həmin fotolar Azərbaycan üçün hansı tarixi dəyərə malikdirsə, 1990-cı ilin yanvarında cəsur Azərbaycan fotoçularının – Rasim Sadıqovun, Yaşar Xəlilovun, Oleq Litvinin, Cahangir İbadovun, Asim Talıbın, Fərman Bağırovun, Ağəli Məmmədovun, Tahir Cəfərovun, Rafiq Nağıyevin... çəkdiyi şəkillər də eyni qiymətdədir. Bunlar əslində Azərbaycanın istiqlal uğrunda çarpışmaları salnaməsinin ən vacib fəsillərindən birinin anlarıdır.

...1990-cı ilin unudulmaz və unudulmamalı yanvar günlərində Bakı küçələri gülçiçək içərisində idi, hər yan qırmızı qərənfillərlə döşənmiş xalıya bənzəyirdi. İnsanlar məhəbbətlərini və nifrətlərini çiçəklərə çevirərək küçələrə səpmiş, xiyabanlar boyu düzmüşdülər. Şəhərdə cinayətlərin törədildiyi hər qarışı, qurbanlarımızın qan damlalarının izi qalan hər nöqtəni çiçəklər sığallayırdı. Başqa vaxtlarda nə qədər dil töksən də, satdığı gülün qiymətini cüzi endirməklə də razılaşmayan gül alverçiləri milyonlarla qərənfili Bakı küçələrinə təklif gözləmədən, bircə qəpik ummadan maşın-maşın daşımışdılar.

O günlər idi ki, hamı bir ata-ananın övladı olduğu kimi, bir millətin balası olmasına izah etmədən, öyüd eşitmədən elə sövq-təbii yəqin kəsilmişdi. Hamı can atırdı ki, hər kəsin və hamının olan millət mərasiminə öz töhfəsini verə bilsin.

Və həmin günlərin içərisində bir möcüzə də baş verdi. Azərbaycan mətbuat tarixinin heç vaxt olmamış, yəqin ki, bundan sonra da təkrarlanmayacaq bir hadisəsinə şahid olduq. Azərbaycan qəzetçiliyinin 1875-ci ildən – Həsən bəy Zərdabidən başlanıb bugünə çatan tarixi boyunca saysız qəzetlərimiz nəşr edilib, nəşr edilir, şübhə yox, gələcəkdə yeniləri də olacaq. Ancaq həmin yanvar günlərində nəşr edilən "Səhər" qəzetinin tirajı, yəqin ki, bir də heç vaxt rast gəlinməz. "Səhər" o yanvar günlərində 2 milyon sayda çıxdı. Səsimizin kəsildiyi, sözümüzün dünyaya çıxmasının qarşısının alındığı günlərdə "Səhər" qəzeti Azərbaycan insanının təsəllisi, toxtaq yeri idi. "Səhər" o vaxtlar Azərbaycanın bir saylı qəzeti "Kommunist"in əlavəsi kimi nəşr olunurdu. Azərbaycanın partiya rəhbəri Əbdürrəhman Vəzirov vəzifədən kənarlaşdırılandan sonra onun yaxın adamı sayılan Cəmil Əlibəyov da "Kommunist"in redaktoru vəzifəsindən getmişdi. Qəzetə rəhbərliyi redaktor müavini Rəfail Nağıyev edirdi. "Səhər" möcüzəsini onun və ətrafındakı cavan jurnalistlərin fədakar şücaəti doğurdu. 1990-cı ilin yanvarında elə Bakının əhalisi də 2 milyon civarında idi. Rəfail müəllim mənə "Səhər"in o sayının necə üzə çıxa bilməsinin macəralı tarixçəsini nağıl edib. Söyləyirdi ki, hazır materialları götürüb hərbi senzor Boris Aleksandrovun yanına getdim. 12 səhifə buraxmağı düşündüyümüz qəzetdəki hər yazı, hər foto ilə bağlı senzorla dəqiqələrlə deyil, saatlarla çənə-boğaz etməli oldum.

"Səhər"in redaktoru Məzahir Süleymanzadə isə mənə çoxlarının bilmədiyi başqa bir tarixi hekayəti danışdı.

Azərbaycan xalqının o nigaran günlərində Türk dünyasının böyük oğlu Oljas Süleymenov Bakıda idi. Sonralar özü söyləyirdi ki, yanvarın 20-də bərk soyuqlayıbmış, "qızdırmam 39-u keçib 40-a çatmışdı, ancaq dayanmaq məqamı deyildi, xəbəri eşidən kimi bilet alıb elə qızdırmadan yana-yana təyyarəyə mindim, Bakıya uçdum. Çünki gəlməsəydim, vicdanım rahat olmayacaqdı, digər tərəfdən də, nə illah etsəm də, heç kəsi inandıra bilməyəcəkdim ki, o günlərdə doğrudan da bərk xəstə olmuşam".

Və Oljasın həyatını da, karyerasını da ciddi təhlükələr altında qoyaraq Bakıya gəlməsinin, təkləndiyimiz o günlərdə Azərbaycanla olmasının mənəvi dayaq durmaqdan savayı başqa bir faydasını bilin. Oljasın uzaqgörən nəcib tövsiyəsi olmasaymış, "Səhər"in yanvarın 22-də işıq üzü görən o buraxılışı da nəşr edilməzmiş. Məzahir yada salırdı ki, Bakı şəhərinin ovaxtkı hərbi komendantı general V.Dubinyak şərt qoymuşdu ki, qəzetin çıxmasına o halda icazə verirəm ki, komendantlığın bir əmri də orada dərc edilsin. Redaksiya işçiləri isə hamılıqla bunun əleyhinə imiş, millətin ağrısını daşıyan, ana dilində çıxan bir qəzetin içərisində hərbi komendantlığın əmrinin, özü də onların öz dilində yer almasını təhqir sayırmışlar. Məzahir söyləyirdi ki, bu vəziyyət haqqında Oljasa dedim və soruşdum ki, nə məsləhət görürsünüz, neyləyək?

Oljas da suala sualla cavab verir ki, təsəvvür edin, hərbi komendantlıq ümumən heç bir qəzetin çıxmasına icazə vermir, özləri lazımi xəbərlərini və əmrlərini dərc etdikləri 2, ya 4 səhifəlik rusca qəzet buraxır, sizə də orada balaca yer ayıraraq hadisələrlə əlaqədar kiçik məqalənizi, ya bir-iki fotonu yerləşdirməyə icazə verir. Səsinizin xalqa çatması üçün bu imkandan istifadə edərdiniz, ya yox?

Məzahir etiraf edirdi ki, gördüm Oljas haqlıdır. Əlimizin hər yerdən üzüldüyü, qəzetlərin çıxmadığı, radio-televiziyanın dayandığı məqamda, doğrudan da, bir qəzetin balaca bir hissəsində kiçicik bir yazımızın dərc edilməsi də o günlərdə bizim üçün qənimət olardı, indi isə ixtiyarımızda 12 səhifə vardı. Ona görə də Bakı şəhərinin hərbi komendantının o qəzetin içərisində əmrinin yer almasına razılığımızı verdik.

Bəs necə olmuşdu ki, "Səhər" qəzetini belə fantastik tirajla nəşr edə bilmişdilər? Bunu da mənə Rəfail Nağıyev danışırdı ki, "Kommunist" o vaxt 600.000 tirajla çıxırdı. Ancaq bir neçə gün idi ki, nəşr edilmirdi. Üst-üstə yığılaraq "Səhər"i 2 milyon sayda buraxa biləcək qədər kağız ehtiyatımız vardı, bu fürsəti də əldən qaçırmadıq.

Bu minvalla 20 Yanvar qurbanlarının dəfni günü, ayın 22-də "Səhər" bütün Bakıya və Azərbaycana yayıldı, bir-birindən təsirli məqalələri, şeirləri, fotoları ilə 20 Yanvarın göynəkli mənzərəsini hamıya göstərən aynaya, millət ağrısının məlhəminə döndü, ürəklərdən tikan çıxartdı.

...Xalqımızın bütün mübarizələr tarixinin ən ali Zəfərinin Memarı, Fateh Prezidentimiz İlham Əliyevin tariximizin 1990-cı il 20 Yanvar səhifəsi haqqında yekun qənaəti və qiymətləndirməsi olub-keçənlərin cövhərini nişan verir və çox sərrastdır: "20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi... 20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Tariximizə və taleyimizə 31 mart və 26 fevral kimi soyqırımı günləri də düşüb, Millət Təqvimimizdə 20 Yanvar kimi ümumxalq matəmi də möhürlənib, Vətənin yaddaşında yurdun ayrı-ayrı parçalarının işğal günlərini də illərcə millətin itki və nisgil tarixçələri kimi qeyd etməyimizin dərd şırımları qalır. Bu, qədərdir – Vaxtın bu cür möhnətli aşırımlarından və girdablarından adlaya-adlaya xalq xalq olur, millət millət olur, Vətən Vətən olur! Yaddaşsız nə torpaq Vətənə çevrilər, nə də kütlələr millətə dönər!

Ancaq bütün ələmli günlərimizin müqabilində, milyonlarla soydaşımızın əsəblərini və heysiyyətini gəmirən zəbt günlərinin əvəzində bir-birinin ardınca milləti məsud edən fəth günləri də gəldi axı! Axı biz təqvimində bayramların ən əzizi ZƏFƏR GÜNÜ olan xalqıq!

Qalib dövlətə, Müzəffər millətə qürur yaraşır. Biz Zəfərə dərin hüznləri arxada qoyaraq çatmışıq. O səbəbdən də hər 20 Yanvarda can yanğısı ilə bütün itirdiklərimizi anaq, onların mübariz ruhları qarşısında sayğı duruşuna sıralanaq, amma daha artıq həmin günün Ümumxalq Hüzn Günündən qabaq Ümummilli Hünər Günü olması həqiqətinə tapınaq.

Bunu dövlətimizin başçısı da deyir, tarixin dəmir məntiqi də təsdiqləyir!

...Şəhidlər xiyabanının lap girəcəyində Əbədi məşəl şölələnir, bayrağımız dalğalanır.

O dalğalanan bayraq, o yanan məşəl Bakının hündür bir nöqtəsindədir. Azərbaycanın xəritəsində bundan qat-qat yüksək dağlar da var, zirvələr də. Ancaq bu millətin mənəviyyat dünyasında o bayrağın indi dalğalandığı nöqtədən, o məşəlin indi yandığı ucalıqdan daha yüksək bir yer yurdun heç harasında yoxdur.

O bayraq istiqlalımızın, müstəqilliyimizin rəmzidir. O alovlanan məşəl 1990-cı ilin yanvarında və bütün tariximiz boyu istiqlalımız və müstəqilliyimiz yolunda mübarizələrə qatılmış, can fəda etmiş insanların qəlbidir ki, alovlanır.

Və nə qədər ki ürəyi bu yurda, bu millətə məhəbbətlə çırpınan vətən yavruları var, o məşəl yanmaqda davam edəcək, o bayraq ən ucalarda dalğalanacaq!

# 20 Yanvardan müstəqil dövlətə




*(əvvəli 1-ci səhifədə)*

## Siyasi-hüquqi qiymət

1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək, baş verənləri "qanlı faciə" və "hərbi təcavüz" adlandırdı. Təşkilatçıları şiddətlə qınadı. 1990-cı il noyabrın 21-də isə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi.

1994-cü il yanvarın 5-də Heydər Əliyevin fərmanı ilə Milli Məclisin müzakirəsinə 20 Yanvar hadisələrinə siyasi qiymət verən sənəd təqdim edildi. 1994-cü il mart ayının 29-da Milli Məclisdə "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı qərar qəbul edildi. Bununla da 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi. 20 Yanvar Azərbaycan xalqına qarşı işlədilmiş cinayət kimi qiymətləndirildi və günahkarların cəzasını alması tələbi qoyuldu.

20 Yanvarın həm tarixi yaddaş kimi yeri, həm də onun müxtəlif aspektlərdə dərki məhz verilən siyasi-hüquqi qiymətə əsaslanır. Yəni Ulu öndər 20 Yanvarın qiymətini konkret sənədlə verməklə, Azərbaycan dövlətçilik tarixinə əvəzsiz töhfələrdən birini bəxş etmiş oldu!

## 20 Yanvarın fəlsəfi anlamı

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda bu mövzu hər il müzakirə edilir, araşdırmalar aparılır, tezislər irəli sürülür.



Hadisənin fəlsəfi dərki davam edir. Qarşıya çıxan mənzərə ondan ibarətdir ki, 20 Yanvarın "fəlsəfi ölçülməsi" müxtəlif aspektlərdə ola bilər. Onları hələ çox tədqiq etmək lazımdır. Tarixdə, məsələn, fransızların öz inqilablarının fəlsəfi və tarixşünaslıq prizmasında davamlı araşdırdıqları ənənəsi mövcuddur. Ancaq 20 Yanvar heç bir hadisəyə bənzəməz.

Birincisi, 20 Yanvar imperiya xislətli böyük bir dövlətin – SSRİ-nin tərkib hissəsində olan Azərbaycana qarşı təcavüzkar aksiyasıdır.

İkincisi, hərbi, ideoloji, informasiya nisbəti çox fərqli idi və belə bir şəraitdə Azərbaycan dövlət kimi deyil, xalq kimi mübarizə aparmalı idi.

Üçüncüsü, 20 Yanvarın faciə olması inkaredilməzdir, lakin başqa tərəfdən də, o, millətin öz azadlığı uğrunda mübarizə fenomenidir.

Dördüncüsü, 20 Yanvar SSRİ-də geniş kütləvi şəkildə sovetlərlə ilk toqquşma hadisəsi idi. Başqa respublikalarda da oxşar hadisələr baş vermişdi, lakin öz kütləviliyi, amansızlığı və hərbi texnikanın tətbiqi miqyası ilə analoqu olmadı.

20 Yanvarın bu kimi başqa özəllikləri haqqında da danışmaq olar. Ancaq aydındır ki, məsələ fəlsəfi dərklə əlaqəlidirsə, ilk növbədə, verilən siyasi-hüquqi qiymətin məzmunu və həmin hadisənin tarixi-siyasi, ideoloji, informasiya və s. funkasiyaları ön plana çıxarılmalıdır. Burada 20 Yanvarın tarixi yaddaş kimi funksiyası ilə müasir mərhələdə bütövlükdə toplum və dövlət üçün mənasının müqayisəsi aktual görünür.

## 20 Yanvar və Vətən müharibəsi

Ümumiyyətlə, hər hansı hadisəni bütləşdirmək və mütləqiləşdirmək həmişə müəyyən risklər yaradır. Çünki cəmiyyət daim yeniləşir, şüurlar dəyişir və meydana yeni şərtlər çıxır. Bu dinamikada əsas problemlərdən biri xalq üçün ciddi əhəmiyyəti olan yaddaş elementlərinin dəyişən toplumda adekvat funksiya yerinə yetirə bilməsidir.

20 Yanvar həmin kontekstdə elə bir kateqoriyadadır ki, yaddaşımızda onun yerini təmin etməklə bərabər, ictimai şüurda bir sıra məqamları aktuallaşdıra bilməsi də olmalıdır. Həmin anlamda 20 Yanvardan II Qarabağ müharibəsinə gedən yolun fəlsəfi təhlili maraqlı olardı.

20 Yanvarda Azərbaycan xalqı azadlıq yolunun ağrı-acılarını, onlara qalib gəlmənin siyasi və iradi şərtlərini öz faciəsi içində aydınlaşdırdı. Qəti qərar qəbul etdi: müstəqil dövlət olmaqdan başqa yol yoxdur! Bu istək Heydər Əliyevi təkidlə dövlətə başçı dəvət etməyə və liderliyi öz üzərinə götürməyə gətirib çıxardı. Azərbaycan xalqı 20 Yanvardan sonra dövlət başçısı və lideri düzgün seçməyə sadəcə, məhkum idi. Çünki, bu, baş verməsəydi, ümumiyyətlə, dövlətin formalaşıb-formalşmaması məlum olmayacaqdı. Təcrübə göstərdi ki, xalq doğru qərar vermişdir.

Bəlkə də 20 Yanvarın fəlsəfi baxımdan müstəqil dövlətçilik üçün ən vacib seçimi bununla əlaqəli olmuşdur. 20 Yanvar bu bağlılıqda ibrət dərsi verirdi ki, Azərbaycanın müstəqilliyi, ilk növbədə, layiqli liderin olmasını tələb edir. Heydər Əliyev tarixi baxımdan qısa müddətdə müstəqil dövləti müasir tələblərə uyğun qurmağa başladı. Bu prosesin mənası çoxdur. Onlardan biri də elə müstəqil dövlət qurmaqdan ibarətdir ki, bir daha 20 Yanvar kimi hadisələr təkrarlanmasın.

Bu, nəzəri aspektdə olduqca əhəmiyyətli məsələdir. Burada tarixi yaddaş kontekstində unutqanlıqla yarddaşlığın tarixi nisbəti ön sıraya çıxır. Yəni azərbaycanlılar nəyisə yadda saxlamaq üçün nələrisə unutmalı idilər. Bu, problem hələ də tədqiqini gözləyir. Məsələn, azərbaycanlılar psixoloji natamamlıq kompleksindən xilas olmaq üçün bədbinlik və ümidsizlik verən bir çox psixoloji faktoru unutmalı idilər. Bunun üçün insanları nikbinliyə və ümidə motivə edən yeni siyasi, ideoloji, mədəni, mənəvi dəyərlər yaratmaq gərəkdi.

Həmin prizmada 20 Yanvardan sonrakı mərhələdə Azərbaycan xalqının milli ləyaqətini bərpa etməyə stimullaşdıran möhtəşəm tezislərdən biri "...fəxr edirəm ki, mən azərbaycanlıyam" deyimi idi. Digər güclü stimulverici təsiri olan müddəa milli ideyada ifadə olunmuşdu: ərazi bütövlüyünün təmini Azərbaycan dövləti və cəmiyyətinin əsas vəzifəsidir!

Bu iki tezis 20 Yanvardan baxanda Ulu öndərin başqa üç mühüm kəlamı ilə konkret reallaşma mexanizminə malik oldu. Onlar "bir millət, iki dövlət" (müstəqil dövlət quruculuğu strategiyasının baş prinsipi), azərbaycançılıq (cəmiyyətin bütövlüyü və təkamül istiqamətinin müəyyən edilməsi) və multikulturalizmdir (cəmiyyətin mənəvi, mədəni və hüquqi birlyinin təmini aspekti).

Bu kimi şərtlər II Qarabağ savaşında 20 Yanvarın da sırasında olduğu tarixi yaddaş elementlərinin hərb meydanında öz funksiyalarını uğurla yerinə yetirmələrini təmin etdi! Artıq Vətən müharibəsi faciə deyil, dövlət, xalq və Vətən uğrunda müqəddəs mübarizənin rəmzi oldu. Azərbaycan II Qarabağ savaşında həm öz faciəsinə qalib gəldi, həm də müstəqil dövlət quruculuğunda tarixi yaddaşın yeri və rolunu düzgün müəyyənləşdirə bildi!

Əlbəttə, bu proses davam edir. Lakin indi deyə bilərik ki, Azərbaycan cəmiyyəti tam olaraq özünün tarixi yaddaşı ilə müasirliyi vəhdətdə görməyi bacarmışdır. XXI əsrdə Azərbaycan "müstəqillik" anlayışına özəl məzmun verən və onu ümummilli maraqlara uyğunlaşdıran sayılı dövlətlərdəndir. 20 Yanvar kimi faciəni yaşamış, böyük yaralar almış, psixoloji travmalara məruz qalmış bir cəmiyyət dövlət quruculuğunda özünə yeni səhifə açmışdır.

## Yol davam edir...

Şübhə yoxdur ki, Azərbaycan Prezidentinin bəyan etdiyi yeni tarixi mərhələdə tarixi yaddaşımızın cəmiyyətdə oynayacağı rol da yeniləşəcək. Mümkündür ki, konkret 20 Yanvarla bağlı yeni fəlsəfi qənaətlər meydana gəlsin. Çünki Prezident qarşımıza gənclərin milli, vətənpərvər və dövlətçi ruhda tərbiyəsinin daha da gücləndirilməsi kimi mühüm vəzifələr qoymuşdur. Həmin bağlılıqda 20 Yanvarın daha geniş aspektdə fəlsəfi və ideoloji tədqiqi genişlənə bilər. Ümumi miqyasda isə tarixi yaddaşın sosial-mədəni, ideoloji, mənəvi-əxlaqi yeniləşmələrdə yeri və rolunun araşdırılması xeyli aktuallaşır.

20 Yanvardan başlayan müstəqillik yolunu Azərbaycan liderləri, xalqı və dövləti Zəfər yoluna çevirməyi bacardı! İndi onu daha yüksək zirvələrə daşımaq dönəmidir! Bunu böyük millətlər və güclü dövlətlər bacarırlar!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

## Sarkozinin hiyləsi haqqında şayiələr

Makron–Benalla skandalı məhz elə bu kontekstdə partlayır... və lap elə bu qalmaqalın birinci günündən Makronun çevrəsində qəribə söz-söhbət gəzməyə başlayır. Deyirlər ki, guya, bu skandalın səbəbi olan "Le Monde" qəzetindəki məqalə Nikola Sarkozinin dövründə əks-kəşfiyyatın keçmiş rəhbəri olan Bernard Sqarçini tərəfindən sifariş verilib. Əslində, böyük əks-kəşfiyyatın keçmiş rəhbəri, bu misli görünməmiş skandalı qaldıran iki məqalə müəllifinin biri ilə qətiyyən yaxşı münasibətdə deyil. Jurnalist Arian Şömən vaxtilə ona xeyli məqalələr həsr edib, özü də bəzən çox kəskin və tənqidi məqalələr... "O məqalə çap olunandan az sonra mənə dedilər ki, guya, o jurnalist qıza videonu mən göndərmişəm. Açığını deyim ki, bunu eşidəndə xeyli güldüm...", – deyə Sqarçini əlini-əlinə vurub qəhqəhə çəkir. Bununla belə, bu söhbət prezidentin ətrafdakıların arasında çox müzakirə olunur, çünki heç kim inanmaq istəmir ki, "Le Monde" qəzetində gedən material yalnız iki jurnalistin özlərinin apardığı araşdırmanın nəticəsidir... O da düzdür ki, hakimiyyətdə "komlot teoriyası" həmişə hamının canına qorxu salıb. Siyasi liderlərin çoxunda paranoyyaya qarşı real meyil olur.

Ancaq əvvəlcə, Yelisey sarayı bu məsələdə LFİ partiyasının fəallarından və anarxistlərin "qara bloklar" (black blocs) qrupunun üzvlərindən şübhələndi, çünki onlar ikisi də o başıbəlalı 1 May nümayişi zamanı, Parisin 5-ci rayonundakı Contrescarpe meydanında idilər. Tezliklə sosial şəbəkələrdə belə bir xəbər yayıldı ki, bəs Benalla çox yaxşı və cəsarətli bir cangüdəndir və bu mühafizəçi 1 May nümayişində "zalım" və "təhlükəli" nümayişçilərin qarşısında qəhrəmanlıq göstərib. Yelisey sarayının rəsmi silah gəzdirənləri, jurnalistlərin yazdıqlarını inkar etməyə risk etməsələr də, Sarkozinin bu işdə əli olduğuna da inanmırlar və onun haqqında gəzən söz-söhbətə fikir vermirlər. Lakin Makroniyada vəziyyət tamamilə başqadır. Şəxsi dairələrdə, eləcə də dövlət başçısının yaxın çevrəsində olan adamlar, prezidentə qarşı komlot hipotezini dəstəkləyirlər. Avqust ayı ərzində Jil Lö Jandr və Rişar Ferran bütün günahları Sarkozinin üstünə atmaqdan çəkinmirlər. Özü də onlar tək deyil. Yelisey sarayında Emmanuel Makron bütün şayiələrdən xəbərdardır. Yayın axırında o, dostları və məsləhətçiləri tərəfindən göndərilən bir xəbərçini şəxsən öz kabinetində qəbul edir. Bu sonuncu Emmanuel Makrona xəbər verir ki, Nikola Sarkozi Daxili İşlər Nazirliyindəki şəbəkəsi vasitəsilə Aleksandr Benallanı Parisin 5-ci rayonunda yerləşən Contrescarpe meydanında tələyə salıb. İşə bax ha! Deməli, belə çıxır ki, hər şey əvvəlcədən ölçülüb-biçilib ki, prezidentin kölgədə olan məsləhətçisi əsəbiləşib özündən çıxsın və polis prefekturasının, turistlərin qaynaşdığı bu meydanda quraşdırılmış kameralarının qarşısında iki nümayişçini dəyənəklə döysün. (!)




Ancaq ortaya məntiqi bir sual çıxır: axı Sarkozinin Aleksandr Benallaya bu şəkildə tələ qurub ona belə hücum etməsində məqsədi nədir? Komlot nəzəriyyəsinin tərəfdarlarının fikrincə, bu skandalı qaldırmaqda məqsəd dövlət başçısını zəiflətməkdir. Niyə bəs indi? Talenin ironiyasına bax ki, elə həmin ərəfələrdə Fransız hakimi Serj Turner tərəfindən verilən mandat əsasında, Londonda həbs olunan Aleksandr Djurinin Fransaya transfer olunması müzakirə edilir. Dekabrda verilən bu mandata görə bu iş adamı (Aleksandr Djuri) "yalan və saxtakarlıqdan istifadədə, aktiv daxili korrupsiyada, aktiv xarici korrupsiyada, qohumpərəstlikdə, çirkli pulların yuyulmasında, dövlət vəsaitlərinin mənimsənilməsində və vergi ödənişində saxtakarlıqda ittiham edilir".

Otuz ildən bəri beynəlxalq müqavilələrdə vasitəçilik edən Djurinin çox sirlərdən xəbəri var. Ona görə də nə solçular partiyasından, nə də sağçılar partiyasından heç kim onun məhkəməyə düşməsini, müstəntiqlər tərəfindən dindirilməsini istəmir. 2017-ci ilin iyunundan İnterpol vasitəsilə ona (Aleksandr Djuri) qarşı cinayət işi açılıb və Fransız məhkəməsi tərəfindən beynəlxalq axtarışa verilib. Bax, elə buna görə də Djuriyə cinayət işi açılandan altı ay sonra, heç nə olmamış kimi onun Əlcəzairdəki Fransa səfirliyində, Fransa prezidentinin qarşısında peyda olması skandal doğurdu. Səfirlikdəki o qəbuldan bir neçə gün sonra Fransa respublikasının hakimi Turner tərəfindən onun bütün Avropa ölkələrində həbs olunması ilə bağlı mandat verilir. Beynəlxalq axtarış mandatından fərqliolaraq Avropa ölkələrindəki həbs qərarı şəxsən bir hakim tərəfindən verilir. Bu kiminsə başqa bir Avropa ölkəsindən Fransaya klassik transfert xahişi deyil ki, onu kanslerlər həll etsinlər. Bu dəfə cənab Djurinin haqqında Britaniyada ingilis hakimləri qərar verməlidirlər. Britaniya məhkəməsində gedən bir prosesə, Fransanın siyasi hakimiyyət orqanları necə müdaxilə edə bilərlər? 2018-ci ilin yayından təxirə salınan bu iş artıq Britaniya ədalətinin əlindədir. Onların birinci qərarı 2019-cu ilin fevral ayının sonunda verilir: İngilis hakimləri Djurinin Fransaya transferini qəbul edirlər. Mütt əhim apelyasiya məhkəməsinə müraciət edir. Nikola Sarkozidən səs çıxmır. "O elə bil ki, nəsə gözləyirdi. Bizə dedi ki, hər ehtimala qarşı hər şeyə hazır olun", – deyə Sarkozinin keçmiş həmkarlarından biri etiraf edir. Yayda Benalla skandalı başlayanda, o (Sarkozi) yalnız bu sözləri dedi: "Bu işin axırı pis qurtaracaq!".

2018-ci ilin sentyabrında Fransada siyasi mühit içində pıqqapıqla su qaynayan böyük bir qazana bənzəyir. Daxili İşlər naziri Jerard Kollombun istefası hamını təəccübləndirir – indi onun yerinə başqa bir adam lazımdır. Kim? Kim olacaq Daxili İşlər naziri? Sağçılar partiyasında, Sarkoziyə sadiq olan Frederik Peşenardın nazir təyin olunması üçün, sözün əsl mənasında, kampaniya başlayır. Sosialist partiyasından olan, ancaq Makronu dəstəkləyən bir deputat sağçıların namizədinə ağız büzür: "Bizi xalq ona görə seçməyib ki, Sarkozinin dostlarını yüksək vəzifələrə gətirək...". Ancaq buna baxmayaraq, prezident Makron və Baş nazir Eduard Filip, Frederik Peşenardı Yelisey sarayında qəbul edirlər. Keçmiş polis prezidentin və Baş nazirin qarşısında bir sıra şərtlər qoyur. O istəyir ki, Daxili İşlər naziri olanda, dövlət adamı kimi onun hüquqları olsun və ona tam sərbəstlik verilsin. Sonra Peşenard tələb edir ki, ona polisdən başqa jandarm üzərində də tam səlahiyyət verilsin. Yeni hökumətin prezident tərəfindən təyin olunmasından bir gün əvvəl, ölkənin yuxarı siyasi dairələrində hamı elə bilir ki, Frederik Peşenard Daxili İşlər naziri təyin olunacaq. "Hə, axır ki, istədiyimizə nail olduq...", – deyə Sarkozi yaxın dostlarının yanında özündənrazı halda əllərini bir-birinə sürtür.

Ancaq reallıqda məsələ tam başqadır. Makron Baş naziri ilə birlikdə, digər namizədləri də qəbul edib. Məsələn, prezidentin şəxsən yüksək qiymətləndirdiyi Hollandın vaxtında Yelisey sarayının baş katibinin müavini olmuş Nikola Revel. Ancaq bu məmur Daxili İşlər naziri olmaqdan imtina edir. Prezident başqa nazirlikləri də yaddan çıxarmır, nazirlər kabinetini tamamilə təzələməkdən ötəri İqtisadiyyat nazirliyinə Florans Parlini təyin etməyi planlaşdırır ki, onun apardığı iqtisadi siyasətinə daha çox "solçu" rəngi qatsın. (Florans Parli solçular partiyasındadır) Lakin Baş nazir Eduard Filip prezidentin bu təklifini rədd edir. Çünki çox yaxşı bilir ki, Florans Parli İqtisadiyyat naziri olsa, öz bildiyini edəcək və nazirlikdə bir Baş nazir kimi onun sözü keçməyəcək. Bir tərəfdən də Rişar Ferran ilə Fransua Bayru nə Sarkozinin təklif etdiyi Jerard Darmananın, nə də Peşenardın Daxili İşlər naziri təyin olunmaqlarını istəmirlər... "Bu o demək olacaq ki, Sarkozi yenidən hakimiyyətə qayıdıb", – deyə onlar bir ağızdan narazılıqlarını bildirirlər.

Nəhayət, dövlət başçısına yaxın bir adam Kristof Kastaner Daxili İşlər naziri təyin olunur, özü də Loran Nünezin müşayiəti ilə. Bu sonuncunazirliyə dövlət katibi kimi göndərilsə də, onun əlində hələ ki, böyük ixtiyar yoxdur. Çünki onun nə öz komandası var, nə də fərman verməyə icazəsi. Nazirlikdəki hər şey yeni kabinet direktoru, prefekt, Emmanuel Makronun yaxın dostu, 2017-ci ilin yayında onu Marsel şəhərindəki iqamətgahında qəbul edən Stefan Buyyonun əlindədir. Bu sonuncu da yekdilliklə həm sağçılar, həm də solçular tərəfindən dəstəklənir. O, Mişel Rokard (1988–1991 illərdə Baş nazir) Lionel Jospa (1997–2002 illərdə Baş nazir), Fransua Fiyyon (2007–2012 illərdə Baş nazir) kimi Baş nazirlərin kabinetində çalışıb, hətt a Klod Qeant Daxili İşlər naziri olanda, onun kabinet direktoru olub. Stefan Buyyonun yenidən Daxili İşlər Nazirliyinə qayıtması, burada çoxdan lövbər atıb keçmiş sosialistlərin, eləcə də Sarkozinin şəbəkəsinin ürəyincə olur. 2019-cu ilin mart ayını gözləmək lazım gələcək ki, sarıjiletlilərin ölkədə qalmaqal saldıqları dövrdə Paris polisinin prefekti Mişel Delpüş vəzifəsindən azad edilsin. Bu da Benalla məsələsindən sonra Makronun Parisin polis prefekturasını öz nəzarəti altına almasının başqa bir yoludur.

**(ardı var)**

# Dünya möcüzə gözləyir

**Yanvarın 20-ini bü gün bütün dünya həyəcanla gözləyir. Sanki, hakimiyyət "cilovunu əlinə ikinci dəfə alan" Donald Tramp bu gün tüğyan eləyən xaosa, qarmaqarışıqlığa düzən verəcək, müharibələrə son qoyacaq, İsrailin ürəyinə rəhm toxumu səpəcək, Rusiya–Ukrayna qarşıdurmasını dayandıracaq, erməni xislətinə insanlıq peyvəndi vuracaq, "uşaqsan, otur uşaq yerində"– deyə Makronun qulağını buracaq, dünyanı sonsuzluq (övladsızlıq mənasında) dalanına sürükləyən cinsi azlıqlara layiq olduqları yeri göstərəcək, "valideyn "bir", valideyn "iki" düsturunu ortaya atanları zindana atacaq, daha nələr, nələr edəcək. Amma... Bu yalnız o zaman olardı ki, bütün sadalananlar onun başçılıq etdiyi, edəcəyi superdövlətin ideologiya sandığından çıxan "ləl-cəvahirat" olmayaydı. O zaman olardı ki, "dovşana qaç, tazıya tut" əmri dünyaya oradan verilməyəydi.**



Azərbaycan xalqının 20 Yanvar gözləntisi isə tamamilə fərqlidir. Artıq 35 ildir ki, xalqımız o süslü-bəzəkli vədlər verən, bir əlində gül dəstəsi, o birində arxasında gizlədərək xəncər tutan "dostlara" inanmır. Bir igidin ömrüdür 35 il. Hərçənd dolayısı ilə həmin yanvarın da səbəb olduğu işğaldan torpaqlarımızı azad edən igidlərimizin çoxu bunun az qala yarı yaşında idi. Bir doğmamızın doğum günü 1989-cu ilin 20 yanvarına təsadüf edir. Və o 35 ildir doğum günü əvəzinə şəhidlərin anım gününü qeyd edir.

O gecənin hüznü, dəhşəti, faciəsi bütöv bir ulusun həyatını dəyişdi. O gecənin əks-sədası göyün və yerin yeddi qatına keçdi – deyənlər şişirtmir. O gecənin qurbanları təkcə gülləbarandan, tank altında qalmaqdan ölənlər olmadı, hadisə yerindən minlərlə kilometr uzaqda bu vəhşəti eşidib ürəyi dayananlar, beyninə qan sızanlar oldu.

Bu keçən müddət ərzində dəfələrlə dilə gətirməyimə baxmayaraq, hər dəfə xatırlayanda qanımı donduran bir zəng çalınır qulağımda. Yanvarın 19-u gecəsi ev telefonum zəng çaldı. O vaxt mobil telefon yox idi və şəhərlər, ölkələrarası telefon əlaqələri çətin olurdu. Telefondan dəhşət filmlərində effekt yaratmaq üçün işlənən, bu dəfə isə həqiqi güllələrlə adamları hədəf alan avtomat güllələrinin şaqqıltısı, təcili yardım maşınlarının siqnalları eşidilirdi. Zəng edən Biləcəri hərbi komissarlığı yanındakı xəstəxananın baş həkimi polkovnik Əli həkim idi. Bir hərbçi və həkim kimi, yetkin insan kimi mənim hadisələrə müdaxilə edə bilməyəcəyimi dərk etsə də, durumun həyəcanı, vəhşiliyin miqyası onu reallıqdan uzaqlaşdırmışdı və mənə əmr edir və sonra yalvarırdı ki, bir iş görün, bir çarə qılın, əliyalın, dinc adamları qırırlar. Mən də eyni sadəlövhlüklə, suda boğulanın saman çöpündən yapışması kimi ertəsi gün ayın 20-də işlədiyim şöbənin müdirinin yanına gedib qəzəb və göz yaşları ilə "bir şey edin, axı günahsız adamları öldürürlər" dedim və səlahiyyəti mənimkindən cüzi miqdarda çox olan o məmurun çaşqın baxışları altında otaqdan çıxdım. Ağlımla dərk edirdim ki, bu çarxı dayandırmaq onun ixtiyarında deyil.

Sarsıntı, ümidsizlik, çarəsizlik bir-birinə qarışmışdı. Dünya isə bu faciəyə biganə idi. İndi çox "xatirələr", "şahid ifadələri" ortada dolaşsa da o vaxt səsimizi dünyaya çatdırmaq, bir ölkə daxilində öz vətəndaşlarına qarşı qəddar soyqırımı aktı törədildiyini bəyan etmək, dərdimizə şərik olanları tapmaq çox çətin idi.

Belə bir vaxtda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmış, təqaüdlə yaşayan Heydər Əliyevin Azərbaycanın Daimi Nümayəndəliyinə gələcəyi xəbəri yayıldı. Yayıldı deyəndə ki, hadisədən sonra Moskvada yaşayan fəallar hələ 19-u günü gecədən nümayəndəliyin yanına gəlmişdilər və hər hansı bir məlumat eşitməyə çalışırdılar.



Nümayəndəliyin yanında milis işçilərinin növbəsi gücləndirilmişdi. Həmin gün Heydər Əliyevin nümayəndəliyə gəlişi, qətliamı qətiyyətlə pisləməsi, ciddi maneələrə baxmayaraq nümayəndəliyə gələ bilmiş əcnəbi jurnalistlərə verdiyi bəyanatlar haqqında çox yazılıb. Siyasi xadim kimi fəaliyyəti, əsl dövlət adamı kimi qətiyyəti və tələbkarlığı üzündən qısqanclığa məruz qalan, erməni lobbisi də daxil olmaqla milliyyətçi qüvvələrin fitnələri nəticəsində Siyasi Bürodan uzaqlaşdırılan və heç şübhəsiz, dövlət təhlükəsizliyi xidmətinin müvafiq qurumlarının nəzarətində olan bir insanın belə gərgin anda xalqının yanında olması çox böyük cəsarət tələb edən addım idi.

Hər hansı fitnəkarlığa yol verilməməsi üçün milisdə, digər rəsmi orqanlarda çalışan həmyerlilərimiz qapıda, həyətdə növbə çəkirdilər. Bu görüntülər sosial şəbəkələrdə yayılan videolarda da vardır.

Nümayəndəliyə axın davam edirdi. Qərara alındı ki, SSRİ Müdafiə Nazirliyinin binası qarşısında və Ostankino studiyası qarşısında mitinq davam etdirilsin.

"El gücü, sel gücü" deyiblər. Az müddət ərzində insan axını nümayəndəliyin qarşısına sığışmayacaq qədər çoxaldı və bu kütləni nəzarətdən çıxmaması üçün nizamlamağa çalışan gənclər bütün küçəni dolduracaq şəkildə cərgələr yaratdılar. O vaxt çoxumuz bir-birimizi tanımırdıq. Həmin günlərin təmaslarından sonra Moskvada nə qədər vətənpərvər həmyerlilərimiz olduğunu gördük. Əvvəlcə İTAR-TASS-ın, o vaxt Sovet İttifaqı Teleqraf Agentliyi (SİTA) adlanırdı, qarşısında bir neçə çıxış oldu. Moskvanı tanımayanlar üçün deyim ki, oradan başlamağın səbəbi SİTA-nın bizim Daimi Nümayəndəliyimizə yaxın olmasından irəli gəlirdi. Sonra 8-10 nəfərlik cərgələrə düzülüb, araya naməlum adamların girməməsi üçün əl-ələ tutaraq düz Ostankinoya qədər getdik. Bu məsafə 12 kilometrdir. İnsanlar müxtəlif cür təpki verirdilər. Bəziləri təəssüf edir, bəziləri dəstəmizə qoşulmaq istəyir, bəziləri də dodaqaltı mızıldanaraq uzaqlaşırdı. Biz Ostankinoya çatanda artıq hava qaralmışdı və çıxışlarımız projektorların işığı altında səslənirdi.

Törədilmiş cinayətdə müqəssir olanların məsuliyyətə cəlb olunması, cəzalandırılması tələblərimizi irəli sürdük.

Bu gün o qanlı hadisələrdən 35 il keçir. SSRİ adlı dövlətin ölümqabağı aqoniyasının başlanmasının 35 illik yubileyi. Ucaldıqları zirvədən xalqın azadlıq yoluna şəfəq salan şəhidlərimizin ruhunun oyanışının 35 ili. Müstəqilliyə gedən yolda qan şırımları ilə açılan cığırların 35 ili. Bu gün azadlığını və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın çəkmiş olduğu otuz illik məşəqqətlərin başlanğıc nöqtəsi.

20 Yanvar qırğınında icraçı olmuş general Lebedin, öz olkəsini məhvə aparıb xarici ölkələrdən təltiflər alan Qorbaçovun bu cinayətlərdə nə qədər əlləri olduğu bilinsə də beynəlxalq hüquq çərçivəsində cəzalanmadılar.

Qanlı Yanvar nə qədər ağrılı olsa da xalqımızın tarixində şərəf səhifəsi kimi xatırlanacaq. Çünki silahsız dinc adamlar dünyaya meydan oxuyan bir dövlətin (həm də vətəndaşları olduqları dövlətin) silah cəbbəxanasına qalib gəldilər, "böyük qardaş" ifadəsinin illüziyasına son qoydular.

*Cəfər SADIQ*

**Moskva**

# Bakıda qızıl ilə süslənmiş ilk və yeganə abidə

## *Bu, Azərbaycan dövlətinin 20 Yanvar şəhidlərinə ehtiramının göstəricisidir*

**Dünyanın müxtəlif şəhərlərində olduğu kimi, Azərbaycan paytaxtında da tikintisində qiymətli metallardan istifadə edilmiş binalar var. Ancaq 20 Yanvar şəhidlərinin dəfn olunduğu məkanda ucaldılmış "Əbədi məşəl" abidəsi qızıl ilə işlənmiş ilk abidə nümunəsidir. Bu fakt müstəqilliyinin ilk onilliyini yaşayan "kasıb" Azərbaycanın mənəvi zənginliyindən xəbər verirdi.**



Xatırladaq ki, paytaxtımızdakı Şəhidlər xiyabanı sadəcə Qara Yanvar və Qarabağ müharibəsi şəhidlərinin dəfn olunduğu kütləvi məzarlıq deyil. Bu ünvan həm də and yerimizdir, ölkəmizin ən nüfuzlu rəsmi-siyasi qonaqlarına təqdim etdiyimiz müqəddəs məkandır. Bu ünvan müxtəlif dövrlər ərzində Çəmbərəkənd qəbiristanlığı, Dağüstü park və Kirov parkı kimi fəaliyyət göstərmişdir. Türk düşməni olan Mixail Qorbaçovun Bakını al qana qərq etməsindən sonra isə orada Şəhidlər xiyabanı yaradılmışdır.

Xatırladaq ki, sovet dönəmində işğalçı ordunun təmsilçisi Sergey Kirovun adı verilmiş bu məkan Azərbaycan Xalq Cümhuriyyəti dövründən 1939-cu ilə qədər məhz Şəhidlər xiyabanı, yaxud Çəmbərəkənd qəbiristanlığı olub. Maraqlı məqamlardan biri odur ki, həmin qəbiristanlıqda Azərbaycan tarixində xüsusi yeri olan görkəmli şəxslərdən Əlirza Rasizadə, Səməd bəy Mehmandarov, Cəlil Məmmədquluzadə, Midhət Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Hüseyn Ərəblinski, Ağa Musa Nağıyev, Süleyman Sani Axundov, Cabbar Qaryağdıoğlu, Rüstəm Mustafayev və digərləri dəfn edilmişdi.

Bildirilir ki, Bakının baş memarı vəzifəsində çalışan Zivər bəy Əhmədbəyov şəhərin daşnaklar və eser-menşeviklərdən ibarət Sentrokaspi Diktaturasından azad olunması zamanı şəhid olmuş azərbaycanlı və türk əsgərlərinin xatirəsini əbədiləşdirmək üçün Çəmbərəkənd qəbiristanlığında ucaldılacaq abidə kompleksinin layihəsini hazırlamışdı. Altıbucaqlı türbə görünüşündə olan həmin layihədə orta əsr Azərbaycan memarlıq incilərindən məharətlə istifadə olunmuşdu. Ancaq zaman həmin layihənin reallaşdırılmasına imkan verməmişdi. 1934-cü ildə Sergey Kirov öldürüldükdən sonra onun xatirəsini əbədiləşdirmək üçün bu qəbiristanlıq köçürülmüş və Çəmbərəkənd qəbiristanlığının yerində istirahət parkı salınmışdı. Daha bir rəzalət odur ki, Kirov parkı salınanda oradakı baş-daşlarından da tikinti materialı kimi istifadə edilibmiş.

...1990-cı ilin yanvarında isə həmin məkanda bir gündə 120-dən artıq qəbir qazılmış, Ali Sovetin iclasında yaradılmış dəfn komissiyasının qərarı ilə 20 Yanvar şəhidləri məhz həmin ünvanda dəfn olunmuşdular. Həmin məkanda "Əbədi məşəl" abidə kompleksinin yaradılması fikri ilk dəfə 1994-cü ildə irəli sürülmüş və xiyabanın girişində belə bir məşəl yaradılmışdı. Sonra isə ulu öndər Heydər Əliyev (1998-ci il avqustun 5-də) Bakı şəhərindəki Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldılması haqqında sərəncam vermişdir. Sərəncamda Bakı Şəhər İcra Hakimiyyətinə "Əbədi məşəl" abidə kompleksinin tikintisinin təmin edilməsi, Nazirlər Kabinetinə isə abidə kompleksinin tikintisinə 2 milyard manat məbləğində vəsaitin (o dövrün kursu ilə) ayrılması barədə təklif verməsi tapşırılır.

1998-ci il oktyabrın 9-da abidə kompleksinin açılışı olmuşdur. Bu abidə 8 guşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən tac qoyulmuş sərdabədən (türbədən) ibarətdir. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı rekonstruksiya olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz, səkkizguşəli güzgünün məsamələri qızılla işlənilmişdir.

Dünyanın neçə dövlət başçısının həmin "Əbədi məşəl" önündə baş əydiyini dəqiq bilmirəm. Ancaq onu bilirəm ki, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini daim böyük ehtiramla yad etmişlər. Çünki həmin şəhidlərin atdığı cəsarətli addımlar bugünkü qüdrətli Azərbaycan dövlətinin əsas təməllərindən biri olmuşdur.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

*İttifaq MİRZƏBƏYLİ*

# "Yanvar qırğınına görə dünyanı ayağa qaldırmağa çalışırdıq"

**1990-cı il 20 Yanvar faciəsi zamanı qardaş Türkiyədə ona ilk reaksiya verən, SSRİ-nin bu qanlı cinayətini dünyaya çatdırmaq üçün əlindən gələni edən fədailərdən biri Seyfəddin Altaylı olub. Seyfəddin bəy o zaman TRT "Türkiyənin səsi" radiosunun Azərbaycan redaksiyasının rəhbəri vəzifəsində çalışırdı. Ona söhbətimizin mövzusunu deyəndə ilk sualımızı gözləmədən sözə başladı:**

– Həmin dövrdə mənim Azərbaycanla əlaqələrim vardı. Jurnalist kimi Azərbaycana gedib-gəlirdim, Bakıda gedən proseslərdən xəbərdar idim. Ona görə də Moskvanın törətdiyi qanlı olaya dərhal qiymət verməkdə çətinlik çəkmədim. Bütün tarixi boyu imperiya siyasətini davam etdirmiş bir dövlətin törətdiyi Qara Yanvar faciəsi XX əsrdə Azərbaycan türklərinə qarşı etdiyi növbəti soyqırımı idi. Biz bunu Türkiyə ictimaiyyətinə o cür də təqdim etdik.

**– Seyfəddin bəy, hadisəni eşidən kimi bu acını birinci kimlərlə bölüşdünüz?**

– Dediyim kimi, Azərbaycanla mütəmadi əlaqələrim var idi və Bakınınm Azadlıq meydanında davam edən milli-azadlıq hərəkatının gedişini izləyir, bu barədə dinləyicilərimizə gündəlik məlumatlar çatdırırdım. O qanlı gecədə yaşananları, "qırmızı qırğın"ı duyar-duymaz ilk olaraq Türkiyədə yaşayan Azərbaycan əsilli ziyalılarımızı axtardım. İğdırda yaşayan İbrahim Bozyellə, İstanbulda Nihat Çətinkaya ilə əlaqə saxladım. Ankaradakı dostlarımızla görüşüb bu məsələnin Azərbaycanın müstəqillik uğrunda mübarizəsi, qəhrəmanlıq səhifəsi kimi qiymətləndirməyi, Azərbaycanın SSRİ tərkibində qalmasının mümkün olmadığı barədə təbliğatın aparılmasına start verilməsi təklifini irəli sürdüm.

**– Bəli, bütövlükdə Türkiyə bu qətliamın acısını yaşadı. Ölkənin hər yerində Azərbaycana dəstək mitinqləri keçirilirdi...**

– Həmişə olduğu kimi, Türkiyə yenə qan qardaşlarının yanında oldu. Həmin günlərdə hamı hüzn içərisində idi. Amma etiraf edim ki, Türkiyə ictimaiyyəti o zaman Azərbaycanı yaxşı tanımırdı. Onun millətimizin müstəqillik uğrunda verdiyi mübarizəsindən yetərincə xəbərləri yox idi. Məhz bu sahədə ictimaiyyətin maarifləndirilməsinə ehtiyac duyulurdu. Əlimizdə olan imkanları səfərbər edərək insanları məlumatlandırmağı ən böyük missiyamız kimi bəyan etdik. Bu istiqamətdə konkret addımlar atdıq. "Türkiyənin səsi" radiosu 20 Yanvar qətliamının dünyaya çatdırılmasında əsl tribunaya çevrildi. Düşünürdük ki, yalnız Türkiyə toplumunu məlumatlandırmaq, onu Azərbaycanın müstəqillik davasına səfərbər etmək yetməz, dünyanı ayağa qaldırmaq lazımdır. Biz məhz bu vacib missiyanı yerinə yetirməyə çalışırdıq.



**– Bilirik ki, bu istiqamətdə fəaliyyətinizi Avropada da davam etdirmisiniz...**

– Həmin günlərdə Avropada yaşayan türklərlə və güneyli azərbaycanlı qardaşlarımızla əlaqə qurub, onların vasitəsilə dəhşətli faciəni dünyaya yaymağın vacib olduğunu bildirdik. Bu məqsədlə milli fəallarla əlaqə yarada bildik. Əsas təbliğat vasitələrinə üstünlük verdik. Yadımdadır, Güney Azərbaycan milli-azadlıq hərəkatının liderləri – Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvərinin portretlərinin də yer aldığı, sovetlərin Bakıda törətdiyi qanlı cinayətin miqyasını və xarakterini göstərən bir təqvim plakatı hazırladıq və onu Avropanın müxtəlif ölkələrində yaydıq. Bu işdə bizə yaxından köməklik göstərən Almaniyadan Məmməd İrmak, Belçikadan Ayhan Dəmirçi, İsveçrədən Ekbər Gence, Niderlanddan İlhan Aşkın, yenə oradan Məmməd Olgün hoca, Berlin Azərbaycan Dərnəyinin başkanı Xəlil Toksöz, Ştutqart Azərbaycan Dərnəyinin başkanı Cumalı Turan , Kölndən Əhməd Yəzdani, Xalis Tezel, Hamburqdan Nemət Rəhməti və başqalarının əməyini qeyd etmək vacibdir.

TRT-dən ezamiyyət götürüb Almaniyaya getdim. Bir ay müddətində burada Azərbaycana qarşı törədilən vəhşiliyin anti-insani bir qətliam olduğunu anlatmağa çalışdım. Almaniyada, İsveçrədə, Belçikada, Niderlandda çoxlu görüşlərimiz oldu. Bizim vasitəmizlə Avropadakı soydaşlarımız mitinqlər düzənlədilər, bu qanlı faciənin millətimizə qarşı necə vəhşi bir aksiya olduğuna etiraz səslərini ucaltdılar. Keçirən konfranslarda etdiyimiz çıxışlarda hələ 1918-ci ildə Zəngəzur bölgəsinin Ermənistana verilməsini Türk dünyasının arasına bir divar çəkilməsi kimi qiymətləndirdik. Berlin divarı ilə ikiyə bölünmüş və bu mövzuya həssas yanaşan Almaniya ictimaiyyəti bizim bu yöndə çıxışlarımızı anlayışla qarşılayırdılar. Orada görülən işlərlə bağlı "Türkiyənin səsi" radiosunun efirində müntəzəm xəbərlər verilir, verilişlər hazlırlanır, müsahibələr səsləndirilirdi. Yəni, uzun müdət qanlı 20 Yanvar faciəsi Türkiyənin gündəmindən düşmədi.

**– Sizin fikrinizcə, 20 Yanvar qırğınından çıxardığımız əsas nəticə nə olmalıdır?**

– Otuz beş il bundan əvvəl bunları etməklə bəşəriyyətə və insanlığa qarşı törədilən cinayətlərə də diqqət çəkməyə çalışdıq. Tarixdə baş verən belə qanlı hadisələrdən dərs çıxarılmasa, bəşəriyyət uçurum qarşısında qala bilər. Məhz 20 Yanvar hadisəsinə vaxtında siyasi qiymət verilmədiyindən ondan sonrakı illərdə postsovet məkanında daha böyük faciələr törədildi. Faşist ermənilərin törətdiyi Xocalı soyqırımı kimi XX əsrin utanc hadisəsi bunlardan biri oldu. 20 Yanvar şəhidlərinin anım günündə o günləri xatırlamaqla, eyni zamanda, beynimizə bunu həkk etməliyik: faciələrimizdən nəticə çıxarmalı, türk birliyinin var olması üçün heç nəyi unutmamalı və bu yolda əlimizdən gələni etməliyik.

***Söhbətləşdi:***
***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Xəzərdə qiyam: Dənizçilərin SOS fəryadı

**O gecə Bakının yuxusu ərşə çəkilmişdi. Hara gəldi atılan ölümsaçan güllələr günahsız insanları qanına qəltan edir, imdad diləyənlərin ahnaləsi qaranlığın bağrını dəlirdi.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Xəzər Dəniz Neft Donanmasının mülki gəmiləri üçün də çox ağır və dəhşətli sınaq oldu. Həmin gecə iş başında olan kapitan, şair-jurnalist Faiq Balabəyli deyib: "Həmin vaxt "Şirvan" gəmisində çalışırdım. Növbəti iş tapşırığını yerinə yetirmək üçün Neft Daşları ərazisində idik. Yanvarın 19-da axşam saatlarında "Şirvan" gəmisi Çilov adası yaxınlığında lövbər ataraq dayanmışdı. Kayutda olarkən növbətçi matros "Mayak" radiosuna qulaq asan zaman verilişin dayandırılaraq bir nəfərin həyəcan dolu səslə Bakıda qırğın törədildiyini, meyitlərin küçədə qaldığını dediyini eşidib. Tez radionu açdım. Həyəcanlı səs insanları küçəyə çağırır, meyitləri və yaralıları götürmək üçün yalvarışlar edirdi. Səs qəfil dayandı.



Kapitan körpüsünə qalxaraq kapitan İbad Məmmədovun gəlməsini gözləmədən ətrafdakı gəmilərə efir vasitəsilə Bakıda baş verən faciə haqqında məlumat verdim. Sonra həmin ərazidə dayanan gəmilərin kapitanları arasında rabitə vasitəsilə kiçik məşvərət keçirib gəmilərin Bakı buxtasına qayıtması haqqında qərar qəbul etdik".

Kapitan xatırlayır: "Yanvarın 20-də, səhər saatlarında bizim gəmi Bakı buxtasına çatanda artıq Xəzər Dəniz Neft Donanmasının müxtəlif təyinatlı 100-ə yaxın gəmisi Bakı buxtasında lövbər ataraq etiraz aksiyasına başlamışdı. Hərbi gəmilərin Bakı buxtasında giriş-çıxışı məhdudlaşdırmaq üçün gəmilər xüsusi koordinatlarda dayanmışdılar. Yanvarın 20-də günün birinci yarısında hərbi gəmilərin hərəkətinə yol verməmək üçün donanmanın gəmiləri Bakı buxtasına gedən yolu tamamilə kəsmişdi. Dənizçilərin fəaliyyətlərini nizamlamaq üçün "Sabit Orucov" adına sərnişin gəmisi qərargaha çevrilmişdi. Burada təcrübəli 7 gəmi kapitanı, eləcə də ağsaqqallar və fəal dənizçilər toplaşmışdılar. Atılan hər bir addım və qəbul olunan qərarlar müzakirə edilir, sonra efir vasitəsilə gəmilərə ötürülür, müzakirələr aparılandan sonra qəbul edilən bəzi qərarlar həyata keçirilirdi. Gəminin kapitanı Mövlud Əliyev çox böyük cəsarət və fədakarlıq göstərirdi.

Dənizçilər SOS siqnalının mətnini hazırladılar. Mətndə Azərbaycan paytaxtında sovet qoşunlarının törətdiyi qırğınlar barədə məlumat verilirdi. Bundan başqa SSRİ-nin prezidenti Mixail Qorbaçova, SSRİ Ali Sovetinə, müdafiə naziri Dmitri Yazova və digər rəsmi şəxslərin ünvanına günahsız sakinlərin qırğınını dayandırmaq, qoşunların şəhəri tərk etməsi barədə müraciətlər göndərildi. Yanvarın 20-si səhər saat 11.30-dan yanvarın 21-nə keçən gecəyədək 4 dəfə təkrar olunan SOS siqnalının ilk mətninin əks-sədasını dənizçilər 1 saatdan sonra Kalininqraddan, Qara dənizdən, Baltik dənizindən verilən radioqramlardan alırlar. 50-dən çox ölkənin dənizçisi radioqramlarla Azərbaycan dənizçiləri ilə həmrəy olduqlarını və faciənin bütün dünyaya çatdırılmasına kömək edəcəklərini bildirirlər.

Bakı komendantı xəbər göndərdi ki, dənizçilər yanvarın 21-də öz tələbələrini SSRİ müdafiə nazirinin hərbi donanma üzrə birinci müavini, admiral Sidorova çatdıra bilərlər. Hərbi komandanlıq Xəzər dənizindəki qarşıdurmaya görə mülki gəmiləri ittiham edir və onları "dəniz quldurları" adlandırırdı. Sovet hərbçiləri buxtanı boşaltmağı tələb edirdilər. Mülki gəmilərin Bakıya dənizdən giriş və çıxışı bağlamağa cəhd göstərməsinin isə məqsədi var idi. İnformasiya verilmişdi ki, Bakıdakı qırğın haqqında məlumatı ört-basdır etmək və qırğınların miqyasını kiçiltmək üçün şəhidlərin meyitlərini aparıb dənizə tökəcəklər.

Saat 15-ə qədər vaxt verildi ki, gəmilər buxtanı boşaltmasa güllələnən ediləcək. Mülki və hərbi gəmilər üz-üzə dayanmışdılar. Bakı buxtasına gedən yolu kəsən Azərbaycan dənizçiləri bütün xəbərdarlıqlara və hədələrə baxmayaraq bir addım da geri çəkilmədilər. Dənizçilərə göstərilən təzyiq və hədələr durmadan artırdı. Hərbi gəmilər mülki gəmiləri güllə yağışına tutdular. "Vodoley-4" gəmisinə 3600 güllə dəymişdi. Gəmi 8 yerdən mərmi zədəsi alaraq yanmağa başladı. Ona köməyə gələn "Vixr-12" yanğınsöndürən gəmisinə də atəş açıldı. Ümumilikdə iki mülki gəmi alova büründü, 30-dan çox gəmiyə minlərlə güllə dəydi. Paytaxtda fövqəladə vəziyyət tətbiq olunsa da, Bakı buxtasında bunu yanvarın 24-də elan etdilər. Etiraza görə 57 dənizçi cəzalandırılmaq üçün Orenburq və Ulyanovska göndərildi və bir ay saxlanıldıqdan sonra buraxıldılar".

Faiq Balabəyli deyib: "Bütün bunlara baxmayaraq 20 Yanvar həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin dənizçilərinin böyük rolu oldu və onlar həmin dövrdə olan informasiya blokadasına baxmayaraq təpədən dırnağa qədər silahlanmış sovet qoşunları əliyalın əhalini atəşə tutaraq günahsız adamların qətlə yetirildiyini mümkün olan vasitələrlə əvvəl öz həmkarlarına, onların vasitəsilə müxtəlif ölkələrə çatdırdılar. Bu hadisə



dənizçilərin həmrəyliyini nümayiş etdirən ilk hadisə kimi tarixə düşdü. Həmin günlərdə onların nümayiş etdirdiyi şücaət və qəhrəmanlıqdan bəhs edən "Azadlıq carçıları" adlı sənədli film çəkilib. Həmkarlarımın mücadiləsindən bəhs edən "Bakı buxtası – 20 Yanvar" adlı kitab çap etdirmişəm. Bundan başqa ötən il dənizçilərin 20 Yanvar faciəsi zamanı göstərdikləri misilsiz qəhrəmanlıqdan bəhs edən "Kəsilməyən həyəcan fiti" adlı kitabım da dərc olunub. Kitabda müəllif qeydləri, tarixi sənədlərlə yanaşı, həm də o günlərin iştirakçılarının xatirələri yer alıb".

*Süleyman QARADAĞLI*

# Vətənə xidmətin hünər və şərəf salnaməsi

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində də 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Toplantıda faciə qurbanlarının, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə şəhidlərinin xatirəsi dərin ehtiramla yad edilib.**





Komitə sədri Bahar Muradova qan yaddaşımızda silinməz iz qoyan Yanvar hadisələrinin tariximizin faciəli, eyni zamanda, şərəfli səhifəsi olduğunu qeyd edib. O, sovet imperiyasının irimiqyaslı cəza aksiyasının xalqımızın yurd sevgisini, haqq mübarizəsini susdura bilmədiyini vurğulayıb.

Mərasimdə ümummilli lider Heydər Əliyevin hadisələrdən dərhal sonra bütün dünyaya səs salan müraciəti ilə sovet rəhbərliyinin öz vətəndaşına qarşı ordudan istifadə etməsini, insanlıq əleyhinə qanlı cinayət törətməsini qəti şəkildə pisləməsi məmnunluq və iftixarla xatırlanıb. Bildirilib ki, ulu öndər Heydər Əliyev ölkəyə qayıdandan sonra onun rəhbərliyi ilə Azərbaycanın müstəqillik əldə etməsi, bu mübarizənin faciəli hadisələrinə siyasi qiymət verilməsi istiqamətində tarixi addımlar atılıb.

Qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi ilə Qarabağ münaqişəsi ilə başlamış qanlı toqquşma və savaşlarda həlak olanların intiqamı alındı, bu tarixi mübarizədə mərhumiyyətlərlə üzləşən milyonlarla insanın əzablarına son qoyuldu.

Bildirilib ki, tarixinin keşməkeşli dönəmlərindən hər zaman üzüağ çıxan, şərəfli tarixə malik dövlətin nümayəndələri kimi yaşadığımız faciələri unutmamalıyıq. Ötən 35 ildə igid oğulların qanı ilə yazılmış Vətənə xidmətin hünər və şərəf salnaməsini isə bütün həqiqətləri ilə gənc nəsillərə çatdırmalıyıq.

*Z.HÜSEYNOVA*
*XQ*

**...19 yanvar 1990-cı il. Saat 22.00–23.00 arası. Azərbaycan KP MK-nın binası önündəki mitinqdə bizi avtobuslara mindirib "sovet ordusunun Bakıya daxil olmasının qarşısını almaq üçün" müəyyən edilmiş nöqtələrə–paytaxtın giriş-çıxış yollarına, avtobus və trolleybuslardan qurulmuş barrikada-postlara göndərdilər. Nə baş verdiyindən, bizi qarşıda nəyin gözlədiyindən xəbərsiz idik. Çünki təxminən, 2–3 saat ondan əvvəl televiziyanın enerji bloku partladılmış, AzTV-də televiziya yayımı kəsilmişdi. Nəticədə insanların əksəriyyəti Bakıda fövqəladə vəziyyət rejiminin tətbiqi barədə yalnız səhər saat 05:30-da "Azadlıq" radiosundan və hərbi helikopterlərdən atılmış vərəqələrdən xəbər tuta bildilər.**

# O gecə metro işləməsəydi...



...Hər dəfə metronun "20 Yanvar" stansiyasının üstündəki xatirə abidə-kompleksin önündən keçəndə o gecə baş verənlər kino lenti kimi gözlərim önündə canlanır. Milli-azadlıq hərəkatının, meydan mitinqlərinin iştirakçısı olan Bakı Dövlət Universitetinin dördüncü kurs tələbəsinin SSRİ KQB-sinin o gecə üçün hazırladığı ssenaridən xəbərsiz olması təbii idi.

...Metronun "XI Qızıl Ordu" stansiyasına (sonralar "20 Yanvar" adlandırıldı – red.) gətiriləndən yarım saat sonra "Jiquli"də gələnlər bizə içi benzinlə dolu, fitili qoyulmuş butulkalar payladılar ki, gələn tankları "yandırıb darmadağın edək".

...Qulağımız tankların nəriltisini eşidəndə gecə saat 1-ə 5–10 dəqiqə işləyirdi. Sonra baş verənlər, sadəcə, yuxuya bənzər epizodlardır.

Birinci epizod: tankların gur işıqları altında ətrafa işıqsaçan güllələr səpələnir. İkinci epizod: şam ağaclarının arası ilə Respublika Xəstəxanasının girişinə tərəf qaçan və bu zaman tankların işığına tuş gələn və güllələnən insanlar yerə sərilir. Üçüncü epizod: Biləcəri tərəfdən gələn zirehli texnikadan açılan fasiləsiz atəşdən gizlənmək üçün metronun girişindəki pilləkənlərə enirik. Dördüncü epizod: tanklardan biri işğalçı XI Qızıl ordunun şərəfinə ucaldılmış fəhlə-kəndli-matros abidəsinin önündəki qazona "dırmaşır" və orada dərin şırımlar açaraq geri dönür. Beşinci epizod: əlimizdəki benzin dolu butılkaları yanımızdan keçən tanka arxadan atırıq və bunu görən iki avtomatlı zirehin üstündən yerə enib bizə tərəf atəş açır. Altıncı epizod: Özümüzü çatdırdığımız metronun giriş qapısı bağlıdır və çığır-bağırımızı eşidən xidmətçi qadın bizi içəri buraxır. Yeddinci epizod: metronun tunelinə enib "Memar Əcəmi" istiqamətinə qaçmağa başlayanda arxadan atəş səsləri eşidilir. Sonuncu epizod: Gecənin şokundan hələ tam ayılmamış tələbə səhər tuneldə bulaşmış paltosunu təmizləyəndə onun böyründə pulemyot gülləsinin açdığı iki dəliyə heyrətlə tamaşa edir...

**P.S.** O gecə bizə açılan atəş Azərbaycanın qədərini tarixin axarını dəyişdi. Müstəqilliyimizn təməlinin atıldığı o gecədə metropolitenin özünəməxsus rolunu qeyd etməyə bilmirik. Bakı Metropoliteninin rəhbərliyi qətiyyət nümayiş etdirərək, o gecə qatarların şəhərə kimi işləməsi barədə göstəriş verdi. Həmin gecə, xüsusilə, "XI Qızıl Ordu" ("20 Yanvar"), "Məşədi Əzizbəyov" ("Koroğlu") və "Bakı Soveti"("İçərişəhər") metro stansiyalarına pənah gətirənlərin sayı daha çox olub. Məhz səhərə qədər fasiləsiz çalışan metropoliten faciənin daha böyük miqyas almasına yol vermədi. Çünki metro sərsəri güllələrdən qaçan insanların, yaralıların sığınacağı, yeganə pənah yerinə çevrildi. Bəlkə də o gecə metronun qapıları üzümüzə açılmasaydı, öldürülənlərin sayı minlərlə olardı.

*İ.HƏSƏNQALA*
*XQ*

Yeni film

# "Sədərəkdən Şuşaya" Zəfər yolu

**"Park cinema" nın "Park bulvar" filialında Sədərək döyüşlərinin 35-ci ildönümü münasibətilə "Sədərəkdən Şuşaya" adlı sənədli televiziya filminin təqdimatı keçirilib.**




**Mərasimdə filmin çəkiliş heyəti, media nümayəndələri və başqa qonaqlar iştirak ediblər. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri QSC-nin sədri Sahil Tahirli çıxış edərək deyib:**

– 1990-cı il yanvar hadisələrinə 2 gün qalmış Sədərək rayonu ermənilər tərəfindən intensiv hücumlara məruz qalmışdı. İlk dəqiqələrdən Naxçıvanın bütün rayon və kəndlərindən köməyə gələnlər sinələrini qabağa verərək, düşmən önündə sipər etdilər. Onlardan biri də həmin vaxt Şərur xəstəxanasında tibb bacısı işləmiş Nəzifə Qaybalıyeva idi. O, xəbəri alar-almaz 3 körpə uşağını qoyaraq Sədərək döyüşlərinə yollanır. Həmin dövrdə Nəzifə xanımın Naxçıvan televiziyasına verdiyi müsahibədən sonra 100-lərlə gənc Sədərəyin müdafiəsinə qalxdı. 150 nəfərə qədər qəhrəman Vətən oğlu bu qədim Oğuz-Türk yurdunun müdafiəsində canı və qanından keçərək şəhidlik zirvəsinə ucalmış, Sədərək, eləcə də bütün Naxçıvanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalına imkan verməmişdir.

Ekran işində əsas məqsəd xalqımızın 1990-cı illərdə Sədərək döyüşlərindəki qəhrəmanlığını cəsur bir xanımın timsalında yaşatmaqdır. Həmin döyüşlər xalqımızın qəhrəmanlıq tarixində müstəsna yer tutur. Bu gün də Naxçıvan televiziyasının arxivində qorunan həmin kadrları, eləcə də Nəzifə Qaybalıyevanın tarixi müsahibəsini həyəcansız izləmək mümkün olmur.

Qeyd edək ki, filmin layihə rəhbəri və müəllifi Sahil Tahirli, məsləhətçisi Anar Tahirov, redaktoru Elnarə Heydərova, rejissoru Razim İsmayıllı, operatorları İlqar Məhərrəmov, Ağali Rəhimov, Uğur Bağırov və musiqi tərtibatçısı isə Yaqut Süleymanovadır.

**Tibb bacısı Nəzifə Qaybalıyeva təqdimatdan sonra XQ-yə müsahibə verdi:**

– Sədərək döyüşləri zamanı heç əməlli-başlı silah-sursatımız da yox idi. Ürəyimizin hökmü, əlimizin, qolumuzun gücü ilə vuruşurduq. Amma qələbəyə inamımız sonsuz idi. Erməniləri dayandırmaq üçün əlimizdən gələni edirdik. O vaxt müsahibələrimdən birində dedim: "Sədərək rayonunu azad etməyincə bu torpağı tərk etməyəcəyəm. Namusum və andım olsun, Sədərək azad olunacaq. Evdə hər şeyi qoyub gəlmişəm, amma bu müqəddəs borcumu yerinə yetirmədən geri dönməyəcəyəm."

Bütün bölgələrdən gənclərimiz axışıb gəlmişdi. Onların birliyi və əzmi sayəsində Sədərək alınmaz qalaya çevrildi. Bugünkü azadlığımızda o torpaqlarda şəhid olmuş oğullarımızın şücaəti təməl rolu oynayır. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin!

**Naxçıvan Muxtar Respublikasının Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin Şərur rayon təşkilatının sədri Eldəniz Əliyev isə dedi:**

– Özüm də müharibə iştirakçısıyam. 17 may 1990-cı ildən Ermənilərin Sədərəyə ilk dəfə hücum etdiyi dövrlərdən döyüşdə Nəzifə xanımla birgə mən də iştirak etmişəm. Vətən borcumuzu təmənnasız olaraq yerinə yetirmişik. Bu gün qürur hissi keçirirəm ki, işğal olunmuş torpaqlarımız qarı düşməndən azad olunub. Şükürlər olsun ki, bu günləri görmək və azad, firavan ölkədə yaşamaq bizə də nəsib olub.

*Fidan SALMANOVA*
*XQ*

**Heç kim unudulmur, heç nə yaddan çıxmır**

# Qanla yazılmış şərəfli tarix

**20 Yanvar şəhidlərinin xatirəsi Azərbaycandan kənarda da anılır. 35 il əvvəl SSRİ rəhbərliyinin Bakıda törətdiyi qanllı cinayətə biganə qalmayan beynəlxalq təşkilatlar, siyasi liderlər özlərinin etiraz səslərini ucaldırlar. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız, həmişə olduğu kimi, şəhidlərimizin ruhunu dərin ehtiram hissi ilə yad edirlər.**

## Vaşinqton



ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun həmsədrləri, Nümayəndələr Palatasında Tenessi ştatını təmsil edən Demokratlar Partiyasının üzvü Stiv Kohen və Alabama ştatını təmsil edən Respublikaçılar Partiyasının üzvü Robert Aderholt 20 Yanvar Ümumxalq Hüzn Gününün 35-ci ildönümü ilə bağlı bəyanatlarla çıxış ediblər. Bəyanatda 20 Yanvar faciəsindən bəhs edən konqres üzvü S.Kohen Azərbaycan tarixində ən faciəvi hadisələrdən biri olan "Qara Yanvar" gecəsində, təxminən, iyirmi altı min sovet qoşununun paytaxt Bakıya tanklar və zirehli avtomobillərlə hücum etdiyini, yaşlılar və qadınlar da daxil olmaqla günahsız insanlara və dinc etirazçılara atəş açdığını bildirib. 20 Yanvar şəhidlərinin ailələrinə başsağlığı verən S.Kohen ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupun həmsədri kimi həmkarlarına Azərbaycanın müstəqilliyi yolunda canlarını qurban verənləri tanımağa çağırış edib. Bəyanatında 20 Yanvar faciəsindən bəhs edən konqres üzvü R.Aderholt dost və tərəfdaş olan Azərbaycanda "Qara Yanvar"ın 35-ci ildönümünün anıldığını bildirib.

## London



Böyük Britaniya parlamentində qanunverici sənəd statusunda olan 644 nömrəli erkən gündəlik təklifi təqdim edilib. Təklif deputat Bob Bləkmen tərəfindən irəli sürülüb və 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qırğının 35-ci ildönümünün xatırlanmasını hədəfləyir. Vurğulanır ki, Bakıya hərbi müdaxilə Azərbaycanın müstəqilliyi uğrunda xalq hərəkatına cavab olaraq həyata keçirilib və nəticədə, təxminən, 150 dinc sakin həlak olub. Bu qanunverici sənəd Böyük Britaniya Parlamentinin üzvlərini həmin faciəvi günün qurbanlarının xatirəsini anmağa və bu tarixi hadisələri yadda saxlamağa çağırır. Deputat Bob Bləkmen təklifin mətnində hadisələrin əhəmiyyətini vurğulayaraq xalqların azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin yaddaşlarda qalmasının vacibliyini qeyd edib. Məlumat olaraq bildirək ki, erkən gündəlik təkliflər Böyük Britaniya Parlamentində müəyyən məsələlərə diqqət çəkmək və müzakirələrə başlamaq məqsədilə təqdim edilən rəsmi qanunverici sənədlərdən biridir.

## Tbilisi



"Azərbaycan Evi"nin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Diasporuna Dəstək Fondunun (ADDF) dəstəyi ilə Gürcüstan paytaxtında 20 Yanvar və 9 Aprel faciələrinə həsr olunmuş "Milli Dirəniş və Azadlığa Gedən Yol" adlı foto-sərgi və anım tədbiri keçirilib. Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndəsi Cavid Məhərrəmov, Türkiyənin Gürcüstandakı səfirliyinin nümayəndəsi Uğur Tahlan, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Faiq Nəbiyev, Marneuli Bələdiyyəsinin struktur bölmələrinin rəhbərləri və üzvləri, TİKA-nın Gürcüstan nümayəndəliyinin baş direktoru Zeynəb Bayraq, Türkiyənin "MAARİF" Məktəblərinin Gürcüstan nümayəndəliyinin baş direktoru Faruk Təkşen,



eləcə də ziyalılar, elm adamları və gənclər iştirak ediblər.

20 Yanvar və 9 Aprel faciələrinə həsr olunmuş foto-sərgi ilə tanışlıqdan sonra tədbir hər iki faciədə, eləcə də Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə davam edib. "Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov çıxışında bildirib ki, sovet ittifaqının ali və hərbi rəhbərliyi 20 Yanvar və 9 Aprel faciələrini törətməklə Azərbaycan və Gürcüstan xalqlarının azadlıq və müstəqillik arzularını boğmaq üçün Bakı və Tbilisiyə ordu yeridərək günahsız insanları qətlə yetiriblər. O qeyd edib ki, bu faciələr xalqlarımızın qanla yazılmış şərəfli tarixidir.

## İqdır



"Qanlı Yanvar cinayətini törədənlərin məsuliyyətə cəlbetmə müddəti yoxdur". Bu sözləri İqdırdakı "Azərbaycan Evi"nin rəhbəri, Türkiyə–Azərbaycan Cəmiyyətləri Federasiyasının nümayəndəsi Serdar Ünsal bildirib.

Çıxışında qanlı yanvar günlərində Azərbaycan xalqının qəhrəmanlıq nümayiş etdirdiyini, azadlıq və müstəqillik uğrunda mübarizə apardığını vurğulayan S.Ünsal azərbaycanlıların SSRİ rəhbərliyinin ədalətsizliyinə, qərəzliliyinə dözmək istəmədiklərindən danışıb. O vurğulayıb ki, informasiya blokadasını ilk yaran ümummilli lider Heydər Əliyev olub: "Onun bəyanatları sayəsində bütün dünya SSRİ rəhbərliyinin törətdiyi bu dəhşətli dövlət terroru aktından xəbər tutdu. O vaxt Moskvada yaşayan Heydər Əliyev faciədən dərhal sonra, yanvarın 21-də ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalqı ilə həmrəylik nümayiş etdirdi. O, qanuna, demokratiya və humanizm prinsiplərinə zidd hərəkətləri qətiyyətlə pisləyib". Daha sonra qeyd edib ki, sovet rəhbərliyindəki separatizmin himayədarları Azərbaycan xalqını qorxudaraq susmağa məcbur edə bilmədilər. Bu zaman, o, Məmməd Əmin Rəsulzadənin sözlərini xatırladıb: "Bir kərə yüksələn bayraq, bir daha enməz!".

Çıxışının sonunda S.Ünsal vurğulayıb ki, 20 Yanvar hadisəsi güclü və qüdrətli Azərbaycana – Cənubi Qafqazın tanınmış liderinə müstəqillik yolunu açdı və onun "sovet keçmişi" birdəfəlik qapanmış oldu: "Qanlı yanvar sovet hakimiyyətinin tarixində qara ləkədir. Bu qətliamda iştirak edənlər cəzalandırılmalıdır".

## Daşkənd

Azərbaycanın Özbəkistandakı səfirliyi Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə birgə 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı anım mərasimi keçirib.

Tədbirdə səfirliyimizin və Mədəniyyət Mərkəzinin əməkdaşları, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, diasporumuzun nümayəndələri, jurnalistlər iştirak ediblər.

Əvvəl ulu öndər Heydər Əliyevin Mədəniyyət Mərkəzinin qarşısındakı abidəsi önünə və şəhidlər bağına çiçək dəstələri qoyulub.

Mərasim iştirakçıları 20 Yanvar faciəsi, torpaqlarımızın işğaldan azad olunması ilə bağlı kitab sərgisinə, həmçinin fotostendə baxıblar.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Mədəniyyət Mərkəzinin əməkdaşı Yusif Məmmədov tədbiri açaraq sözü Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyevə verib.

H. Quliyev 20 Yanvar faciəsinin yaranma səbəbləri haqqında məlumat verib, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı apardığı ayrı-seçkilik siyasətindən danışıb. Bildirib ki, arasında qocalar, qadınlar və uşaqlar da olmaqla dinc sakinlər güllələndikdən sonra – yanvarın 20-də səhər tezdən Bakıda fövqəladə vəziyyət elan olunması ilə əlaqədar Mixail Qorbaçovun fərmanı oxunub.

H.Quliyev deyib ki, 20 Yanvar faciəsindən bir gün sonra o vaxt Moskvada yaşayan ulu öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək mətbuat konfransı keçirib və keçmiş SSRİ rəhbərlərini ittiham edib.

Səfir qeyd edib ki, xalqımızın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdan Heydər Əliyevin qətiyyəti sayəsində faciəyə siyasi qiymət verilib.

H.Quliyev əlavə edib ki, 1990-cı il yanvarın 20-də Azərbaycan xalqı böyük faciədən sonra daha da mətinləşdi, Vətənə sədaqətini, müstəqillik uğrunda mübarizliyini bütün dünyaya sübut etdi. 20 Yanvar hadisələrinin Azərbaycanın müasir tarixində dönüş nöqtəsi olduğunu deyən diplomat, bu günün bütün dünya azərbaycanlıları tərəfindən əziz tutulduğunu da vurğulayıb.

Özbəkistan Ali Məclisi Senatının üzvü Husan Ermatov deyib ki, 20 Yanvar faciəsi artıq Azərbaycan xalqının tarixində qəhrəmanlıq salnaməsi kimi iz buraxıb. Şəhidlər Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canlarını veriblər, bu isə əsl qəhrəmanlıqdır.

Sonra "Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov, Daşkənd Şəhər Şurasının deputatı Cəmilə Şermuxammedova, alim və tərcüməçi Babaxan Şərif və başqaları sovet ordusunun Bakıda törətdiyi vəhşiliklər haqqında danışıb, bunun beynəlxalq hüquq normalarına zidd olduğunu söyləyib, başda M. Qorbaçov olmaqla keçmiş SSRİ rəhbərliyini ittiham ediblər.

Sonda Mədəniyyət Mərkəzinin nəzdindəki Azərbaycan dili kursunun şagirdləri 20 Yanvar faciəsinə dair şeirlər söyləyiblər.

*Hazırladılar:*
***İ.BƏDİRXANLI,***
***Qulu KƏNGƏRLİ***
***XQ***

# Mixail Qorbaçov dinc insanların qatilidir

## *Sovet diktatorunun qanlı əməlləri Nobel Sülh Mükafatına ləkədir*

**Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri, ictimai fəalları, 20 Yanvar şəhidlərinin ailə üzvləri, 20 Yanvar veteranları Norveç Nobel Komitəsinin sədri Vörgen Frydnesə və qurumun üzvləri Asle Tojeyə, Anne Engerə, Kristin Clemetə, Gry Larsenə açıq məktub ünvanlayıblar.**



100 imza ilə rəsmiləşdirilmiş-Müraciətdə Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri, 20 Yanvar şəhidlərinin ailə üzvləri və 20 Yanvar veteranları, ictimai fəallar Sizə 1990-cı ilin oktyabrında Norveç Nobel Komitəsi tərəfindən Nobel Sülh Mükafatı ilə təltif olunmuş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun Nobel sülh mükafatına layiq olmadığı söylənir: "Mixail Qorbaçovun hələ də Nobel Sülh Mükafatı laureatı adını

Müraciətin davamında bildirilir ki, 20 Yanvar faciəsini törədən cinayətkarların ədalət mühakiməsinə cəlb olunması üçün kifayət qədər hüquqi əsaslar mövcuddur: "Bu hadisə hər şeydən əvvəl BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlərin, konvensiyaların tələblərinin pozulması faktıdır. 20 Yanvar faciəsi bəşəriyyət əleyhinə cinayətdir, bu hadisə zamanı dinc insanlar




daşıması bu mükafatın tarixində ən böyük ədalətsizlikdir. Sizdən bu qara ləkəni təmizləməyi, Azərbaycan xalqına qarşı yol verilmiş haqsızlığı aradan qaldırmağı, Mixail Qorbaçovun həmin mükafatdan məhrum edilməsini xahiş edirik".

Məktubda qeyd edilir ki, Azərbaycan xalqı hər il 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilməsi, dinc əhalinin ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutulması nəticəsində, ümumilikdə, 150 nəfərin kütləvi şəkildə qətlə yetirilməsinin ildönümünü qeyd edir, cəllad Mixail Qorbaçovu lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini ifadə edir: "Mixail Qorbaçov Bakıya, dinc əhaliyə qarşı qoşun yeridilməsi əmrini şəxsən verib və kütləvi qətllərə görə birbaşa məsuliyyət daşıyır. Bu cinayətin qanlı izi silinməzdir".

qətlə yetirilib, yaralanıb, oğurlanıb, işgəncələrə məruz qalıb. Bütöv bir xalqa qarşı tarixi cinayət törədilib".

Sənəddə böyük ağrı hissi ilə deyilir ki, məhz bu qırğından sonra Norveç Nobel Komitəsi tərəfindən əlləri Azərbaycan xalqının qanına batmış Mixail Qorbaçovun Nobel Sülh Mükafatı ilə təltif edilməsi bizim üçün 20 Yanvar kədəri qədər əzablıdır: "Nobel qardaşları Azərbaycan tarixində müstəsna iz buraxıb. Lakin təəssüf edirik ki, həyatının ən vacib hissələri Bakıdakı uğurları ilə sıx bağlı olan Nobelin arzusu olan mükafatlar Azərbaycan xalqının qanını axıtmış Mixail Qorbaçova verilib. Mixail Qorbaçovu mükafatından məhrum etmək qərarınız dünya ictimaiyyətinin ədalətə və Nobel Sülh Mükafatının mənəvi nüfuzuna inamını gücləndirərdi. Buna ciddi ehtiyac var".

***XQ***

**Redaksiyadan:** Xatırladaq ki, keçmiş sovet imperiyasının sonuncu rəhbəri Mixail Qorbaçov Türkiyəyə səfəri zamanı İstanbulda mediaya bildirmişdi: "Bakıda fövqəladə vəziyyət elan etmək və şəhərə qoşun yeritmək mənim ən böyük siyasi səhvimdir".

Qanlı diktator xatirələrində də Bakı qırğınını törətdiyindən peşman olduğunu daha geniş etiraf etmişdi: "Bu faciəli hadisədən dərs götürdüm. Hakimiyyət ekstremal situasiyada güc tətbiqindən imtina edə bilməz. Ancaq bu aksiya mütləq olaraq əsaslandırılmalı və çox sərt tədbirlərlə bağlı addım məhdudlaşdırılmalıdır. Problemin həlli yalnız siyasi yolla tapılmalıdır".

Xarırladaq ki, ümummili lider Heydər Əliyev M. Qorbaçovun uzun illər sonra gəldiyi qənaəti  Bakı qırğınının səhəri gün Moskvada Azərbaycan Nümayəndəliyində bütün dünyaya bəyan etmişdi.

# Tarix unutmayır qəhrəmanlığı

*Bölgələrdə 20 Yanvar faciəsinin 35-ci ildönümü hüzn və ehtiramla qeyd edilir*

## Gəncə

**AMEA-nın Gəncə Bölməsində "20 Yanvar müstəqilliyimiz uğrunda mübarizənin təməl daşıdır" mövzusunda "dəyirmi masa" görüşü təşkil olunub.**



Faciənin 35-ci ildönümünə həsr edilmiş mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Vətən torpaqları uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin anılması ilə başlayıb. Sonra 1990-cı ilin Qanlı Yanvar hadisələrinə həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev açıb. O, xalqımızın azadlıq əzmini boğmaq məqsədilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dağılmaqda olan Sovet İttifaqının ordu birləşmələrinin paytaxtımıza yeridilməsi ilə yaşanan qanlı hadisələri tariximizin faciəvi, eyni zamanda, milli birliyimizin qürurverici anı kimi dəyərləndirib. Natiq 20 Yanvar hadisələrinin əsl siyasi qiymətinin, eləcə də həmin faciənin qurbanlarına şəhidlik statusu verilməsinin Ulu öndər tərəfindən həyata keçirildiyini xatırladaraq, əlavə edib ki, müasir dövrümüzdə də Ulu öndərin layiqli davamçısı, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sınaqlardan layiqincə çıxıb. Vətənin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə xüsusi diqqət və qayğı göstərilir.

Sonra AMEA-nın əməkdaşlarının məruzələri dinlənilib. AMEA-nın Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutundan Samirə Qasımova "20 Yanvar – müstəqilliyə yol açan şərəf və qəhrəmanlıq salnaməsi", Nərgiz Rəsulova "Qəhrəman şəhərlərin bir gecədə yazılan qəhrəmanlıq dastanı", Beynəlxalq Əlaqələr şöbəsindən Simuzər Qafarlı "20 Yanvar hadisələrinin beynəlxalq hüquq müstəvisində analizi", Nizami Gəncəvi Mərkəzindən Əlimuxtar Muxtarov "Azərbaycan ədəbiyyatında 20 Yanvar mövzusu" və İctimaiyyətlə əlaqələr şöbəsindən Zakir Muradov "20 Yanvar ərəfəsində Gəncə və bölgədə baş verən hadisələr" mövzularında çıxış ediblər. Məruzələr ətrafında müzakirələr aparılıb.

## Sumqayıt



**XX əsrin ən dəhşətli hadisələrindən biri olan 20 Yanvar faciəsinin 35-ci ildönümü münasibətilə Sumqayıt Dövlət Universitetində (SDU) toplantı keçirilib.**

İştirakçılar əvvəlcə universitetin həyətində ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olmuş məzun şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə güllər düzüblər. Sonra universitetin foyesində qurulan fotosərgiyə baxış keçirilib.

Akt zalında davam edən tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Faciənin mahiyyəti və onu doğuran səbəblər barədə çıxış edən rektor Rüfət Əzizov 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə baş vermiş hadisələri xatırladaraq, bunları Azərbaycanın suverenliyi və azadlığı uğrunda mübarizə aparan dinc sakinlərə qarşı törədilən qanlı cinayət adlandırıb. O, 20 Yanvar hadisələrinin Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı olduğunu və bu faciəyə ilk siyasi-hüquqi qiyməti ümummilli lider Heydər Əliyevin verdiyini xüsusi vurğulayıb. Rüfət Əzizov Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı zəfərlə üçrəngli bayrağımızın bu gün Qarabağda, Şuşada, müstəqil və güclü ölkəmizin hər yerində dalğalandığını diqqətə çatdırıb.

Sonra 20 Yanvar faciəsindən bəhs edən videoçarx nümayiş olunub. Toplantıda Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri, professor Şirxan Səlimov "20 Yanvar faciəsi Azərbaycan xalqına və insanlığa qarşı törədilmiş dəhşətli cinayətdir" mövzusunda məruzə ilə çıxış edib. Məruzə ətrafında həmin kafedranın müəllimi Ceyhun Qasımbəyli "20 Yanvar müstəqillik uğrunda mübarizənin zirvəsidir", Fəlsəfə, sosiologiya və politologiya kafedrasının baş müəllimi Zahid Bünyadov "Ümummilli lider Heydər Əliyevin 20 Yanvar hadisələrinə verdiyi siyasi qiymət" mövzularında çıxışlar edərək Qanlı Yanvar hadisələrinə gətirib çıxaran proseslərdən və xalqın qəhrəmanlığından danışıblar.

## Mingəçevir




**"Nur şəhəri"nin ayrı-ayrı təşkilatlarında 20 Yanvar faciəsinin 35-ci ildönümü şəhid ruhlarına ehtiramla qeyd olunub.**

"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mingəçevir şöbəsinin kollektivi faciənin 35-ci ildönümü ilə bağlı toplantıya təbii kədər və qürur hissi ilə toplaşıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Natiqlər Azərbaycanın müstəqillik əldə etməsində bu hadisələrin önəmindən danışıb, şəhidklər haqqında xatirələrini söyləyib, imperiya canilərini lənətləyiblər.

Mingəçevir Dövlət Universitetində (MDU) 20 Yanvar hadisələrinin 35-ci ildönümünə həsr olunmuş "Azərbaycan dövlətinin müstəqilliyində və xalqın birliyində yaşayan şərəf və ölməzlik tarixi: 20 Yanvar" mövzusunda elmi konfrans keçirilib.

Konfransda MDU-nun professor-müəllim heyəti, tələbə və magistrantlar iştirak ediblər. Universitetin rektoru vəzifəsini icra edən, tədris məsələləri üzrə prorektor Üzeyir Zeynalov 20 Yanvar faciəsinin Azərbaycanın müstəqillik mübarizəsi tarixindəki əhəmiyyətini vurğulayıb və bu hadisələrin milli yaddaşın ayrılmaz hissəsi olduğunu qeyd edib. Açılış nitqindən sonra 20 Yanvar hadisələrinə aid videoçarx nümayiş etdirilib. Konfransda 20 Yanvar hadisələrinin tarixi və ədəbi əhəmiyyəti ilə bağlı bir sıra maraqlı məruzələr təqdim edilib.

Şəhər Mərkəzi Xəstəxanasında şəhid ruhları sükutla yad edildikdən sonra 20 Yanvar hadisələrinin xalqımızın müstəqillik mübarizəsindəki tarixi roluna işıq salınıb. Nümayiş etdirilən videokadrlar hər kəsdə dərin emosional hisslər yaradıb.

Ələmdar Quliyev adına Mingəçevir Peşə Məktəbində də 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilmişdir.

## Lənkəran



**Lənkəran Dövlət Universitetində (LDU) 20 Yanvar hadisələrinin 35-ci ildönümünə həsr olunmuş tədbir "Qanlı yanvar – əbədi xatirə" adlanırdı.**

Əvvəlcə faciəni əks etdirən videoçarx nümayiş etdirilib.

Sonra LDU-nun "Tarix və onun tədrisi metodikası kafedrası"nın müdiri, dosent Kamal Mahmudov "20 Yanvar tariximizin qanlı və şanlı səhifəsidir" mövzusunda məruzə edib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyev bu faciəni hər şeydən əvvəl Azərbaycana qarşı törədilmiş bəşəri cinayət adlandırıb. 20 Yanvar hadisəsi ilə bağlı Ümummilli liderin mövqeyi, açıqlamaları, atdığı addımlar 35 il öncə baş vermiş mürəkkəb və qanlı hadisələrin mahiyyətini anlamaqda, onun ibrət dərslərini öyrənməkdə xalqımız üçün qiymətli mənəvi qaynaqdır.

Universitetin "Tarix və onun tədrisi metodikası" kafedrasının baş müəllimi Aslan İbrahimov 20 Yanvar və Lənkəran", LDU TGT-nın sədri Sara İbadzadə "Azadlıq yolu: 20 Yanvar şəhidlərinin əbədi xatirəsi" mövzularında çıxış ediblər.

Tədbirdə LDU tələbələrinin ifasında 20 Yanvar şəhidlərindən biri olan məktəbli Larisa Məmmədovanın xatirəsinə həsr olunmuş səhnəcik təqdim edilib, ədəbi-bədii kompozisiya nümayiş olunub.

Lənkəranda "20 Yanvar, Danışan talelər" adlı film də nümayiş olunub.

Ekran əsərinin təqdimatı Lənkəran–Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollecdə reallaşdırılıb. Filmin həyəcan doğuran səhnələri, hadisə şahidlərinin xatirələri, imperiya qüvvələrinin törətdiyi vəhşiliklər barədə hekayələr 20 Yanvar hadisələrinin heç zaman unudulmayacağından soraq verib.

## Masallı



**Rayonun təhsil, səhiyyə, mədəniyyət və digər dövlət orqanlarında 20 Yanvar faciəsinin 35-ci ildönümü bir-birindən maraqlı silsilə tədbirlərlə qeyd olunur.**

Mərasimlərdə xüsusi vurğulanıb ki, 20 Yanvar faciəsi ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü naminə dəmir yumruq kimi birləşən yenilməz xalqımızın qəhrəmanlıq salnaməsidir. İmperiya ordusu təkcə paytaxt Bakını qan gölünə qərq etməklə kifayətlənməyərək, Sumqayıt yolunda, Neftçala və Lənkəranda da dinc əhaliyə atəş açıb, yüzlərlə adamı öldürüb, yaralayıb, obyektlərə ciddi ziyan vurub.

Mərasimlərdə çıxış edən natiqlər bildiriblər ki, xalqımız faciə qurbanlarının əziz xatirəsini ehtiramla yad edir və hər il əliyalın qəhrəmanların qanı-canı bahasına başa gələn 20 Yanvar faciəsinə həsr olunmuş silsilə tədbirlər təşkil olunur. Tarixin qanlı səhifələrinin unudulmaması, yeni nəsillərin bu barədə ətraflı məlumatlandırılması baxımından belə mərasimlərin önəmi vurğulanıb.

## Qazax



**Rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Qazax Rayon Təşkilatının birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş toplantı "20 Yanvar – Müstəqilliyə gedən yolun başlanğıcıdır" mövzusunu əhatə edib.**

İştirkçılar əvvəlcə YAP rayon təşkilatının inzibati binasında ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla anıblar. Təşkilatın iclas zalında davam edən tədbirdə şəhidlərimizin ruhlarına ehtiram ifadə olunub.

Toplantıda bildirilib ki, 20 Yanvar faciəsi müdrik xalqımız üçün təkcə böyük bir faciə deyil, həm də şərəfli bir səhifədir, müstəqillik və istiqlal uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvə nöqtəsidir. Ulu öndər Heydər Əliyevin bu faciənin dünya ictimaiyyətinə çatdırılmasında, ona hüquqi-siyasi qiymət verilməsində misilsiz xidmətlərindən, möhtərəm Prezident İlham Əliyev tərəfindən bu gün faciə, soyqırımı, qətliam qurbanlarına, müqəddəs şəhidlərə göstərilən ehtiramdan, şəhid ailələrinə olan diqqət və qayğıdan ətraflı söz açılıb. Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun qazandığı Qələbənin sayəsində bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının ruhlarının rahatlıq tapdığı bildirilib.

Sonda Qazax şəhər Səməd Vurğun adına 2 nömrəli tam orta məktəbin şagirdləri 20 Yanvar faciəsinə həsr olunmuş müxtəlif ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

## Hacıqabul

**Rayon Mədəniyyət Mərkəzində rayon mədəniyyət işçilərinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş "Azadlığa gedən yolun zirvəsi" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.**



Mərasimdə Hacıqabul Rayon İcra Hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri iştirak ediblər. Əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra rayon mədəniyyət işçilərinin ifasında qəhrəmanlıq tariximizin şanlı səhifəsi olan 20 Yanvar faciəsinə həsr olunmuş maraqlı ədəbi-bədii kompozisiya nümayiş olunub.

*Hazırladılar:*
*Əli NƏCƏFXANLI,*
*Hamlet QASIMOV,*
*İlqar HƏSƏNOV*
*XQ*

Naxçıvan

# Naxçıvan Qanlı Yanvar günlərində

## *Talenin ümidinə qalmış diyar erməni işğalından necə xilas olmuşdu?*

**Naxçıvan Muxtar Respublikasının Sədərək rayonundan 8–10 kilometr məsafədə yerləşən Kərki kəndi Qarabağ münaqişəsi başlanandan sonra Ermənistanın işğalına ilk məruz qalan yurd yerlərindəndir. O zamanlar Şərur rayonunun, 1990-cı ildən sonra isə yeni yaradılan Sədərək rayonunun inzibati ərazi dairəsinə daxil olan bu kənd mənfur qonşularımızın işğalçılıq siyasətinin ilk hədəflərindən biri olmuşdur.**



Hadisələrin xronologiyasına nəzər salsaq görərik ki, Kərkinin işğalı Bakıdakı 20 Yanvar faciəsinin, ermənilərin Sədərəyə silahlı basqınlarının, dəhşətli Xocalı faciəsinin, eləcə də işğal olunan rayonlarımızın acı taleyinin başlanğıcı olmuşdur. Əvvəlcə ermənilər Sədərəkdən Kərkiyə gedən avtomobil yolunu kəsdiyindən gecələr Sədərəkdən Kərkiyə yük maşını ilə, bəzən də piyada 30–40 könüllü müdafiəçi gedir, gecəni səhərədək kərkililərlə birlikdə kəndin keşiyini çəkirdilər. Sonralar həmin könüllülərə muxtar respublikanın digər bölgələrindən gələnlər də qoşuldular.

Çox keçmədi ki, Kərki ilə Sədərək arasında əlaqə tamamilə kəsildi, Kərkinin müdafiəçilərinə ərzaq və silah-sursat çatdırmaq da problemə çevrildi. Lakin bu kəndin müdafiəçiləri qəhrəmanlıqla vuruşub son ana qədər düşmənə ciddi müqavimət göstərdilər. Son günə qədər kəndi tərk etməyən kərkililər 1990-cı il yanvarın 15-də rus hərbçilərinin təkidli tələbi ilə axşam saat 6-7 radələrində doğma yurdu tərk etmək məcburiyyətində qaldılar.




Yanvarın 18-də isə 3-ü polis əməkdaşı olmaqla, kəndi müdafiə edən 30-dək sakin, artıq silah-sursatları bitdiyindən Kərkini tamamilə tərk etməyə məcbur oldular. Beləliklə, SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Sədərək rayonunun Kərki kəndi ermənilər tərəfindən işğal olundu və hər qarışında bir neçə minilliyin tarixini yaşadan qədim Oğuz yurdu beləcə ermənilərin əlinə keçdi.

Kərkinin kiçik bir ada şəklində Naxçıvandan "aralı" düşməsinin səbəblərini isə ermənilərin sovet dövründə xalqımıza qarşı apardığı çirkin siyasətin nəticələrində axtarmaq lazımdır. Məsələn, Zaqafqaziya SFSR MİK Rəyasət heyətinin 18 fevral 1929-cu il tarixli qərarından aydın olur ki, Azərbaycanın Naxçıvan MSSR ərazisindən 657 kvadratkilometr və ya 65,7 min hektar torpaq sahəsi Ermənistana verilmişdir. 9 kəndin (Kərçivan, Qurdqulaq, Goradiz, Ağbin, Ağxaç, Almalı, Sultanbəy, İtqıran və Kilit kəndinin bir hissəsi) Ermənistan ərazisinə qatılması yerli əhali tərəfindən etirazla qarşılansa da, əhali həmin əraziləri tərk etməyə məcbur edilmiş və bu torpaqlar saxta yolla Ermənistan ərazisinə çevrilmişdir.

Kərki kəndinə gəldikdə, yenə də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 5 may 1938-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin ətrafındakı torpaqların xeyli hissəsi Ermənistana verilmişdir. Beləliklə, kənd Azərbaycandan (Naxçıvan MR ərazisindən) tam təcrid olunaraq ada şəklinə düşmüşdür. Yerli əhali arasında narazılıqların yaranmasının qarşısını almaq, həmçinin sakinlərin hamısının azərbaycanlı olması nəzərə alınaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində yerləşmiş ermənilər təkcə Kərki kəndinin yerləşdiyi çox kiçik bir ərazini Azərbaycanın tərkibində saxlamaqla kənd ətrafındakı 900 hektardan artıq bir ərazini saxta sənədlərlə rəsmiləşdirmişdilər. Sədərəklə Kərkini dağ yolu birləşdirdiyindən ermənilərin növbəti hiyləsi Kərki ərazisindən yol salmaq olmuşdur.

Bu faktlar Naxçıvanın yaradıcı insanlarının da fəaliyyətində öz əksini tapmış, tarixi hadisələr qələmə alınaraq arxivləşdirilmişdir. Əslən Sədərək rayonundan olan mərhum tarixçi alim Vaqif Məmmədov "Kərkinin taleyi" adlı kitabında ermənilərin məkrli niyyətindən söz açaraq bildirib: "Əsas məqsəd Sisyan–Cermuk yoluna kəsə yol qazanmaq olursa, digər tərəfdən Kərkini tədricən yerli əhalidən təmizləmək, "Kərkinin düzü" adlı sahəni ələ keçirmək və Kərki ilə Sədərək arasında əlaqələri kəsmək olur. Beləliklə, Arazdəyən–Cermuk şosesi Kərkinin düzü adlanan ərazidən salınır. Kərki Sədərək üçün böyük dayaq sayılırdı. Sədərəkdən yaylağa gedən 40-dan artıq obanın adamlarının, sürüsünün yolu Kərkidən, Kərkinin düzündən keçərdi."

Müəlif daha sonra qeyd edib ki, 1960-cı illərin əvvəllərində İrəvandakı Eçmiədzin kilsəsinin keşişinin qardaşı oğlu, erməni şairi Paruyr Sevak Kərki düzü adlı ərazidə maşın qəzasında ölür. Fürsəti dəyərləndirən ermənilər qəza yerində xatirə kimi rəmzi qəbir düzəldirlər: "15–20 il ərzində həmin daş lövhə böyük bir səhani "işğal" edir, kiçik qonaq evi, restoran, otel, nəhayət, qəsəbə salınır – Sevakavan. Sonradan bu qəsəbə Kərkini işğal etmək və kərkililəri sıxışdırmaq baxımından ermənilər üçün əhəmiyyətli olur. Ötən əsrin sonlarına doğru məqsədli şəkildə əraziləri zəbt edən ermənilərin növbəti hədəfi Sədərək idi".

1988-ci ildən kəndin keşiyini çəkən kərkililərin köməyinə Şərurdan, Sədərəkdən gələnlərin dəstəyinə baxmayaraq, Kərki illərlə yürüdülən erməni məkrinin qurbanına çevrildi. Ermənilərin niyyəti təkcə Kərkinin işğalı ilə yekunlaşmırdı. Bundan sonra hədəf Azərbaycanın əsas ərazilərindən ayrı düşmüş Naxçıvanın işğalı ilə tamamlanmalı idi. 1989-cu ilin sonlarında ermənilərin Sədərəyə hücumları intensiv olaraq artmağa başlamışdı. Naxçıvan əhalisi isə çox çətin vəziyyətdə, heç kimdən, xüsusilə, mərkəzi hakimiyyətdən heç bir kömək gözləmədən öz başının çarəsinə baxmalı idi.



Məhz belə bir vaxtda Naxçıvan özünün taleyüklü qərarını verməli olur: 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyasında, muxtariyyətin Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq (SSRİ-nin Azərbaycanın və Naxçıvanın suverenliyinin və ərazi bütövlüyünün müdafiə etmək öhdəliklərinə əməl etməməsi və 1921-ci il çoxtərəfli Qars müqaviləsinin şərtləri pozması səbəblərindən) SSRİ-nin tərkibindən ayrılması barədə qərar qəbul edir. Bununla da Naxçıvan MSSR Sovet Sosialist Respublikaları İttifaqından ilk çıxmaq barədə qərar qəbul edən ilk siyasi-inzibati vahid olur.

Bu qərar qəbul edildikdən sonra muxtar respublikanın müstəqilliyinin tanınması üçün dərhal Türkiyə və İrana nümayəndə heyəti göndərilir. Lakin Sovet DTK-sı Türkiyəyə keçmək cəhdinin qarşısını alır. Yanvarın 21-də isə beş nəfərlik nümayəndə heyəti Culfa rayonunun Yaycı kəndindən Araz çayını keçərək İrana adlayır. Çətinliklə Təbrizə çatan naxçıvanlı deputatlar Türkiyənin İrandakı hərbi attaşesilə görüşməyə nail olurlar. Nümayəndə heyəti İranda danışıqlar apardığı zaman muxtar respublikanın "Sovet Naxçıvanı" qəzeti müstəqilliklə bağlı qərarı dərc edir, eyni zamanda, Naxçıvan televiziyası xəbərləri bir neçə əcnəbi dildə verir.

Yanvarın 25-də İrana göndərilən nümayəndə heyəti əliboş geri qayıdır. Amma bütün bunlara baxmayaraq, yanvarın 27-də Moskva və Bakıdan Naxçıvana xüsusi qrup göndərilir və muxtar respublikaya güc tətbiq ediləcəyilə bağlı hədələrlə bu işə son qoyulur. Bəs necə olmuşdu ki, SSRİ kimi nəhəng imperiyanın ən ucqar nöqtəsində kiçik bir muxtar respublika ittifaq tərkibindən çıxmaq istəmiş və bu barədə rəsmi səviyyədə qərar qəbul etmişdi?

Həmin qərarı imzalamış Naxçıvan MSSR Ali Sovetinin ovaxtkı sədri Səkinə Əliyevanın bu hadisədən 8 il sonra dediklərini yenidən yada salaq:

"O günlər biz Naxçıvanı itirmək təhlükəsi ilə üz-üzə qalmışdıq. Ermənilər Ermənistandan sonuncu azərbaycanlını da qovandan sonra bütün təhdid və təxribatları Naxçıvana yönəltmişdilər. Azərbaycanla yerüstü yollar kəsilmiş, bütün sərhədlərdə erməni silahlıları və texnika cəmlənmişdi. Həmin gecə Bakıda nə baş verdiyindən xəbərimiz yox idi. Naxçıvan öz hayında idi. Ermənilərin Sədərəyə güclü hücumu nəticəsində 8 nəfər ölmüş, 30 nəfər yaralanmış, əhali çöllərə tökülmüş, xeyli ev dağıdılmışdı.

Sədərəkdə həlak olmuş 2 uşağın meyiti Naxçıvanın mərkəzi meydanına gətirilmiş, on minlərlə adam hiddətlə tədbir görülməsini, ermənilərin əliyalın naxçıvanlıları qovub İran və Türkiyəyə keçirməsi təhlükəsinin sovuşdurulmasını tələb edirdi. Bakı susurdu, rəhbərlərdən heç birini tapmaq mümkün olmadı".

Bu yerdə bir daha düşünməli olursan ki, Ermənistandan Naxçıvana hücumun qarşısını almalı olan sovet qoşunları nə üçün dinc Bakının üstünə yeridilirdi? Naxçıvandan Bakıya və Moskvaya edilən müraciətlərsə cavabsız qoyulurdu.

Naxçıvan parlamentinin sədri daha sonra bildirmişdi: "Axşam sərhəd məntəqələrindən həyəcanlı xəbərlər gələndə, vəziyyət gərginləşib son həddə çatanda, vilayət partiya komitəsində işıqlar söndürüldü. Öz taleyinə sahiblik etməli olan əhali Ali Sovetin binasına daxil oldu".

Naxçıvan MSSR Ali Sovetinin sədri Bakıdan heç kəslə əlaqə yarada bilmir. Moskvadan isə onu M.Qorbaçovun köməkçisi dinləsə də, əlavə heç bir cavab verilmir. Xalq nümayəndələri ilə məsləhətləşmədən sonra qərara alınır:

"Hamı bildirdi ki, məhv olma təhlükəsi qarşısında səsimizə hay verməyən, ermənilərin Naxçıvanı tutmasına, əslində, göz yuman bir ölkənin tərkibində qalmaq ölümə bərabərdir. Səsimizi dünyaya çatdırmaq, dolayı yolla SSRİ rəhbərliyini də silkələmək üçün Qars müqaviləsinin şərtlərinə istinadən, bütün naxçıvanlıların iradəsini ifadə edən bir qərar hazırladıq. İki saata muxtar respublika Ali Sovetinin əlimiz yetən deputatlarını topladıq. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin Naxçıvandan olan deputatları da iştirak etməklə, gecəyarısı fövqəladə sessiya keçirdik. Yekdilliklə Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması barədə qərar qəbul etdik.



Sessiya qurtaran kimi, gecə saat 4-də yerli teleradio ilə çıxış edib bu qərarı bəyan etdim. Həyəcanlanmış əhali nisbətən sakitləşib evlərinə getdi. Kişilər, rayon rəhbərləri, qeyrətli adamlar isə sərhədlərin möhkəmləndirilməsinə yollandılar... Bu o dəqiqələr imiş ki, Bakı od tutub yanırmış... Biz bunlardan səhərisi gün Türkiyə radiosu ilə xəbər tutmuşduq. Həmin gecə teleradio ilə çıxışım qonşu dövlətlərdə tutulmuş, səsimiz dünyaya çatmışdı".

Səkinə Əliyeva bildirmişdi ki, yanvarın 19-da onun Moskvaya Baş katib M.Qorbaçovun telefonuna vurduğu zəngin xəbəri aprelin 20-də çıxıb. Oradan kimsə zəng vurub soruşub: "Hə, indi Naxçıvanda vəziyyət necədir?"

Yeri gəlmişkən, o zaman şəhidlərin qanı üstündən vəzifə pilləsində irəliləyiş qazanmış Azərbaycanın yeni rəhbərliyi az sonra Moskvanın tələbi ilə "Naxçıvan MSSR-in SSRİ-dən çıxmaq" barədə qərarını "Azərbaycan SSR və SSRİ Konstitusiyalarına zidd sənəd" elan edərək qüvvədən salmışdılar. Amma bu qərar ürəklərdən və tarixdən silinməmişdir.

1996-cı ildə ümummilli lider, müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyev Naxçıvan şəhərində Hüseyn Cavid məqbərəsinin açılış mərasimində o müdhiş gecədə naxçıvanlıların müstəsna bir ayıqlıq və iradə ilə atdıqları cəsarətli addımı yada salaraq demişdi:

"Mən Moskvada olarkən, Azərbaycana qarşı edilən bu cinayətə etiraz səsimi qaldırdım, xalqıma, millətimə həmrəy olduğumu bildirdim və orada olan imkanlarla Azərbaycan xalqının müdafiəsinə çalışdım. Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər. Azərbaycana qarşı edilən cinayətə, təcavüzə görə Naxçıvan Muxtar Respublikasının Sovet İttifaqının tərkibindən çıxması haqqında qərar qəbul ediblər. İndi Sovet İttifaqı dağıdılıb.

O vaxtdan çox illər keçib, çox şeylər unudulub. Sovet İttifaqına mənsub olmuş ölkələr öz müstəqilliklərini əldə ediblər. Ancaq naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovet İttifaqında yeganə bir addım idi. Bu xəbər bütün dünyaya yayıldı ki, Naxçıvan Muxtar Respublikası Sovet İttifaqından çıxmaq barədə qərar qəbul edib. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyinə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi".

35 il bundan əvvəl baş vermiş 20 Yanvar və Naxçıvan hadisələrini müqayisə edərkən ortaya bir çox sual və cavab çıxır. Məlum olur ki, o vaxtkı Naxçıvan MSSR Ali Sovetinin, Azərbaycan SSR paytaxtının amansız bir hərbi təcavüzlə xarici aləmdən təcrid edildiyi saatlarda qəbul etdiyi qərar olmasaydı, köməksiz qalmış muxtar respublika erməni–sovet hərbi qüvvələrinin nəzarətinə keçəcəkdi. Ermənistan SSR-dən sonra soydaşlarımız Naxçıvandan da qaçqın düşəcəkdilər.

Bu taktiki qərar o gecə və sonrakı günlərdə dünyanın nəzərlərini Kremlin xalqımıza qarşı törətdiyi hərbi-siyasi cinayətə, qan dəryasına çevrilən Bakıya, Ermənistandan Naxçıvanın üstünə yeriyən genişmiqyaslı təcavüzkar hücuma yönəltmişdi. Naxçıvan MSSR Ali Sovetinin gözlənilməz qərarı isə ildırım sürəti ilə dünyaya yayılaraq Kremldə böyük əks-səda yaratmış və Ermənistan SSR-dən Naxçıvana hərbi basqın dayandırılmışdı. Sovet İttifaqının mövcudluğunun 70 ilə yaxın bir dövründə ikinci belə dəhşətli siyasi hadisə baş verməmişdi.

O zaman 20 Yanvar qətliamını Moskvada kəskin bəyanatla pisləyən ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışından sonra naxçıvanlıların bu qərarı tədricən gerçəkləşdirilmişdi. Dünya şöhrətli siyasət və dövlət xadiminin rəhbərliyi və dəmir iradəsi ilə 1990-cı il noyabrın 17-də keçirilən Ali Məclisin sessiyasında "Naxçıvan MSSR" ifadəsindən "sovet sosialist" sözləri çıxarılmış, üçrəngli milli bayrağımız ilk dəfə Naxçıvanda yüksəldilmişdi.

Beləliklə, 1990-cı ildə dinc xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsi ilə bağlı hadisələr qəhrəmanlıq və şərəf tariximizə həm də Naxçıvanın erməni işğalına qarşı qətiyyətli direnişi və xilası aktı kimi daxil olmuşdur.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

# QANLA QAZANILMIŞ MİLLİ AZADLIQ

**35 il öncə, yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin güc nümayişi ilə sivil xalqa qarşı işğalçı mövqedən yanaşıldı, amansız qətliam həyata keçirildi. Hərbi əməliyyatlar nəticəsində yüzlərlə dinc sakin qətlə yetirildi, minlərlə insan yaralandı, həbs olundu. 20 Yanvar, eyni zamanda, azadlıq və müstəqillik uğrunda mübarizənin simvoluna çevrildi. O gün Bakının küçələri qana boyandı. 20 Yanvar yalnız faciə günü deyil, həm də xalqımızın mübarizə əzmini alovlandırdı.**



Qanlı Yanvarın hər bir anı zamanla keçmişin kölgələrində qalsa da, onun dərdi və qələbəsi xalqın yaddaşında həmişə qalacaq. Bu faciə azadlıq uğrunda mübarizənin necə şərəfli, necə qəhrəmanlıq dolu bir yol olduğunu göstərir. 20 Yanvar hadisələri Azərbaycanın milli kimliyinin və siyasi mövqeyinin formalaşmasında əsas rol oynadı. Sovet İttifaqının daxili sabitliyi qorumaq iqtidarında olmadığını nümayiş etdirdi. Bu qanlı faciə müstəqil milli şüurun formalaşmasında həlledici rol oynadı.

"Xalq qəzeti" Şəhidlər xiyabanında azadlığımız uğrunda canından keçən igidlərimizin məzarlarını ziyarətə gəlmiş şəhər sakinləri ilə yanaşı, xarici vətəndaşlarla, müvafiq müəssisələrin əməkdaşları, məktəblilərlə həmsöhbət oldu. Onların faciə ilə bağlı fikirlərini oxucuların diqqətinə çatdırırıq.



**Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi Masil Dəmirov dedi ki, 20 Yanvar 1990-cı il Azərbaycanın tarixində azadlıq və müstəqillik uğrunda faciəli mübarizənin simvolu kimi əbədi olaraq qalacaq tarixdir:**

– Həmin gün Qorbaçovun başçılığı ilə Sovet İttifaqının rəhbərliyi beynəlxalq normalara və insan haqlarına zidd olaraq, mərkəzi hökumətin hərəkətlərindən, o cümlədən onun Dağlıq Qarabağdakı ermənilər tərəfindən etnosiyasi münaqişəni həll edə bilməməsinə dair narazılığını bildirən kütləvi etirazları yatırtmaq məqsədi ilə Bakıya qoşun yeritdi. 20 Yanvar faciəsinin səbəblərini anlamaq üçün 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Azərbaycanda və Sovet İttifaqında formalaşmış siyasi konteksti nəzərdən keçirmək lazımdır. Bu vaxta qədər Azərbaycan 1988-ci ildə kəskinləşən Dağlıq Qarabağ münaqişəsi səbəbindən qonşu Ermənistanla münasibətlərdə kəskin böhran yaşayırdı. Bölgədə ermənilər tərəfindən təşkil olunmuş etnik gərginlik çoxsaylı toqquşmalara və zorakılıqlara səbəb olurdu. Ermənilərin artan millətçilik əhvali-ruhiyyəsi vəziyyəti daha da gərginləşdirirdi. Azərbaycanda sovet rəhbərliyinin Qarabağ probleminin həllində siyasi acizliyinə, habelə Qorbaçovun siyasəti və onun "yenidənqurma" kimi islahatlarının yaratdığı iqtisadi və sosial çətinliklərə qarşı kütləvi etirazlar başlandı. 1989-cu ilin sonu və 1990-cı ilin əvvəlində Azərbaycan müstəqillik və özünüidarə tələbi ilə kütləvi nümayişlərlə antisovet hərəkatının mərkəzinə çevrildi. Eyni zamanda, Sovet İttifaqında daxili problemlər getdikcə ağırlaşır, mərkəzi rəhbərlik imperiyanın kənarında istənilən siyasi ifadə cəhdlərini boğmağa çalışırdı. Azərbaycan da digər respublikalar kimi, hakimiyyətin repressiv siyasətinin qurbanı oldu və bu, faciəvi nəticələrə gətirib çıxartdı.

Bakı Dövlət Universitetinin müəllimi Mübariz Göyüşlü bildirdi ki, 20 Yanvar xalqımızın həm yarası, həm də qürurudur. Bu gün azadlığın nə qədər böyük dəyər olduğunu bizə xatırladır. Şəhidlərimizin fədakarlığı yalnız bir xalqın azadlıq istəyinin simvolu deyil, həm də milli ruhun ölməzliyini sübut etdi:

– Hər bir xalq azadlığa gedən yolda tikanlı, çətin və ağır sınaqlarla qarşılaşır, amma məhz bu çətinliklərdən keçərək müstəqilliyə qovuşur. Azərbaycan xalqı üçün bu yolun ən ağrılı və eyni zamanda, ən qürurlu səhifələrindən biri 1990-cı il 20 Yanvar hadisəsidir. Həmin gecə xalqımız azadlıq uğrunda çox qurban verdi, çox gözlər yaşlı qaldı. Amma bu itkilər və ağrılar xalqımızın müstəqillik əzmini boğmaq əvəzinə, onun iradəsini daha da möhkəmləndirdi və Azərbaycan xalqının əzmini bütün dünya gördü. 20 Yanvar 1990-cı il Azərbaycan xalqının yaddaşında tək faciə deyil, həm də qəhrəmanlıq nümunəsi kimi qalmışdır. Həmin gecə Sovet İttifaqının silahlı qoşunları Bakıya daxil olaraq günahsız insanlara divan tutdu, azadlıq səsimizi boğmağa çalışdılar. Lakin bu qanlı hadisə xalqımızın iradəsini qıra bilmədi. Əksinə, həmin gün şəhid olanlar azadlıq mübarizəsinin rəmzinə çevrildi və onların tökülən qanı müstəqilliyin yol xəritəsi oldu. Hər il bu günü ehtiramla yad edərək, şəhidlərimizin xatirəsini əbədiləşdirir və azadlıq uğrunda edilən qurbanların qiymətini dərk edirik.

**Uşaqların təlim-tərbiyəsi ilə məşğul olan pedaqoq Orxan Abişov qeyd etdi ki, qan yaddaşımızı, qürur tariximizi unutmamalı, unutdurmamalıyıq:**

– 20 Yanvar Azərbaycan xalqının tarixində silinməz iz buraxmış bir gündür. Biz müəllimlər bu hadisəni dərslərdə yalnız bir faciə kimi yox, həm də qəhrəmanlıq, mübarizə və əzmkarlıq kimi təqdim edirik. 20 Yanvar hadisəsi Azərbaycan xalqı üçün müstəqilliyin nə qədər qiymətli olduğunu göstərən şəffaf və açıq dərsdir. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 35 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

**Türkiyədən Şəhidlər xiyabanını ziyarətə gəlmiş Gergin ailəsi Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu, dərdimizə şərik olmalarını dilə gətirdilər. Toros Gergin dedi ki, bu faciə heç vaxt tarixin yaddaşından silinə bilməz:**

– Olduqca üzücü hadisədir. Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də öz şəhidləri ilə vidalaşa bildi.

**Ailənin digər üzvü Zeynəb Gergin də faciə ilə bağlı təəssüratlarını bölüşdü:**

– Bu günün Azərbaycan xalqı üçün dərin anlamı var. Bu tarixi faciə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub.

**281 nömrəli tam orta məktəbin müəllimi Xatirə Məmmədova** 3-cü sinifdə təhsil alan şagirdlərini Şəhidlər xiyabanına gətirmişdi. O, məktəblilərə 20 Yanvar şəhidləri barədə məlumat verir, balacaların suallarını cavablandırırdı. Dedi ki, Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur. Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, qatillərini lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini bildirir.

Şəhidlər xiyabanını müəllimləri, valideynləri ilə ziyarətə gəlmiş məktəblilər faciəni öz məntiqi təfəkkürü ilə izah edir, şeirlər səsləndirdilər.

**Ayxan Eyvazov:**

– 20 Yanvar gecəsi Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli qırğın törədilib. Məktəbimizdə hər il yanvar şəhidlərinin anım günü keçirilir. Tədbirdə qanlı gecənin canlı şahidləri ağrılı-acılı xatirələrini bizimlə bölüşürlər. Biz o hadisələri bir an belə unutmuruq.

**İnci Babazadə:**

– Bu gün azadlığın, müstəqilliyin,
Qan ilə yazılmış təməl günüdür.
Ölümün üzünə dik baxa-baxa
Özgür yaşamağın bədəl günüdür.

**Nihat Məmmədov:**

– 20 yanvar Azərbaycan xalqının tarixində təkcə qara çərçivədə anılası gün olmamalıdır. Biz bu günün gerçək önəmini onun hüzn və şərəfi ilə birgə yaşamalıyıq.

**Dəniz Qurbanova:**

– Şəhidlər xiyabanına şəhidlərimizi anmağa gəlmişik. Hər dəfə Şəhidlər xiyabanını ziyarət edib, məzarları üstünə tər qərənfillər düzərkən düşünürəm ki, canları bahasına əldə edilən müstəqilliyimizi qorumaq üçün hər bir kəs öz məsuliyyətini dərindən dərk etməlidir.

**Zakir Abdulzadə:**

Axışdı Bakıya düşmən tankları,
Qanına bələdi qoca, cavanı.
Tapdadı insanlıq qoyan qaydanı.

**Dəniz Səmədova:**

– 20 Yanvar şəhidlərinin xatirəsini əziz tuturuq. Bir tərəfdən kədər hissi, digər tərəfdən qürurla şəhidlərimizi ziyarət edirik. Azərbaycanın azadlığı, suverenliyi uğrunda canlarını fəda edən şəhidlərin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində bundan sonra da əbədi yaşayacaqdır!

**Nərmin Kazımova:**

Bu gün hüzn günü, qəm günü deyil,
Fəxarət günüdür, qürur günüdür.
Xalqın varlığını təsdiq eyləyən
Şərafət günüdür, möhür günüdür.

**Əsnat Bünyatlı:**

Şəhid məzarı pirdir, ocaqdır
Vətən torpağında yanan çıraqdır.
Şəhidlər ölməyir, diridir, sağdır
Sən nə olar ağlama, şəhid anası.

**"Şəhidlərimizin məzarını ziyarət etmək borcumuzdur", – deyən paytaxt sakini Vasif Əzizov qeyd etdi ki, Şəhidlər xiyabanı əsl məktəbdir:**

– Çünki hər şey buradan başlayır. Bu irsi qoruyub saxlamalı, gələcək nəsilə ötürməliyik. Üzərindən 35 il keçsə də, Bakı şəhərində baş verən qanlı hadisə xalqımızın yaddaşında silinməz izlər buraxıb. 20 Yanvar tarixinin respublikamızda hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edilməsi yeniyetmə və gənclərimizdə tarixi yaddaşa, vətənpərvərlik hissinin formalaşmasına böyük təsir göstərir.

**Elnarə Cəfərova da faciənin qurbanı olan şəhidlərimizin məzarlarını ziyarətə gələnlərdən idi:**

– Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda "Vətən sağ olsun" deyib canlarından keçən övladları bütün dünyaya sübut etdilər ki, Vətən torpağı müqəddəsdir, toxunulmazdır. Təsadüfi deyilməyib ki, heç nə yaddan çıxmır, heç kəs unudulmur. Vətən yolunda şəhidlik zirvəsinə yüksələnlər də heç vaxt unudulmur, yaddaşlardan silinmir, çünki şəhidlər ölməzdir. Bu ölməzlik həm də dövlətimizin müstəqilliyində, xalqımızın birliyində yaşayır.

**Faciə baş verən il 1 yaşı olan Rəşad Sadıqov 20 Yanvar qırğınlarının vəhşət saçdığını dedi:**

– Xalqımız üçün ağır gün olub. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi.

Bir sözlə, Azərbaycan xalqına qarşı törədilmiş bu cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulub.

Əyani sübutdur ki, yeni reallıqlarla əhatə olunan dünyada Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini möhkəmləndirdi, ölkənin beynəlxalq mövqeyini gücləndirdi. 44 gün ərzində Qarabağ və onun ətraf əraziləri düşməndən azad edildi. Azadlıq xalqların istəyi və təbii haqqıdır. Amma o dəyərli, əvəzolunmaz nemət asan əldə olunmur. Azadlığa gedən yol bəlalardan, qanlardan keçir. Heç təsadüfi deyil ki, Bakı metrostansiyalarında belə "Azadlıq"a gedən yol "20 Yanvar"dan keçir. Eynilə azadlığa getdiyimiz yolda taleyimizə yazılmış 20 Yanvar kimi…

*Rizvan FİKRƏTOĞLU,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# Müstəqilliyin qaranquşları

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi, amma iradəsi sınmadı, milli ruhu sarsılmadı. Bu qanlı olay Azərbaycan tarixinə qara hərflərlə yazılsa da, axıdılan qanlar müstəqilliyimizə gedən yolun qırmızı lenti oldu. 20 Yanvar şəhidləri gənclərimiz üçün də nümunədir. Onlar ölümləri ilə özlərindən sonrakı nəslə böyük bir vətənpərvərlik məktəbi qoyub getdilər. Bəs xalqımızın azadlığı uğrunda şəhid olan oğul və qızlarımızın – "Azadlıq qaranquşları"nın qəhrəmanlığı gənc nəslin tərbiyəsində, dünyagörüşündə hansı izləri buraxıb? Bu sualın cavabını 1990-cı ildən sonra dünyaya gələn gənclərin dilindən eşidək.**

**Yaponiyada təhsil alan 24 yaşlı Yaqut Şəkizadə** bildirdi ki, 20 Yanvar Azərbaycan tarixinin həm ən faciəli, həm də ən şərəfli günlərindən biridir: "Bu gün xalqımızın azadlıq uğrunda mübarizəsinin rəmzinə çevrilmiş, eyni zamanda, milli ruhumuzun gücünü, birliyimizi və əyilməzliyimizi dünyaya nümayiş etdirmişdir. Bu faciə yalnız Azərbaycan xalqına qarşı deyil, ümumilikdə, insanlığa qarşı törədilmiş bir cinayət idi. 20 Yanvar faciəsi hər nə qədər dəhşətli olsa da, Azərbaycan xalqının azadlıq ruhunu qıra bilmədi. Əksinə, bu hadisə milli birliyi daha da möhkəmləndirdi və müstəqillik yolunda dönüş nöqtəsi oldu.

**Azərbaycan Dillər Universitetinin tələbəsi Günay Mustafazadə:** "20 Yanvar faciəsindən artıq 35 il keçir. Lakin bu qətliam heç vaxt unudulmadı, xalqımızın yaddaşında əbədiləşdi. Azərbaycan xalqı hər il bu dəhşətli faciəni xatırlayır. Mən və yaşıdlarım 20 Yanvar hadisəsinin şahidi olmamışıq. Amma böyüklərimiz o qəhrəmanların, oğul və qızların Vətən sevgisini və sönməyən ümidlərini bizə örnək göstəriblər. Hər bir azərbaycanlı bu gün sahib olduğumuz müstəqilliyin, demokratik dövlətdə yaşamağın hansı mücadilələr bahasına qazanıldığını unutmamalıdır. On illər ötsə, nəsillər dəyişsə də 20 Yanvar şəhidlərinin xatirəsi ürəklərdə yaşayacaq".

**Milli Təhsil Texnologiyaları Mərkəzində çalışan Amil Hüseynli:** "Düşünürəm ki, 20 Yanvar hadisəsi azadlığın qanla qazanıldığını göstərən nümunədir. Həmin gecə insanlar əliyalın tankların qarşısına çıxaraq, azadlıq uğrunda canlarını fəda etdilər. Yəni bilərəkdən ölümə getdilər. Müstəqilliyimizin əldə olunmasında onların fədakarlığı danılmazdır. O qanlı gecəyə aid videolar və şəhidlərin danışıqları xalqımızın həmin gecə zülmə məruz qaldığını göstərir. Valideynlərimdən və müəllimlərimdən eşitdiyimə görə, hadisə baş verən günü televiziyanın enerji blokunu partladıblar ki, xalqın nələrin baş verdiyindən xəbəri olmasın. Allah xalqımıza bir daha belə ağrı-acılı günləri yaşatmasın".



"Heydər Əliyev böyük cəsarətlə 20 Yanvar faciəsinin hüquqi və siyasi qiymətini verdi. O, bu tarixə milli şərəf və qəhrəmanlıq rəmzi kimi yanaşdı". **Bu sözlərin müəllifi gənc tarix müəllimi Nərgiz Əhmədova** deyir ki, işlədiyi tədris ocağında şagirdlərinə 20 Yanvarın yalnız faciə deyil, həm də qəhrəmanlıq tarixi olduğunu aşılayır: "Həmin dövrdə baş verənlər bizə milli iradənin və birliyin nəyə qadir olduğunu göstərdi. Şəhidlərimizin xatirəsini yaşatmaq və onların uğrunda mübarizə apardıqları dəyərləri qorumaq hər bir azərbaycanlının mənəvi borcudur. Şəhidlər xiyabanı –xalqımızın azadlığı və müstəqilliyi uğrunda canından keçənlərin uyuduğu məkan indiki və gələcək nəsillərimizin ziyarətgahı, and yeridir.".

**Azərbaycan Dillər Universitetinin tələbəsi Rüqəyya Babayevanın** fikrincə, hər bir xalqın tarixində ağır illər və dirçəliş dövrü olur: "Qanlı Yanvar gecəsi Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi oldu. O dövrün şahidlərinin dilindən eşitdiyimiz, qanlı hadisələri əks etdirən filmlərdən və fotoşəkillərdən izlədiklərimiz yaddaşımıza əbədi həkk olub. Üstündən 35 il keçsə də biz o müdhiş gecənin səslərini eşidirik. Həm də bu gün bayrağımızın yüksəklikdə qürurla dalğalandığını görürük".

* * *

Onların arzuları sönmədi, gerçəkləşdi. Şəhidlik zirvəsinə yüksələrək Haqq dünyasına qovuşanların ruhları bu gün şaddır. Uğrunda canlarından keçdikləri Azərbaycan bu gün müstəqil və suverendir. Qarabağı görməyən igidlərimiz də Vətən uğrunda ölümə getdilər və şəhid, qazi oldular. Azadlıq məhz belə qazanılır.

*Azər MUSTAFAYEV*

# “Alfa”çılar Teleradionu niyə susdurmuşdular?

**Qanlı 20 Yanvar hadisələrində cinayət zəncirinin ilk halqası “Alfa” təxribat qrupunun Azərbaycan Dövlət Televiziyasının enerji blokunu partlatması olub. Beləliklə də, insan hüquqlarına kobud təcavüz sayılan bu əməlin nəticəsi olaraq respublika ictimaiyyəti operativ informasiyadan məhrum olub və vətəndaşlar baş verən hadisələri vaxtında öyrənə bilməyiblər.**



**Həmin dövrdə televiziyanın baş rejissoru olan Xalq artisti Vasif Babayev hadisənin canlı şahidlərindən və zərərçəkmişlərindəndir. Onun dedikləri:**

– Ölkədə baş verən mürəkkəb siyasi-ictimai proseslər dövlətin əsas və yeganə televiziya kanalından daha aydın görünürdü. Həmin gün azadlıq mücahidləri elan etmişdilər ki, axşam “Xəbərlər”ində izdihamlı mitinqdən reportaj və hərbi təcavüz barədə mühüm məlumatlar veriləcək. Ona görə də Moskvadan gəlmiş Y.Primakov, A.Girenko və V.Mixaylovun göstərişi ilə axşamüstü təcavüzkar sovet ordusu hərbçilərinin ilk işi Azərbaycan xalqını informasiyasız və insanları baş verəcək hadisələrdən bixəbər qoymaq üçün respublikada yeganə televiziyanın enerji blokunu partlatmaq oldu. Onların qəsdi bu idi ki, 20 Yanvar qətliamının təfərrüatları dünya ictimaiyyətindən gizlədilsin, bu məkrli



missiya qüsursuz yerinə yetirilsin və təqsir günahsız televiziya işçilərinin üzərinə yıxılsın.

Xalq artisti deyir ki, həmin vaxt işçilərin çoxu getmişdi. Odur ki, jurnalistlər Telman Qafarov və Alı Mustafayev işə çağrıldılar ki, birgə “Xəbərlər” proqramını efirə hazırlasınlar. Jurnalist Rafiq Ağayev “Reuters” informasiya agentliyi ilə telefonla danışırdı. Axşam proqramının əsas xəbərlərinin montajı artıq son mərhələdə idi. Saat 20:00-da efirə gedəcək “Xəbərlər”in başlamasına yarım saatdan bir az çox vaxt qalırdı. Əsas video-məlumatlar, təbii ki, xalqın müstəqillik hayqırtıları ilə keçirdiyi azadlıq mitinqlərə həsr olunmuşdu. Amma bir anda dəhşətli partlayış baş verdi. Binaları qatı tüstü bürüdü. Sən demə, həmin anlarda enerji blokunda cinayətin şahidi olan mühəndislər Viktor Romanov və İbrahim Hüseynov da tutularaq harasa aparılıbmış. İşıqlar sönmüş, hər tərəf zülmətə qərq olmuşdu.

Beləliklə, enerji bloklarına yerləşdirilən bombalar oranı tamamilə darmadağın edib. Televiziyanın yayımı isə anındaca kəsilib. Həmin vaxt orada bloklara nəzarət edən iki mühəndis ub. Onlar silahlılar tərəfindən tutularaq aparılıb. Elə bu səbəbdən də hadisədən televiziyada olan işçilər xəbərsiz qalıblar.



Bu sətirlərin müəllifi də o zaman AzTV-də çalışırdı. Artıq bir neçə ay idi ki, Teleradio Verilişləri Komitəsini hərbçilər və silahlı tanklar qoruyurdu. Hərbçilər, adətən, kollegiya zalında dislokasiya olunurdular. Hadisə baş verən gün isə onları “Alfa” qrupunun hərbçiləri əvəz etmişdilər. Onlar da izi itirmək üçün aradan çıxmağa başlamışdılar.

**Vasif Babayev deyir ki, yanvarın 19-dan 20-nə keçən gecə Sovet işğalçı ordusu Bakı şəhərini gülləbarana tutdu.**

– Gecə saat 1-ə işləmiş idarədən çıxıb evə gəldim. Səhəri diri gözlü açdım, sübh tezdən işə hazırlaşarkən, evimə naməlum şəxs zəng edib dedi ki, iki işçiniz – Romanov və Hüseynov milis idarəsindədirlər, onları buraxmırlar. Sonra: “Yubansanız, partlayışı sizin boynunuza yıxacaqlar” – dedi. Evdən işə gedərkən həyatımın ən ağır, ən çətin, ən dözülməz anlarını yaşadım. Böyükdən balacaya hər kəs ağlayır, qadınlar saçlarını yolurdular. Əzilmiş maşınlar, avtobuslar, köşklər, ağaclar... Teleşirkətə çatanda artıq Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşları orada idilər.

Dövlət Teleradio Komitəsinin sədr müavini Fuad Tarıverdiyev və mən bəzi vətənpərvər televiziya operatorlarına tapşırıq verərək onları Bakı küçələrinə, xəstəxanalarına, morqlara, idarələrə, faciə baş verən yerlərə çəkilişə göndərdik. O günlər AzTV-nin bəzi operatorlarının, o cümlədən, Ələkbər Muradov, Seyidağa Mövsümov, Rəsul Babayev, İzzət Əzizov, Fikrət Qafarov, Adil Bunyadov və Zahid Bağırovun işlərini xüsusi ilə qeyd etmək istəyirəm. Onların çəkdiyi kadrlar bu gün də bütün dünya ekranlarında göstərilir, sovet kommunist rejiminin siyasətini və qəddarlığını bir daha ifşa etdirirlər.

**– Tutulub aparılan enerji mühəndisləri də həmin gün buraxıldı...**

– Bəli. Televiziya jurnalisti rəhmətlik Cavanşir Cahangirov, operator Ələkbər Muradov, mən və DTK-nın əməkdaşı Məmmədəli Əliyev, DTK-nın maşınında milis idarəsindən Romanovu və Hüseynovu televiziyaya gətirdik. Cavanşir dərhal partlayışa məruz qalmış enerji blokunun fonunda onlardan müsahibə aldı. İbrahimlə Viktor təsadüfən sağ qalmışdılar. Sonralar istintaq müəyyən etdi ki, onları partlayışdan sonra məhv etməliydilər. Amma nəsə alınmayıb. Mühəndislərin müsahibələrindən və istintaqa verdikləri ifadələrdən bütün qaranlıq suallara cavab tapıldı...

Sonrakı günlər televiziya işçilərinə yayıma başlamaq, amma tətbiq olunan fövqəladə rejimə ciddi surətdə əməl etməklə, təcavüzkarların maraqlarına xidmət edən xəbərlər yayımlanmaq tapşırıldı. Senzura son dərəcə gücləndirildi. Yanvarın 26-da isə “cızığından çıxanlar” – Vasif Babayev və daha 3 teleradio işçisi də daxil olmaqla, ümumilikdə 46 azərbaycanlı həbs edilərək, Rusiyaya aparıldı. Yalnız ertəsi gün, yanvarın 27-də Azərbaycan televiziyası sərt şərtlər daxilində yayıma başladı.

Xatırladaq ki, Vasiv Babayevgil – 46 nəfər tutularaq döyülə-döyülə təyyarə ilə Krasnodara, oradan isə qatarla Ulyanovsk şəhərinə aparılıblar. İşgəncələr verərək, dişlərini də sındırıblar. Həbs müddəti 1 ay çəkib. O çətin və əzablı günlərdə Ulyanovskda yaşayan azərbaycanlılar onlara hər cür köməklik göstəriblər.

Beləcə, televiziyanın enerji blokunu partlatmaqla Azərbaycanı informasiya blokadasına almaq əməliyyatı da xalqımızın iradəsini qıra bilməyib.

*Ə.DOSTƏLİ*
*XQ*



# Quduzluğun “Sumqayıt yolu” vəhşiliyi

**Düz 35 il əvvəl dəhşətli 20 Yanvar qırğınından sonra Bakı–Sumqayıt yolunda daha bir cinayət törədildi: zirehli tank Azərbaycanın 5 kimyaçı aliminin yol getdiyi 05-10 AQU dövlət nişanlı “Jiquli” markalı minik avtomobilini əzib keçdi.**

Onlar 5 nəfər idi – İsmayıl Mursaqulov, Svetlana Məmmədova, İbrahim İbrahimov, İdris Əhmədov və Parlaq Mustafayeva. Sonuncu 2 nəfər istisna olmaqla, qalanları şəhadətə qovuşdu. Alimlər paytaxtdan Sumqayıta, birgə çalışdıqları Azərbaycan EA-nın orada yerləşən Polimer Materialları İnstitutuna gedirdilər. M.Qorbaçovun göstərişi və marşal D.Yazovun qaniçən generallarına verdiyi əmrlə Sovet qoşunlarının Bakıda törətdikləri vəhşiliklər onların hər birinin yaxın günlər üçün nəzərdə tutduqları planları büsbütün alt-üst etmişdi. Əvvəllər heç zaman siyasətə qoşulmayaraq, ancaq elmlə məşğul olan, lakin son günlər Sovet rəhbərliyinə hiddətlərini gizlədə bilməyən bu alimlər yanvarın xalqımıza qarşı verdiyi qanlı fərmanın bir qurbanı da o olacaq?

...“Jiquli” Saray qəsəbəsinin yanından keçib Ceyranbatana yaxınlaşmışdı, birdən silkələnərək dayandı. Mühərriki yoxlayıb, maşını birtəhər yenidən işə saldılar. 20–30 metr getdikdən sonra eyni hal baş verdi, sonra vəziyyət yenə təkrar olundu. Elə bu vaxt yanlarından qulaqbatırıcı uğultu ilə ötüb-keçən tanklardan biri onların üstünə şığıdı. Və maşını xıncım-xıncım edərək, hadisə yerindən sürətlə uzaqlaşdı. Yalnız Parlaq xanım və İdris müəllim uzun müddətli müalicədən sonra yaşamaqda davam edə bildilər. Taleyə baxın ki, hadisə zamanı möcüzəli şəkildə sağ qalan professor İdris Əhmədov 29 il sonra, məhz yanvarın 20-də dünyasını dəyişib. Parlaq xanım da artıq dünyadan köçüb.




22-də Prezident Aparatı qarşısında keçirilən etiraz mitinqində iştirak etmişdilər. Hətta İbrahim müəllim orada söz alaraq, çıxışında M.Qorbaçov hakimiyyətinə, Bakıda günahsız həmvətənlərini gülləbaran etmiş hərbçilərin rəhbərlərinə öz kəskin etirazını və nifrətini bildirmişdi.

Tankın altına salınan “Jiquli”ni idarə edən Polimer Materialları İnstitutunun “Karbonil birləşmələr” laboratoriyasının rəhbəri İbrahim İsmayıl oğlu İbrahimov görkəmli alim idi. “Üzvi kimya” ixtisası üzrə kimya elmləri doktoru elmi dərəcəsini almışdı. Tehranda, Varşavada, Riqada, Rostovda, elə Azərbaycanda qırğın törətmək əmrinin gəldiyi Moskvada dəfələrlə beynəlxalq və ümumittifaq miqyasında keçirilən konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdi. Hadisə yerindəcə həyatını itirib.

Sovet imperiyasının mənfur siyasətinin nəticəsində şəhid olan digər alim institutun şöbə müdiri İsmayıl Həsən oğlu Mursaqulov vəhşi tank hücumundan ağır zədə alıb və fevralın 3-də həyatdan vaxtsız gedib. Doktorluq dissertasiyasını M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin İxtisaslaşmış Elmi şurasında müdafiə etmişdi, elə SSRİ paytaxtı Moskvanın da cinayət əməlinin badına getdi.

Svetlana Həmid qızı Məmmədova xalqımıza qarşı törədilən qanlı yanvar cinayətinin qadın alim qurbanı olub. O, yüksək molekullu birləşmələr sahəsində doktorluq dissertasiyası müdafiə edən ilk Azərbaycan qadını idi. Hardan biləydi ki, bircə il əvvəl dissertasiya müdafiə etdiyi M.Lomonosov adına Dövlət Zərif Kimya Texnologiyası Akademiyasının yaxınlığında yerləşən o vaxtkı Moskva Kremlinin

Beləcə, sovet faşizminin cinayəti görkəmli kimyaçılarımızın da həyatında silinməz izlər qoyub. İstedadı və böyük perspektivi olan bu alimlər həm də vətənpərvər ziyalılar, gözəl insanlar kimi xatırlanırlar.

İbrahim İbrahimov 200-dən çox elmi əsərin, o cümlədən 48 müəlliflik şəhadətnaməsinin müəllifi kimi elm fədaisi sayılırdı. İsmayıl Mursaqulov və Svetlana Məmmədova isə hərəsi 130 elmi əsər yazmışdı. Xatırlyırıq ki, “Qanlı şənbə” ilə bağlı ilkin məlumatlarda 131 nəfərin şəhid olduğu bildirilmişdi. Onlar isə 131-ci elmi işlərini yaza bilmədilər, amma 131-ci, 132-ci və 133-cü şəhid kimi əbəiyyətə qovuşdular.

Artıq 35 ildir ki, Polimer Materialları İnstitutunda hər il 20 Yanvar şəhidlərinin anım tədbirləri keçirilir, rəhmətliklərin amansızlıqla qətlə yetirildikləri Bakı–Quba yolunun 24-cü kilometrliyindəki xatirə abidəsinə ziyarət təşkil olunur. “1990-cı ilin yanvar ayının 24-də burada Azərbaycanın görkəmli alimləri İbrahim İbrahimov, Svetlana Məmmədova və İsmayıl Mursaqulov imperiya ordusu tərəfindən vəhşicəsinə qətlə yetiriliblər" sözləri həkk edilmiş mərmər postamentin üstünə gül dəstələri düzülür.

Bəli, yanvarın 20-də Bakıda törətdikləri ilə “ürəyi soyumayan” imperiya yanvarın 24-də Sumqayıt yolunda sözügedən vəhşiliyə imza atdı, daha sonra – yanvarın 25-də Neftçalada, 26-da isə Lənkəranda azadlıq mücahidlərini qanlarına qəltan elədi.

*Ə.ƏLİYEV*
*XQ*



# Şəhid şair

## *Müşfiqin taleyini yaşamış əminəvəsi*

**Həmin gecə qaniçən sovet ordusunun güllələrinə tuş gələnlərdən biri də 28 yaşlı nakam şair Cavad Yunis oğlu İsmayılov olub. O Cavad ki, şeirə, sənətə sıx bağlı olan İsmayılzadələr nəslinin nümayəndəsi, Mikayıl Müşfiqin doğma əmisi nəvəsi idi.**

Cavad fəhlə işlədiyi Bakı Şüşə Zavoduna axşam növbəsinə getmişdi. İş olmadığı üçün geri qayıdanda, o vaxtkı “XI Qızıl Ordu” (indiki “20 Yanvar”) stansiyasında metrodan çıxan kimi güllə yağmuruna düşüb. Digər cavanlartək yalın əllə tankların üstünə şığıyıb ki, qadınları, qızları əzməsinlər. Yaralandığı üçün xəstəxanaya çatdırılsa da, tibb institutununn tələbə qızları ona qan versələr də, Cavad 2 gün sonra həyatını itirərək şəhid bacı-qardaşına qovuşub…

Cavadgilin Bakının Dağlı məhəlləsindəki evlərindəyik. Böyük qardaşı Vahab İsmayılzadə (o da şairdir, gözəl şeirlər, qəzəllər müəllifidir) deyir ki, elə bil, taleyinin qəmli gələcəyi əvvəlcədən ona bəlliymiş kimi, şeirlərini Cavad Qəmli təxəllüsü ilə imzalayırdı. Bu barədə bir avtobioqrafik bayatısı da var:

**Qəmlidi,**
**Yer də, göy də qəmlidi.**
**Bu qəbri soran olsa,**
**Deyin Cavad Qəmlidi.**

Heyf ki, onun ömrü də, şeirləri də yarımçıq qaldı. Şəhidlər haqqında ilk kitabın müəllifi, həmkarım, Əməkdar jurnalist Rafiq Səməndər yazır: “Əgər şair olsaydım, Cavad haqqında bu qeydlərimi şeirlə yazardım. Qafiyə axtarmağa da çətinlik çəkməzdim. Qafiyələri Cavadın öz taleyi düzüb-qoşardı: Tale elə gətirib ki, o da Müşfiq ömrü yaşayıb, Müşfiq əcəli ilə ölüb.

**Mən də öz dövrümün bir Müşfiqiyəm,**
**Artıq yorulmuşam, yoxdur taqətim…**
– deyib.

Cavadın da, 15 yaşında ikən Sibirə sürgün edilmiş atası Yunis Dağlının da, qardaşı Vahabın da yaradıcılığında sanki bir Müşfiq qanı var, Müşfiq havası, Müşfiq nəfəsi var”.

Cavad eynilə Müşfiq ruhunda şeirlər yazırdı:

**Mən şair ürəkli bir yeni gəncəm,**
**Şüur, qabiliyyət, dəyanətim var.**
**Kim deyə bilər bir insana qarşı**
**Mənim pis əməlim, xəyanətim var?**
**Eh, ömür çox qısa olduğu üçün**
**Özümdən-özümə şikayətim var…**

Sanki ömrünün yarımçıq qalacağını duymuşdu Cavad. Vahab deyir ki, o fəhlə olsa da, şeir-sənət vurğunu idi. Yazardı, amma heç kimə oxumazdı. Çox adam bilmirdi onun da şeir yazdığını. Atasından, Müşfiqin ruhundan utanardı. İki qızı onun əziz yadigarıdır – Firuzə və Əzizə. Onları xoşbəxt böyütmək üçün hər cür zəhmətə qatlaşardı Cavad. İş yerində də elə bu zəhmətkeş keyfiyyətlərinə görə hörmət qazanıbmış.

Yeri gəlmişkən, evlərində ona həsr olunmuş guşə ilə tanışlığımız zamanı qardaşı bizə bir sənəd göstərdi. Bakı Şəhər Xalq Deputatları Soveti Rəyasət Heyətinin 1992-ci il 3 yanvar tarixli qərarının surəti idi. Orada yazılmışdı: “Şəhid xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xətai Rayon İcra Hakimiyyətinin təklifini qəbul edərək, Bakı Şüşə Zavoduna Cavad Yunis oğlu İsmayılovun adı verilsin”. Təəssüf ki, o zaman çox keçmədən zavod bağlandığı üçün şəhər sovetinin sədri M.Əliyevin imzaladığı bu sənəd kağız parçası olaraq qalıb.



Ölməz Mikayıl Müşfiq yazmışdı:

**Həyatdan doymayan, işdən doymayan,**
**Əfsanə sözlərə məhəl qoymayan,**
**Xalq ilə titrəyən, xalq ilə gülən**
**Vətənçin yaşayan, Vətənçin ölən**
**Səmimi bir insan nə bəxtiyardır.**

Sanki elə özü üçün, dostu – istiqlal şairi Əhməd Cavadın eşqinə onun adı qoyulmuş Cavad Qəmli üçün yazıb ölməz şairimiz. Onu da qeyd edək ki, qısa ömür yaşamış Cavada həsr olunmuş “Dövrümüzün Müşfiqi” adlı qısametrajlı bir film də çəkilib. Ötən il Bakıdakı 159 nömrəli məktəbdə onun xatirəsinə həsr olunan gecədə göstərilib. Şagirdlər Cavadın şeirlərini söyləyiblər. Qızı Firuzə İsmayılova Vətən uğrunda şəhid olan Azərbaycan oğullarının qəlbimizdə xüsusi yeri olduğunu vurğulayıb: “Mən də Cavadın qızı, belə bir nəslin nümayəndəsi olduğuma görə fəxr edirəm”.

Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər Axundzadənin qızı Leyla Axundzadə isə bildirib ki, Cavad və onun kimi Azərbaycan oğulları hər zaman yaşayacaq.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Yenilik və tərəqqiyə qovuşan kəndimiz

## *Son dövrdə aqrar sektor 1,5 faiz böyüyüb*



**Azərbaycanda aqrar sahənin potensialından səmərəli istifadə olunması, kənd təsərrüfatının inkişafının diqqətdə saxlanılması, bu sahədə fəaliyyətin təşviq edilməsi məqsədilə çoxşaxəli dəstək tədbirləri həyata keçirilir. Bu baxımdan iqtisadiyyatın mühüm sahələrindən sayılan kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorun inkişafını ləngidən problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması istiqamətində reallaşdırılan layihələr diqqət çəkir.**

Dövlətin bu sahədə həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı layihələri aqrar sektorda təşəbbüskarlığa geniş meydan açıb. Məhz bunun nəticəsidir ki, hazırda iri biznes qruplarının, eləcə də kiçik və orta sahibkarların kənd təsərrüfatı sektorunda xüsusi fəallığı müşahidə olunur.

Azərbaycan əhalisinin, təqribən, yarısının yaşadığı regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən istənilən tədbir yerlərdə məşğulluğun təminatına mühüm töhfə verir. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bu da respublikada bitkiçilk və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, həyata keçirilən dəstək tədbirlərinin nəticəsidir ki, ötən il Azərbaycanda 12 milyard 995 milyon manat (2023-cü ilin müvafiq göstəricisi ilə müqayisədə 1,5 faiz çox) dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Son bir ildə ölkədə istehsal edilən bitkiçilik məhsullarının dəyəri 1,1 faiz artaraq 6 milyard 162 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,7 faiz artaraq 6 milyard 833 milyon manat olub.

Bu ilin əvvəlinə 1 milyon 21 min hektar sahədən hər hektardan orta hesabla 31 sentner olmaqla 3 milyon 277 min ton və ya 2023-cü illə müqayisədə 0,9 faiz çox dənli və dənli paxlalı bitkilər toplanıb. 2024-cü ildə istehsal olunmuş dənli və dənli paxlalı bitkilərin 1 milyon 686 min tonunu və yaxud 51,4 faizini buğda təşkil edib. Buğdanın məhsuldarlığı 30,9 sentner olub. Bundan əlavə, 1 milyon 839 min ton və ya 2023-cü ilə nisbətən 0,7 faiz çox tərəvəz, 1 milyon 317,9 min ton (4,5 faiz çox) meyvə və giləmeyvə, 490,6 min ton (11,9 faiz çox) bostan məhsulları, 307 min ton (11,1 faiz çox) pambıq, 289,1 min ton (31,5 faiz çox) şəkər çuğunduru, 31,2 min ton (6,6 faiz çox) günəbaxan, 6,5 min ton (2,2 faiz çox) tütün yığılıb.

Bildirilir ki, ölkədə 2025-ci ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmaq üzrədir və cari il yanvar 1-nə olan vəziyyətə görə, 941,7 min hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilib. Səpin aparılmış sahənin 99 faizini və yaxud 932 min hektarını dən üçün payızlıq bitkilər təşkil edib ki, onun da 505 min hektarı buğda, 427 min hektarı arpa, 0,1 min hektarı isə çovdar əkinlərinin payına düşüb.

2023-cü ilin göstəriciləri ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 8,2 faiz, o cümlədən buğdanın səpin sahəsi 15,5 faiz azalıb, arpanın səpin sahəsi 2,3 faiz artıb. Hesabat ilində quş əti də daxil olmaqla diri çəkidə 659 min ton ət, 2 milyon 298,5 min ton süd, 2 milyard 300,8 milyon ədəd yumurta, 14,8 min ton yun, 239,4 ton barama istehsal olunub. 2023-cü illə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 5,1 faiz artıb.

2024-cü ildə hər inək və camışdan orta hesabla 1 min 834 kiloqram (2023-cü ildə 1 min 746 kiloqram olub) süd sağılıb. Yanvarın 1-i vəziyyətinə ölkə üzrə 6 milyon 850 min baş qoyun və keçi, 2 milyon 460 min baş iribuynuzlu mal-qara, o cümlədən 1 milyon 223 min baş inək və camış qeydə alınıb. İribuynuzlu mal-qaranın 49,7 faizini inək və camışlar təşkil edir. 2024-cü ildə quşçuluq müəssisələrində diri çəkidə 82,3 min ton quş əti və 1 milyard 148,7 milyon ədəd yumurta istehsal olunub. Ümumilikdə, bu müəssisələr üzrə cəmi quşların sayı 12 milyon 091,5 min baş olub, hər yumurtlayan toyuqdan orta hesabla 248 ədəd yumurta alınıb.

Azərbaycanda dövlət dəstəyi ilə təqdim edilən aqrar sığorta mexanizminin tətbiqi də genişləndirilib. Aqrar Sığorta Fondunun zərər görmüş fermerlərə ödənişləri sürətlə artırılıb. Keçən ilin 11 ayı ərzində müxtəlif hadisələr nəticəsində zərərlə üzləşən fermerlərə 5 milyon 642 min manat sığorta ödənişi edilib. Sığorta ödənişlərinin 4 milyon 659 min manatı meyvə bağları və əkin sahələri, 983 min manatı isə heyvandarlıq üzrə olub. 2023-cü ilin eyni dövrünə nisbətən keçən il sığorta ödənişlərinin məbləği 2 dəfə, o cümlədən meyvə bağları və əkin sahələri üzrə ödənişlər 2,3 dəfə, heyvandarlıq təsərrüfatları üzrə ödənişlər isə 40 faiz çoxalıb.

Xatırladaq ki, 2023-cü ilin eyni dövründə Aqrar Sığorta Fondu fermerlərə, ümumilikdə, 2 milyon 741 min manat sığorta ödənişi edib. Bu məbləğin 2 milyon 43 min manatı meyvə bağları və əkin sahələri, 698 min manatı isə heyvandarlıq üzrə olub.

2024-cü ilin 11 ayında bitkiçilik sığortası üzrə ən çox sığorta ödənişləri fırtına, dolu, şaxtavurma və subasma hadisələri üzrə həyata keçirilib. Heyvandarlıq sığortasında isə ödənişlərin böyük hissəsi yoluxucu xəstəliklər və ot-yemdən zəhərlənmə hallarına aid olub. Bu dövrdə Aqrar Sığorta Fondu, ümumilikdə, 410 min 561 hektar əkin sahəsini sığortalayıb. Fond əkin sahələrinə 462 milyon manatlıq sığorta təminatı verib.

Hesabat ilində ölkə üzrə 3 min 169 heyvan sığorta edilib, 19 milyon 554 min manat sığorta təminatı verilib. Eyni zamanda, 12 milyon 829 min manat sığorta haqqı toplanıb. Bitkiçilik üzrə ödənilən sığorta haqları 10 milyon 934 min manat, heyvandarlıq sahəsi üzrə isə 1 milyon 895 min manat təşkil edib. Ən çox sığortalanan əkin sahələri isə taxıl və pambıq bitkiləri ilə yanaşı, nar, şaftalı, nektarin, fındıq, üzüm və zeytun bağları, çəltik, şəkər çuğunduru sahələri olub.

Qeyd edək ki, sığorta haqqının 50 faizini fermerlərə dəstək üçün dövlət özü ödəyir. Nəticədə fermerlər cüzi ödəniş etməklə təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilirlər. Aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, eləcə də heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinin təminatı ilə yanaşı, ixrac potensialının da artırılmasına mühüm töhfələr verir.

Gələcəkdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında da aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunur.

# Azərbaycan güclü və müasir gəmiçilik ölkəsidir

## *Son 10 ildə mülki donanmaya 35 bərə, teploxod və tanker əlavə olunub*

**Son illər Prezident İlham Əliyevin dəniz nəqliyyatı sahəsində müəyyənləşdirdiyi siyasətə uyğun olaraq yeni gəmilərin tikintisi və donanmaların tərkibinin müasir gəmilərlə genişləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətindən (ASCO) XQ-yə verilən məlumatda bildirilir ki, gəmiçilik sahəsində görülən işlər ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalara yaranan tələbatın ödənilməsində, bir bazardan asılılığın aradan qaldırılması məqsədilə xarici sularda fəaliyyətin genişləndirilməsində və dənizdə neft-qaz layihələrinin icrasında mühüm rol oynayır.



Donanmaların yenilənməsi strategiyası çərçivəsində həyata keçirilən işlər çərçivəsində təkcə 2013-cü ildən – ASCO yarandığı dövrdən indiyədək 35 müasir gəmi istismara verilib. Bunlardan 5-i tanker, 1-i “Aframax” tipli tanker, 8-i universal quru yük gəmisi, 2-si “Handysize” tipli quru yük gəmisi, 2-si “Ro-Pax” tipli gəmi-bərə, 1-i təchizat-yedək, 7-si təchizat, 1-i liman-yedək, 3-ü sərnişin, 5-i isə kiçik su tutumlu yedək gəmisidir.

Məlum olduğu kimi, 2013-cü ilin sentyabr ayında Bakı Gəmiqayırma Zavodunun istismara verilməsi ilə Azərbaycan dünyanın gəmi istehsal edən ölkəsinə çevrilib. Ötən müddətdə müəssisədə 1-i liman yedək, 3-ü sərnişin, 2-si “Ro-Pax” tipli gəmi-bərə, 4-ü tanker olmaqla, ümumilikdə, 10 gəmi inşa edilib. Bununla yanaşı, ASCO-nun Strateji İnkişaf Proqramına uyğun olaraq Bakı Gəmiqayırma Zavodu daha 11 gəminin, o cümlədən 1 “Ro-Pax” tipli gəmi-bərə, 3 tanker, 50 nəfərlik 3 sərnişin gəmisi, 60 və 45 metr dərinliklərdə işləmək üçün nəzərdə tutulmuş 4 dalğıc gəmisinin tikintisinə dair yeni sifarişlər alıb.

Bakı Gəmiqayırma Zavodu ildə 25 min ton metal konstruksiya istehsal etmək gücünə malikdir. İstehsal imkanlarına görə Xəzər dənizi hövzəsində analoqu olmayan bu müəssisədə ildə 15 min ton yükgötürmə qabiliyyəti olan 4 və ya 70 min ton yükgötürmə qabiliyyəti olan 2 tanker və 4 özül təchizat gəmisi tikmək, müxtəlif təyinatlı 80-100 gəmini təmir etmək imkanına malikdir. Zavodun inşası ilə paralel olaraq onun fəaliyyəti üçün mühüm əhəmiyyət daşıyan, uzunluğuna görə Xəzər dənizində ən böyük üzən quru dok tikilib. Müəssisənin tikinti layihəsinin növbəti mərhələsində yeni quru dokun, əlavə istehsal və körpü sahələrinin tikintisi planlaşdırılır.

Eyni zamanda, dövlət başçısının tapşırığına əsasən, son dövrlərdə beynəlxalq sularda yeni tipli daha böyük gəmilərin istismara verilməsi istiqamətində də uğurlu layihələr icra olunub. Təkcə son iki ildə 2023-cü beynəlxalq sularda 5-i “Aframax” tipli tanker, 2-si “Handysize” tipli quru yük gəmisi olmaqla, ümumilikdə, 7 iritutumlu gəmi istifadəyə verilib. “Aframax” tipli tankerlərdən 4-ü ASCO və SOCAR tərəfindən yaradılan birgə müəssisə tərəfindən alınıb.

Bütövlükdə isə, hazırda “Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin neft donanmasının sərəncamında olan 204 gəmi var. Həmin gəmilər neft sənayesinin ayrı-ayrı sahələrində uğurla fəaliyyət göstərir. Bununla yanaşı, ASCO-nun nəqliyyat donanmasının 54 gəmisi ilə müxtəlif təyinatlı yüklər daşınır. Daha 6 gəmi isə Xəzərdən kənarda fəaliyyət göstərir.

Bu arada, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC bərə və “Ro-Pax” tipli gəmiləri ilə ötən il ərzində daşınmış yüklərin həcmini açıqlayıb. Qurumun məlumatına əsasən, hesabat dövründə ölkənin dəniz nəqliyyatı ilə 39 min 734 ədəd müxtəlif növ avtomobil və 37 min 337 ədəd vaqon daşınıb. Bildirilib ki, yükdaşıma göstəricilərinə əsasən, universal quru yük gəmiləri ilə il ərzində 911 min ton yük nəql edilib. 2024-cü ildə tankerlərlə daşınan yükün miqdarı isə 4,2 milyon tona bərabər olub.

Yeri gəlmişkən, donanmaya məxsus gəmilərin ahəngdar fəaliyyətinin təmin edilməsi, təmir-sazlama işlərinin vaxtlı-vaxtında aparılması üçün də bütün lazımi şərait yaradılıb. Bu işlər isə ASCO-nun “Bibiheybət” və “Zığ” gəmi təmiri zavodlarında həyata keçirilir. Adı çəkilən zavodların fəaliyyəti “Xəzər Dəniz Gəmiçiliyi”nin və kənar təşkilatların gəmilərini, texniki avadanlıqları təmir etməkdən və onlar üçün sifarişlər əsasında müxtəlif növ ehtiyat hissələri, xüsusi boyalar və texniki vasitələr hazırlamaqdan ibarətdir.

Həmin müəssisələrdə gəmi sistem və qurğularının, elektrik və radionaviqasiya avadanlıqlarının, mühərriklərin, cihazların quraşdırılması və sazlanması, dalğıc və sualtı hidrotexniki işlər, gəmilərin doka qaldırılaraq sualtı gövdə, sükan və vintlərinin yoxlanılması, onların təmizlənməsi və rənglənməsi, hava ilə doldurulan xilasetmə sallarının, hidrostatik ayırıcı qurğuların, fərdi xilasetmə vasitələrinin yoxlanılması və təmiri, ASV tipli nəfəs aparatlarına texniki xidmətin göstərilməsi və s. işlər həyata keçirilir.

# Kəlbəcər zülmətdən qurtulur

## *Kəndlərin çoxunda müasir şəbəkə qurulub*

**“Azərişıq” ASC-dən XQ-yə bildirilib ki, 2024-cü ilin son ayları və yeni ilin ilk günlərində də Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işləri davam etdirilib. Kəlbəcər rayonu ərazisində 5 istiqamətdə iki və beş dövrəli kabel xətlərinin çəkilişinə start verilib. Artıq Alagöllərdə strateji obyektlərin elektrikenerjisi ilə təminatı reallaşıb, Milli, Çaykənd, Qamışlı kəndləri istiqamətində xətlərin çəkilişi yekunlaşdırılıb.**



Hazırda 110/35 kV-luq İstisu yarımstansiyasından mineral su zavoduna çəkilən ikidövrəli kabel xəttinin çəkilişi davam etdirilir. Dayaqların quraşdırılması yekunlaşdırılıb, kabellərin montaj işləri aparılır. Xatırladaq ki, 2024-cü il sentyabrın 2-də Prezident İlham Əliyevin iştirakı ilə Kəlbəcərdə “İstisu” yarımstansiyası istifadəyə verilib.

Laçında da dağıdılmış elektrik təsərrüfatının yenidən qurulması işləri davam edir. Minkənddə 35 kV-luq yarımstansiyanın və şəhər daxilində Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi yekunlaşır. Quşçu kəndində kabel hava xəttinin çəkilişi tamamlanıb, transformatorlar quraşdırılıb, gərginlik verilib. Kürdhacı, Ərikli, Şəlvə, Güləbird və Qorçu kəndlərində elektrik xətləri çəkilişi davam edir. İkidövrəli hava kabel xətləri çəkilir.

Xatırladaq ki, işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun digər rayonlarında da dağıdılmış elektrik şəbəkələri tamamilə yenidən qurulur. Yeni salınan şəhər və qəsəbələrin işıqlandırılması üçün ən müasir avadanlıqlardan istifadə edilməklə yeni güc mərkəzləri yaradılır. Görülən bütün işlər Baş plana əsasən aparılır.




# “Fitch Ratings”in nikbin proqnozu

**2025-ci ildə Azərbaycanda ümumi daxili məhsul istehsalının artımı 3 faiz, 2026-cı ildə isə 2,4 faiz təşkil edəcək. Bu barədə məlumat “Fitch Ratings” beynəlxalq reytinq agentliyinin ölkəmizin kredit reytinqinin təsdiqlənməsinə dair hesabatında yer alıb. Agentliyin hesabatına əsasən, 2025-2026-cı illərdə Azərbaycanda ÜDM-in orta illik artımı 2,7 faiz təşkil edəcək.**

Sənəddə qeyd olunur ki, 2024-cü ildə Azərbaycanda ÜDM artımı ölkədə neft hasilatının daha yavaş azalması və Qarabağın bərpasının iqtisadi səmərəliliyi fonunda 4,1 faizə qədər sürətlənib. Bu da əvvəlki ildə qeydə alınmış 1,1 faizlik göstəricidən xeyli yüksəkdir. “Biz artımın 2025-ci ildə 3 faizə, 2026-cı ildə isə 2,4 faizə qədər yavaşlayacağını gözləyirik, lakin artım yenə də dövlət investisiyaları ilə dəstəklənəcək”, – deyə agentlik bildirir. Bununla yanaşı, nüfuzlu reytinq agentliyi Azərbaycanda neft hasilatının azalma tempinin yavaşlaması tendensiyasının davam edəcəyini və qaz hasilatının artımı ilə müşayiət olunacağını gözləyir.

Yeri gəlmişkən, Azərbaycanın İqtisadiyyat Nazirliyi 2025-ci ildə ölkədə ÜDM-in 3,5 faiz, 2026-cı ildə isə 2,8 faiz artacağını proqnozlaşdırır.

# Yevlaxın “işıq” yaraşığı

**Azərbaycanın iri şəhərləri sırasında ilk beşlikdə yer alan Yevlaxda kompleks işıqlandırma işləri başa çatıb. “Bakı Abadlıq Xidməti”nin səyi nəticəsində şəhərin əsas prospekt və küçələrində, başqa sözlə, 25 küçədə 894 işıq nöqtəsi quraşdırılıb.**



Müasir konusvari dirəklərə dünya şöhrətli “Phillips” şirkətinin istehsalı olan lampalar bərkidilib. Bu isə o deməkdir ki, şəhərin 25 kilometrlik çevrədən artıq ərazisi nura boyanıb. 85 yaşlı şəhərin yeni siması göz oxşayır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Beynəlxalq həyat

# Rusiya və İran da strateji tərəfdaş oldular

**Rusiya və İran prezidentləri Vladimir Putin və Məsud Pezeşkian Qərbin sanksiyaları qarşısında ikitərəfli münasibətləri gücləndirmək məqsədilə strateji tərəfdaşlıq sazişi imzalayıblar. Putin iranlı həmkarını salamlayaraq, iki ölkə arasında ticarət dövriyyəsinin artımını qeyd edib, nüvə enerjisi sahəsində əməkdaşlığı yüksək qiymətləndirib: "Sazişin imzalanması ticari-iqtisadi əlaqələrin inkişafına töhfə verəcək. Hazırda onların tempi "məqbuldur". 2024-cü ilin ilk 10 ayında ölkələr arasında ticarət dövriyyəsi 15 faiz artıb. Müxtəlif sahələrdə, o cümlədən nüvə enerjisi üzrə layihələr davam edir. Bizim enerji və logistika sektorunda yaxşı perspektivlərimiz var".**



İki ölkə arasında enerji sahəsində layihələrdən biri qaz nəqli ilə bağlıdır. Rusiya və İran Azərbaycandan keçən qaz kəməri marşrutu ilə bağlı razılığa gəliblər və tədarükün qiymətinin razılaşdırılması üzrə danışıqlar yekun mərhələdədir. Bildirilib ki, həcmlər artıq müəyyən edilib. Qiymət kommersiya məsələsidir, ona görə də hər iki tərəfdən işçi qrupları yaradılıb və mütəxəssislər qiymət müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlayırlar.

Bundan əvvəl, Rusiya Prezidenti Vladimir Putin bəyan edib ki, Rusiyadan İrana qaz kəmərinin çəkilməsi üzrə işlər davam edir, birinci mərhələdə tədarük potensial olaraq 2 milyard kubmetr təşkil edəcək və perspektivdə bunu 55 milyard kubmetrə çatdırmaq imkanı var.

2025-ci il yanvarın 1-dən etibarən Ukrayna Rusiya qazının Avropaya tranzitini dayandırdıqdan sonra bu marşruta maraq artıb. Belə bir vəziyyətdə Rusiya öz qazına bazar tapmaq üçün alternativ mənbə kimi İrana üstünlük verir. Bundan sonra, Rusiya qazının Hindistana tədarükü də mümkündür. İmzalanmış sazişdə də Rusiya qazının İrana nəqli öz əksini tapıb. Bu layihənin həyata keçirilməsi, Azərbaycanın enerji marşrutunda tranzit rolu ölkəmizin enerji bazarındakı strateji mövqeyini gücləndirəcək.

Rusiya ilə İran arasında böyük əhəmiyyət kəsb edən layihələrdən biri də logistika sektoruna aid olan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir. Rusiya lideri bildirib ki, "Şimal-Cənub" dəhlizinin inkişafı Rusiya və İran arasında nəqliyyat əməkdaşlığı üçün yeni imkanlar açır. Onun sözlərinə görə, Rəşt-Astara dəmir yolunun tikintisi ilə bağlı müzakirələr davam edir. Bu lahihənin həyata keçirilməsi isə Moskva üçün sanksiyalardan yan keçmək baxımından son dərəcə vacibdir. Bu səbəbdən Rusiya Federasiyası İranın nəqliyyat infrastrukturuna milyardlarla dollar sərmayə qoyub. Bu barədə "The Japan Times" nəşri yazıb: "Şimal-Cənub" dəhlizinin üstünlüyü onun Qərbin müdaxiləsindən coğrafi təcrid olunmasıdır. Dəhlizin formalaşmasında iştirak edən Rusiya öz mallarını Asiyaya ixrac etmək imkanı ilə yanaşı, tranzit gəlirlər də əldə edəcək. Bu beynəlxalq layihə yeni xidmət növlərinin açılmasına, iş yerlərinin yaradılmasına, ölkənin büdcəsinə əlavə gəlirin gəlməsinə, iqtisadi inkişafa böyük təkan verəcək. Bu səbəbdən Rusiya İranın nəqliyyat infrastrukturuna milyardlarla dollar sərmayə qoyur".

Avrasiya İnkişaf Bankının məlumatında isə bildirilir ki, həm Mərkəzi Asiya, həm də Xəzər dənizini əhatə edən dəhlizin gücü 2030-cu ilə qədər 85 faiz artaraq ildə 35 milyon metrik tona çata bilər. İstənilən halda "Şimal–Cənub" dəhlizi Rusiyanı İran və Hindistanla, ola bilsin ki, Cənubi Asiya, Fars körfəzi və Afrika ölkələri ilə birləşdirəcək. Gələcəkdə, Azərbaycanın və Rusiyanın fəal şəkildə inkişaf etdirdiyi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Şimal Dəniz Yolunu Hind okeanı ilə birləşdirəcək. Bəs ölkəmizin bu dəhlizdən qazancı nə olacaq? Belə olan halda Azərbaycan şirkətləri yeni marşruta daxil olaraq, onu mənimsəməklə nəinki alternativ və etibarlı təchizat marşrutu əldə edəcək, həm də irimiqyaslı nəqliyyat dəhlizinin inkişafının iştirakçılarına çevrilə bilərlər. Bu amil dövlət büdcəsinə əlavə vəsait gəlməsi ilə yanaşı, iş adamlarının fəaliyyətini stimullaşdıracaq, ölkənin ixrac potensialını artıracaq.

Bəs strateji tərəfdaşlıq sazişi daha hansı sahələri əhatə edir? Sənəd enerji, logistika sektorlarından başqa, həm də müdafiə, terrorla mübarizə, maliyyə, sənaye, kənd təsərrüfatı, mədəniyyət, elm və texnologiya daxil olmaqla, bütün sahələri əhatə edir. Həmin sahələr isə birbaşa bu 2 dövlətin maraqlarına xidmət edir və Qərbin sanksiyaları qarşısında ikitərəfli münasibətləri gücləndirmək üçün şərait yaradır. Ən önəmlisi Rusiya və İran arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsidir. Hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək üçün tərəflər müvafiq işçi qurumlarının illik iclaslarının keçirilməsi barədə razılığa gəliblər. Bundan əlavə, müqaviləyə əsasən, dövlətlərdən biri təcavüzə məruz qalsa, qarşı tərəf təcavüzkara yardım etməyəcək. Qeyd olunur ki, müdafiə sahəsində əməkdaşlıq, hərbi gəmilərin müqavilə tərəflərinin limanlarına daxil olması, hərbi kadrların hazırlanması, kursant və müəllimlərin mübadiləsi də daxil olmaqla, geniş spektrli məsələləri əhatə edir.

İranın xarici işlər naziri Abbas Əraqçi yanvarın 15-də bununla bağlı vurğulayıb ki, Rusiya və İran İslam Respublikası arasında hərtərəfli tərəfdaşlıq sazişi Moskva və Tehran arasında hərbi ittifaqın yaradılmasını ehtiva etmir, baxmayaraq ki, sənəddə müdafiə və təhlükəsizliklə bağlı müddəalar var.

Həmçinin vurğulanıb ki, Rusiya və İran terrorizm və digər qlobal təhdidlərlə mübarizədə mövqeləri əlaqələndirmək və ümumi səyləri inkişaf etdirmək niyyətindədir. Moskva və Tehran kosmosun dinc məqsədlərlə tədqiqi və işlənilməsi sahəsində birgə əməkdaşlığı, fikir və təcrübə mübadiləsini genişləndirəcək. Bundan əlavə, iki dövlət səhiyyə və elm, o cümlədən tibbi tədqiqatlar və kadr hazırlığı sahələrində də əməkdaşlıq edəcək. Eyni zamanda, Moskva və Tehran Xəzər regionu, Mərkəzi Asiya, Cənubi Qafqaz və Yaxın Şərqdə sülh və sabitliyin möhkəmləndirilməsi üçün birgə tədbirlər görəcəklər.

Müqavilə 20 il müddətində qüvvədə olacaq və 5 ildən bir avtomatik olaraq uzadılacaq.

Qeyd edək ki, Pezeşkianın Moskvaya səfəri ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın andiçmə mərasimindən üç gün əvvəl baş tutub. O, Tehrana qarşı daha sərt mövqe tutacağını vəd edib və İrana qarşı "maksimum təzyiq strategiyası"na, o cümlədən irimiqyaslı yeni sanksiyalar paketinə qayıtmağı vəd edib.

***P.ƏFƏNDİYEV***
***XQ***

Epidemioloji durum

# Meymunçiçəyi ölkəmizə də yol tapdı

## *Turistlər və xarici vətəndaşlar yoluxma mənbəyi sayılır*

**Azərbaycanda meymunçiçəyi aşkarlanıb. Bu barədə mediaya Səhiyyə Nazirliyi və TƏBİB-in birgə yaydığı açıqlamada deyilir.**



Qeyd edilir ki, 22 yaşlı Azərbaycan vətəndaşı bu il yanvarın 2-dən 11-dək xarici ölkələrdən birinə turist olaraq səfər edib. Səyahətdən döndükdən bir neçə gün sonra özündə halsızlıq, hərarət, qarından aşağı nahiyədə suluqlu səpgilər, limfa düyünlərinin böyüməsi və əzələ ağrıları müşahidə edib. O, həmin əlamətlərlə Bakıda fəaliyyət göstərən klinikalardan birinə müraciət edib.

Məlumatda bildirilir ki, həkim-infeksionist xəstənin simptomlarına görə meymunçiçəyi virusuna yoluxmasından şübhələnib, anamnez toplayıb. Onun digər ölkəyə səfəri müəyyən olunub və səfər zamanı səpkili şəxslə əlaqəsinin olduğu aydınlaşıb. Simptomlarla yanaşı, epidemioloji əlaqənin olması laborator müayinə üçün test götürməyə əsas verib və xəstənin səpkilərindən götürülmüş yaxmanın laboratoriyada PZR üsulu ilə müayinəsinin nəticəsi meymunçiçəyi virusuna görə müsbət olub.

Hazırda xəstə hospitalizasiya edilib və xəstəxana şəraitində müalicə alır. Xəstə ilə təmasda olan ailə üzvlərində heç bir xəstəlik əlaməti olmadığına görə, onlar ərazi üzrə xidmət göstərən ambulator tibb müəssisəsi və sanitariya-epidemioloji xidmət əməkdaşları tərəfindən evdə müşahidəyə götürülüb, profilaktik müalicə təyin edilib və dərman preparatları ilə təchiz olunublar.

Xəstə və təmasları üzərində müalicə və müşahidə tədbirləri xəstəliyin inkubasiya dövrü bitənə qədər davam etdiriləcək.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov bildirib ki, dünyada meymunçiçəyi virusunun aşkarlandığı ölkələrin və yoluxma ilə bağlı təsdiq olunmuş halların sayı artıb. Virus ilk dəfə meymunda aşkar edilib və 1970-ci ildən bəri 10 Afrika ölkəsində sporadik epidemiyalar qeydə alınıb.

Afrikadan kənarda xəstəliyin ilk yayılması halı 2003-cü ildə ABŞ-da qeydə alınıb. O vaxt virus xırda məməlilərdən yoluxan çöl itləri ilə yaxın təmas vasitəsilə yayılıb. Qeydə alınan 81 hadisə nəticəsində ölən olmayıb.

İndiyədək məlum olan ən böyük epidemiya 2017-ci ildə Nigeriyada baş verib. Burada 172 şübhəli hadisə olub. Yoluxanların 75 faizi 21–40 yaş arası kişilər olub.

Virusun başlıca fərqi ondadır ki, infeksiya endemik olmayan ölkələrdə yaşanır, yəni Afrika qitəsində deyil, Avropa və s. ölkələrdə yayılır. Böyük Britaniya, İsveç, İtaliya, Fransa, Avstraliya, Kanada, Almaniya, Niderland, Yunanıstan, Belçika, İsveç və İspaniya da daxil olmaqla bəzi ölkələrdə yoluxma halları müəyyən edilib.

Meymunçiçəyi virusunun daha çox kiçik yaşlı uşaqlar arasında yayıldığı və ağır keçdiyi güman edilir. Amma böyüklər də bu infeksiyaya yoluxurlar.

Tibb elmləri doktoru, "XQ"nin tibb üzrə eksperti Musa Qəniyev isə bildirib ki, virus əsasən, heyvandan insana keçir. Amma insandan insana yoluxma halları da müşahidə olunur:

– Bunu virusun insandan insana yoluxmasında əsas yolun təmas – qucaqlaşmaq, öpüşmək, intim yaxınlıq olduğunu söyləyən ÜST ekspertlərinin ortaq qənaəti də təsdiq edir. İddia olunur ki, intim yaxınlıqda yoluxma riski, hətta xəstəlikdən sağaldıqdan sonra 12 həftə müddətində də saxlanılır. İnfeksiyaya gəlincə, deyə bilərik ki, hazırda dünyada bu virusa yoluxma 0,0006 faiz, ölüm halı isə, 0,00002 faiz nisbətindədir. Yəni bu virusun endemik ocağından xaric, dünyada, hətta, epidemiya törətmək ehtimalı belə yoxdur.

Xəstəliyin inkubasiya dövrü 5–21 gün arasında dəyişə bilər. Xəstəlik adətən 2–4 həftə davam edir. Başlanğıc dövründə qeyd edilən kataral əlamətlər (hərarət, şiddətli başağrı, limfa düyünlərinin böyüməsi) sonradan səpgi dövrünə keçir. Səpgilər eyni inkişaf mərhələsində olmaqla bütün bədəni əhatə edir. Bir neçə gün davam edən səpgi eyni vaxtda qartmaq əmələ gətirməklə, yerində çapıq toxumasının əmələ gəlməsi ilə sağalır.

Professor əlavə edib ki, ölkəmizdə xarici ölkə vətəndaşları işləyir, təhsil alırlar. Eyni zamanda, vətəndaşlarımız xarici ölkələrə ezamiyyəyə, təhsil üçün, səyahət məqsədli səfərlər edə bilərlər. Və hər hansı virusun ölkəmizdə aşkarlanması təəccüblə qarşılanmamalıdır. Həkimin tövsiyələri və göstərişlərinə əsasən, yoluxan şəxs 15–20 günə öz sağlamlığına qovuşur.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

**Gəncə şəhərinin yaxınlığında, əsasən, Xocalı, Kəlbəcər və Laçın rayonlarından olan keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdırıldığı bir qəsəbə var. Yan-yana sıralanmış müasir tipli evlərin damları qırmızı fin dəmiri ilə örtüldüyü, fasadları yenə eyni rəngdə xırda kərpiclərlə üzləndiyi üçün "qırmızı qəsəbə" də deyirlər adına. Dövlət burada vaxtilə Ermənistanın işğalçılıq siyasətinin qurbanına çevrilmiş vətəndaşları üçün hər şərait yaradıb: böyük, müasir orta məktəb binası, uşaq bağçası, tibb məntəqəsi, poçt...**

# Məcburi köçkünlüyün yaddaş saxlancı

## *Xocalılılar yaşdadıqları faciələrin nişanələrini muzeyləşdiriblər*

Və yan-yana sıralanmış evlərdən biri muzey üçün uyğunlaşdırılıb. Xocalılıların özləri kimi başı çox qeylü-qallar çəkmiş Yaloba tarix-diyarşünaslıq muzeyi məhz həmin evdə yerləşir. İlk dəfə Beynəlxalq muzeylər günündə olmuşdum burada. Qərara gəlmişdim ki, sələfi işğal altında qalmış, eksponatları ermənilər tərəfindən ələ keçirilmiş, ancaq əməkdaşlarının fədakarlığı sayəsində yenidən fəaliyyətini bərpa etmiş bu muzey barəsində mütləq yazmalıyam.



Elə bu məqsədlə də yenidən üz tutdum Xocalının ilk və hələ ki, yeganə olan tarix-diyarşünaslıq muzeyinə – Qarabağ Regional Mədəniyyət İdarəsi Xocalı rayon Yaloba kənd tarix-diyarşünaslıq muzeyinə. Cəmi 9 əməkdaşın çalışdığı muzeyin yaradıcısı və direktoru Tofiq Məmmədov bizi mehribanlıqla qarşıladı, rəhbərlik etdiyi mədəniyyət ocağının tarixi haqqında ətraflı məlumat verdi. Öyrəndik ki, hər eksponatın özünün bir tarix olduğu muzeyin yaranma tarixi Qarabağda erməni separatizminin baş qaldırdığı dövrlə, ötən əsrin 80-ci illəri ilə yaşıddır. Elə Xocalının ucqar dağ kəndinin sakinində muzey yaratmaq ideyası da çörəyimizə-suyumuza naxələf çıxmış ermənilərin torpaq iddialarından sonra yaranıb. T.Məmmədov həmin dövrü belə xatırladı:

– Erməni daşnakları gündən-günə azğınlaşır, kəndlərimizə hücum edirdilər. Dədə-babalarımızın minillərdir yaşadıqları torpaqlara göz dikmişdilər ki, guya bu



yerlər onların olub. Mən də həmin vaxt tariximizi özündə yaşadan qədim əşyaları, xalçaları toplayıb muzey yaratmaq qərarına gəldim. Çünki erməni yalanlarına ən gözəl cavab elə həmin eksponatlar idi. Necə deyərlər, kəndbəkənd düşüb, bir-bir evlərin qapısını döydüm, 3 ildən artıq müddətdə 800 adda 2500 ədəd eksponat topladım. Bütün bu işləri şəxsi təşəbbüsümlə, öz vəsaitim hesabına görürdüm. Nəhayət, çoxsaylı müraciətlərimdən sonra 1991-ci il aprelin 19-da mədəniyyət nazirinin əmri ilə Yaloba tarix-diyarşünaslıq muzeyi yaradıldı.

Ancaq ağır zəhmət bahasına toplanmış eksponatların taleyi qara gətirib. Öz yerində-yurdunda cəmi bir ildən bir az artıq fəaliyyət göstərən muzey də Xocalı şəhəri və rayonun kəndləri kimi erməni faşistlərinin qurbanına çevrilib, qiymətli muzey materialları, nənələrimizin göz nuru Qarabağ xalçaları düşmənin əlinə keçib. Sonrakı mərhələdə ermənilərin həmin eksponatları "erməni irsi" kimi təqdim etdikləri şübhə doğurmur. Bəs muzey daha əvvəl niyə başqa yerə köçürülməyib, xilas edilməyib? Səbəb həmin vaxt Azərbaycana rəhbərlik etmiş səriştəsiz siyasətçilərin qoyduqları qadağalar olub.

Direktor muzeyin "ikinci həyatı" haqqında da məlumat verdi:

– Ümummilli lider, xalqımızın xilaskarı Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra məcburi köçkünlərə də münasibət dəyişdi, diqqət və qayğı artdı. Həmin dövrdə bizə təklif olundu ki, ya müəssisənin fəaliyyətini davam etdirək, ya da iş "dondurulmaqla" əməkhaqqı ilə təmin olunaq. Çünki muzeyin heç nəyi qalmamışdı. Biz birinci variantı seçdik. Yenə Xocalıdan olan məcburi köçkünlərin evlərini bir-bir gəzərək kimlər ki doğma yurdundan didərgin düşəndə öz əşyalarını gətirə bilib, onlarla görüşdük. Yenidən qədim əşyalar, xalçalar, gəbələr, xurcunlar, saxsı qablar topladıq. Hazırda muzeyin əsas fondunda 187, köməkçi fondunda isə 538 eksponat saxlanılır. Muzeydə, həmçinin Xocalı faciəsinin qurbanlarının, Azərbaycanın Milli qəhrəmanlarının şəkillərinin toplandığı xatirə guşələri, əl işləri də sərgilənir. Qəsəbədəki təhsil müəssisələrinin əməkdaşları, şagirdlər tez-tez muzeyimizə qonaq gəlirlər. Bu da xüsusilə gənc nəslə vətənpərvərlik ruhunun aşılanması baxımından çox önəmlidir.

...Fürsətdən istifadə edib mədəniyyət ocağının çox da böyük olmayan zallarını biz də gəzdik. Muzeyin elmi işçisi Mirəli Mirzalılı, muzey bələdçiləri hər eksponat barədə sevgiylə, şövqlə məlumat verdilər. Hər biri özündə tariximizin kiçik bir hissəsini yaşadan eksponatlarla tanış olduqca, insan sanki keçmişlərə qayıdır. Elə bil ağbirçək nənəmizin kirkidi əlində hananın qarşısında oturaraq nəvələrinə şirin nağıllar danışa-danışa gözəl Qarabağ xalçası toxuduğu gözlərimiz önündə canlanır. Görəsən, bu eksponatlar, bu xalçalar danışa bilsəydilər, bizlərə daha nələrdən söhbət açardılar?

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə Vətən müharibəsində və 2023-cü il 19-20 sentyabrda Qarabağda erməni separatçılarına qarşı keçirilmiş antiterror tədbirlərində qazandığımız şanlı qələbələrdən sonra xocalılılar böyük qürur və sevinc hissi ilə öz doğma ata-baba yurdlarına qayıtmağa başlayıblar. "Məcburi köçkünlük" həyatı sona çatmaqda olan muzey də Böyük Qayıdışa hazırlaşır.

Ümid edirik ki, Mədəniyyət Nazirliyinin, həmçinin Qarabağ Regional Mədəniyyət İdarəsinin rəhbərliyi Xocalı rayon Yaloba tarix-diyarşünaslıq muzeyinin yeni, daha geniş ünvanda daimi yerləşməsini, eksponatlarla zənginləşdirilməsini xüsusi diqqətdə saxlayacaq. Çünki tariximizə sahib çıxmaq, Xocalının yeganə tarix-diyarşünaslıq muzeyinə qayğı və diqqət həm də o müqəddəs torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərimizin ruhuna hörmət və ehtiram deməkdir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 12 (30706) 19 yanvar 2025-ci il, bazar


İdman

# “Neftçi” klubu – 1 ilə 1001 medal

**“Neftçi” İdman Klubunun idmançıları ötən il ərzində iştirak etdikləri yarışlarda, ümumilikdə, 1001 medal qazanıblar.**



Onlardan 337-si qızıl, 303-ü gümüş, 361-i isə bürünc medaldır. Klubun istifadəsində olan idman qurğularında 26 növ üzrə bölmələrdə 2 mindən çox yeniyetmə və gənc idmanla məşğul olub.

Ötən il Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunlarında “Neftçi” İdman Klubunun cüdoçusu Hidayət Heydərov Olimpiya çempionu tituluna sahib olub. Bununla da o, bir ildə Avropa, Dünya və Olimpiya çempionu adını qazanmaqla Azərbaycan idmanının tarixinə düşüb. Yunan-Roma güləşçisi Həsrət Cəfərov isə Paris Olimpiadasının bürünc medalını qazanıb.

Paralimpiya Oyunlarında isə idmançılardan İmaməddin Xəlilov, Səid Nəcəfzadə, Orxan Aslanov qızıl, Lamiyə Vəliyeva 1 qızıl, 1 gümüş, Raman Saley 1 gümüş, 2 bürünc, Sabir Zeynalov, Vəli İsrafilov və İlham Zəkiyev isə bürünc medala sahib olublar.

# Üzgüçülük Federasiyasında seçki

**Azərbaycan Üzgüçülük Federasiyasının ümumi yığıncağı keçirilib.**




Yığıncaqda Azərbaycan Üzgüçülük Federasiyasının İcraiyyə Komitəsinin yeni tərkibi təsdiq edilib. Səsvermə nəticələrinə əsasən, növbəti 4 il müddətinə Zaur Əliyev Azərbaycan Üzgüçülük Federasiyasının yeni prezidenti, Xaliq İldırımzadə, Dəyanət Sədullayev və Ümid Abuzərli vitse-prezidentlər, Şamil Əbdürrəhmanov, Eldar Abbasov, Ruslan Ələkbərov, Azər Babayev və Mark Koqanov isə İcraiyyə Komitəsinin üzvləri seçiliblər.

Sonda Zaur Əliyev göstərilən etimada görə təşəkkür edib, bu idman növünün inkişafı üçün əlindən gələni edəcəyini bildirib. Federasiyanın sabiq prezidenti Xanlar Fətiyev yeni federasiya prezidentinə və üzvlərinə uğurlar arzulayıb.

*L.QURBANOVA*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# “AzerGold” QSC-də rəqəmsal təlim

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) “AzerGold” QSC-nin əməkdaşları üçün informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq və kibergigiyenanı təmin etmək məqsədilə maarifləndirmə tədbiri keçirib.**




Ümumilikdə, 35 nəfərin iştirak etdiyi tədbirdə ETX-nin əməkdaşı tərəfindən “Onlayn mühitdə kibertəhlükəsizlik” və “Kibertəhlükəsizliyin təməlləri” mövzularında çıxışlar edilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, təlimin keçirilməsində məqsəd Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası”na uyğun olaraq informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətini formalaşdırmaq, kibergigiyenanı təmin etməkdir.

Təlim çərçivəsində əməkdaşların məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə təlimdən əvvəl və sonra test tapşırıqları icra edilib.

*Qəzənfər QASIMOV*
*XQ*

Yaşıl adalar

# Qədim xəzərlərin məskəni: Hirkan

***Herodot bu cənnət məkanı belə tanıyırdı***





**Hörmətli oxucular! XQ-də milli parklarıımızla bağlı silsilə yazılarımızı davam etdiririk. Bu dəfə sizi Hirkan Mill Parkına səyahətə dəvət edirik. O Hirkan ki, onu Herodot xəzərlərin məskəni kimi tanıyırdı.**

HMP Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2004-cü il tarixli sərəncamı ilə yaradılmışdır. Ölkəmizin cənub-şərqində, Lənkəran və Astara rayonlarının ərazisində yerləşir.

Bura həm təbii gözəlliyinə, həm də öz flora və faunasının zənginliyinə görə heyrətamiz bir məkandır. Xoşbəxtlikdən ötən ilin payızında bu əsrarəngiz gözəlliyi görmək mənə də nəsib olub.

Parkın üstün cəhətlərindən biri onun Xəzər dənizinə yaxın olmasıdır. Yerli sakinlərin dediklərinə görə, dənizdən əsən yaz-yay aylarında buranı əsl cənnətə döndərir. Payızda, qışda isə tez-tez yağan yağışlar torpağın normal nəmliyini təmin edir.

Xalq şairi Səməd Vurğun deyilənlərə görə, məhz Lənkəran ərazisindəki bu əsrarəngiz təbiət mənzərələrindən ilhamlanaraq yazmışdır:

**Bir tərəfin bəhri-Xəzər,**
**Yaşılbaş sonalar gəzər;**
**Xəyalım dolaşar gəzər,**
**Gah Muğanı, gah Eldarı.**
**Mənzil uzaq, ömür yarı!**

Parkda vaxtaşırı ətraf mühitin mühafizəsi ilə bağlı monitorinqlər keçirilir. Əldə olunan məlumatlar ictimaiyyətə çatdırılır. Burada ekoloji turizmin inkişafı üçün də imkanlar böyükdür. Bu istiqamətdə atılan addımlar əhali tərəfindən müsbət qarşılanır.

HMP-nin ərazisinin çox hissəsi meşələrlə örtülüdür. Parkda şərqdən qərbə dağlara qalxdıqca, meşələrin tərkibində dəyişikliyi müşahidə etmək olar. Aşağı hissədə əsasən, şabalıdyarpaq palıd, dəmirağac və vələsin (Lənkəran akasiyası, Xəzər ləläyi, Hirkan ənciri, Qafqaz xurması, Azat, və s.) üstünlük təşkil etdiyi meşələr yayılmışdır.

Hündürlükdə isə, əsasən, dəmirağac, qismən də şabalıdyarpaq palıd azalır, onları fıstıq meşələri əvəz edir. Buradakı meşələrdə ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şümşadı, pırkal, müxtəlif lianalar geniş yayılmışdır. Bu bitkilərin əksəriyyətinin adı Azərbaycanın “Qırmızı Kitab”ına daxil edilmişdir.

Qeyd etmək lazımdır ki, parkın ornitofaunasına daxil olan qara leylək, məzar qartalı, qıvrımlələk qutan, turac, mərmər cürə, Talış qırqovulu, Hirkan arıquşu, toğlugötürən və s. quşların ovlanması qadağan edilmişdir.

Parkın heyvanat aləmi də çox zəngindir. Burada məməlilərdən bəbir, xallı maral, vaşaq, porsuq, qaban, cüyür, yenot və s. növlərə rast gəlmək olar.

Tanınmış şair-publisist Əli Nəcəfxanlının XQ-nin 12 oktyabr 1912-ci il tarixli nömrəsində dərc olunan “Cənub mirvarisi qızıl Lənkəran..." adlı məqalədə yaşıllıqları göz oxşayan Lənkəranı qocaman Xəzərin zümrüd qaşına bənzədir. Hörmətli həmkarımızın sözlərinə görə, vaxtilə burada gözəl bir ənənə olub: şəhərə gələn qonaqlar düşdükləri ünvanda mütləq ağac əkiblər.

Lənkəran şəhərinin fəxri vətəndaşı olmuş böyük rus şairi Nikolay Tixonov isə şeirlərinin birində bu barədə belə yazıbdır:

**Səfalı Lənkəran torpağında mən**
**Bir eldar ağacı əkdim bir səhər...**

Hirkan Milli Parkı isə cənub bölgəsinin yaşıl libası sayılır. Yaxşı haldır ki, həm yerli sakinlər, həm də qonaqlar onun qədrini və dəyərini bilirlər. Sağ olsunlar!

*M.HACIXANLI*
*XQ*

Hava

# Abşeronda duman, bölgələrdə yağış, qar, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 19-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək, gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq. Gecə 3-6°, gündüz 7-11° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 8-13° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# Yağış damcısı yarpağa dəyib enerjiyə çevrilir

**Yağış damlası bitki yarpağının üzərinə düşən zaman qarşılıqlı təsirin unikal dinamikası sayəsində onu məhv etmir. Kornell Universitetinin alimləri bu bitki mühafizə mexanizminin necə işlədiyini və onun bərpaolunan enerjidə necə tətbiq oluna biləcəyini müəyyən ediblər. Araşdırma “Physical Review Fluids” (PRF) jurnalında dərc olunub.**

Tədqiqatçılar yarpağın davranışını imitasiya edən elastik plastik şüa ilə su damcısının toqquşmasını müşahidə edərək qeyri-adi təcrübə aparıblar. Onlar yüksək sürətli kameradan istifadə edərək damlanın deformasiyasını və şüanın vibrasiyasını qeydə alıblar. Təcrübə zamanı maraqlı bir effekt aşkar edilib: rezonans fenomeninə görə şüanın vibrasiya tezliyinin üst-üstə düşməsi və düşmənin deformasiyası sistemin ümumi vibrasiyasını əhəmiyyətli dərəcədə azaldıb. Bu təsir yağışdan yarpaqların zədələnməsini azaltmağa və onların ömrünü uzatmağa kömək edir.

Araşdırma bitkilərdə baş verən prosesləri öyrənməklə yanaşı, enerjidə yeni üfüqlər açır. Şüanın bir piezoelektrik material ilə dəyişdirilməsi yağışa məruz qaldıqda elektrik enerjisi



istehsal edəcək. Təbiətdən ilhamlanan bu cür texnologiya təmiz enerji mənbələrinin yaradılmasında irəliyə doğru bir addım ola bilər.

*FİDAN*
*XQ*

Sağlamlıq

# Sarımsaq, zəncəfil, darçın, yaşıl çay = qurd dərmanı



**Bəzən uşaqlarda qarın nahiyəsində sancılar olanda düşünmürük ki, onları narahat edən bağırsaqdakı parazitlərdir. Yaşı 3–12 arasında olan uşaqlarda qurd xəstəliklərinə tez-tez rast gəlinir.**

Uşaq orqanizmində, eyni zamanda, bir neçə növ helmint (qurd) parazitlik edə bilər. Helmintlər uşağın immunitetinin azalmasına, allergiyalara, mədə-bağırsaq və sinir sisteminin pozulmasına səbəb olur. Uzun müddət müalicə olunmayanda fiziki və əqli inkişafını ləngidir.

Yalnız dərman vasitələri ilə deyil, eyni zamanda, bəzi xalq təbabəti üsulları ilə də parazitlərdən xilas olmaq mümkündür.

Fitoterapevtlər orqanizmdə olan parazitləri aradan qaldıran təbii çay resepti təklif ediblər. Həmin çayı hazırlamaq üçün 1 diş sarımsaq, 1 dilim zəncəfil, yarım çay qaşığı darçın lazımdır. Hazırlanma qaydası ilə tanış olaq:

Balaca qazan götürüb zəncəfili və sarımsağı içinə doğrayın. Daha sonra darçın və bir stəkan təmiz su da əlavə edib qarışdırın. Su zəif odda qaynadıqdan sonra kənara çəkin. Soyuması üçün 5 dəqiqə gözləyin.

Soyuduqdan sonra zövqə görə bir qədər bal əlavə etmək olar. Bu çayı yeməkdən əvvəl gündə 2–3 dəfə içmək lazımdır. Cəmi 1 həftə sonra orqanizm qurdlardan təmizlənəcək.

*Z.HÜSEYNLİ*
*XQ*


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2939
SİFARİŞ 93
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00